RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 94 (8687) ÇƏRŞƏNBƏ, 5 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



*Azərbaycanın özü qədər əbədi*



## Şəxsiyyət zirvəsi

... 1969-cu ilin yayını ailəliklə Bilgəhdəki bağımızda keçirirdik. Qonaqların, ailə dostlarının gəlib-getdiyi bağ evimizdə böyüklərin söhbətlərinin mövzusu həm də ölkədəki vəziyyət idi.

Yaşımın azlığına baxmayaraq, mən o vaxt da həvəslə tarixi kitabları oxuyurdum və böyüklərin ictimai-siyasi mövzuda söhbətlərini maraqla dinləyirdim.

Bu söhbətlər zamanı müxtəlif sahələrdəki problemlərdən danışılır, fikir mübadiləsi aparılırdı.

Günlərin bir günü, - sonradan həmin tarixin məhz 14 iyul olduğunu biləcəkdim, - atam işdən bağa qayıdarkən elə kandardaca anamla həyəcanla danışmasına, anamın da aramsız suallar yağdırmasına diqqət kəsildim. Valideynlərim çox həyəcanlı idilər, amma üzlərində sevinc, razılıq və ümid hissini aşkar sezmək olardı.

Onların söhbətlərində bir adı cümlələrinin əvvəlində də, sonunda da təkrar-təkrar səsləndirmələrini necə heyrətlə müşahidə etdiyimi, - 52 il sonra bu sətirləri qələmə alarkən də bütün varlığımla hiss edirəm.

O dahi insanın ismini ilk dəfə o gün eşitdim: söhbət sonradan həyatımın birbaşa bağlı olacağı ən mükəmməl siyasi xəttin, əsgəri olacağım kamil dövlətçilik ideologiyasının yaradıcısı olan əbədiyaşar Heydər Əliyevdən gedirdi...

Atamdan nə baş verdiyini soruşdum. Cavab verdi ki, güclü və ədalətli insan respublikanın rəhbəri seçilib. İndi çox şey müsbətə doğru dəyişəcək.

Ardı 6-cı səh.

## Əbədiyaşarlıq rəmzi

Hər il olduğu kimi, bu il də bütün dünya azərbaycanlıları tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının növbəti ildönümü böyük ehtiramla qeyd edilir. Hər bir xalqın əsrlərboyu formalaşan dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtdir.

Güclü, qətiyyətli, vətənpərvər və müdrik liderə malik olmayan xalq hətta real imkanlar daxilində belə öz müstəqilliyinə qovuşa bilmir. Düz 98 il bundan öncə Azərbaycan xalqının əsrlərboyu bəslədiyi azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali məqsədlərini gerçəkləşdirmək üçün Allah özü Ümummilli Lider Heydər Əliyevi xalqımıza bəxş etdi.

### Heydər Əliyev inkişafın möhkəm əsaslarını yaratdı

Görkəmli dövlət xadimi, təcrübəli siyasətçi, Azərbaycan dövlətçiliyinin möhkəm təməlini yaradan və onu möhkəmləndirən, davamlı inkişaf yoluna çıxaran qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin mühüm mərhələsini təşkil edir. Müasir dövlətçilik tariximiz Heydər Əliyev dühasının çoxşaxəli və məhsuldar fəaliyyətinin canlı salnaməsidir.

Ardı 7-ci səh.

## Heydər Əliyevin «Bir millət - iki dövlət» prinsipi Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini təmin edir

### Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə videokonfransı keçirilib

Mayın 4-də Türkiyənin Ədalət və İnkişaf Partiyası - Yeni Azərbaycan Partiyası əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycan - Türkiyə, bir millət, iki dövlət: Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri" mövzusunda videokonfrans keçirilib.

Videokonfransın moderatorları, Milli Məclisin deputatı Ramil Həsən və Ədalət və İnkişaf Partiyasının Xarici əlaqələr departamentinin müdir müavini, Türkiyə parlamentinin üzvü Mehmet Ceylan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş bu tədbirin əhəmiyyətini vurğulayıblar.

Ardı 3-cü səh.



## Milli Prioritetlər - yeni inkişafın yol xəritəsi

### İlham Əliyevin müəyyənləşdirdiyi yüksəliş konsepsiyası sistemli islahatlar üçün böyük imkanlar yaradacaq

Son 17 ildə yaranan potensial Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyada enerji təhlükəsizliyi ilə bağlı etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın regionda iqtisadi rolunu daha da yüksəldib.

### 3 dəfədən çox böyüyən iqtisadiyyat

Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamında qeyd edildiyi kimi, həyata keçirilən yeni strategiya sayəsində ölkə iqtisadiyyatının həcmi 17 ildə 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb. Mütərəqqi islahatlar hesabına ölkənin sosial-iqtisadi potensialı artıb, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşıb.

Məhz İlham Əliyevin yeni inkişaf strategiyası əsasında əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin qüdrətinin hərtərəfli yüksəlişini şərtləndirib.

İkinci Qarabağ müharibəsində qazanılan qələbədən sonra Azərbaycanda mahiyyət etibarilə yeni dövr başlayıb. Dünya iqtisadiyyatına hələ də ciddi təsir etməkdə olan qlobal pandemiya ilə mübarizə tədbirləri ölkəmizə təsirsiz ötüşməsə də, dövlətin iqtisadi qüdrəti imkan verir ki, həm işğaldan azad edilmiş torpaqlarımızda abadlıq-quruculuq prosesləri, həm pandemiyaya qarşı mübarizə tədbirləri, həm də qarşıdakı dövr üçün yeni mütərəqqi islahatları reallığa çevirmək mümkün olsun.

Bütün dövrlərdə baş verə biləcək neqativlərə qarşı əvvəlcədən tədbirlər görən, mühüm qərarlar qəbul edən İlham Əliyev yeni dövrdə də Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, növbəti onillikdə sosial-iqtisadi inkişafının yüksəlişinin təmini üçün Milli Prioritetlər müəyyənləşdirib. Sosial-iqtisadi inkişafa dair hazırlanan prioritetlər özündə beş istiqaməti cəmləşdirir - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qarşıdakı 10 illik müddəti əhatə edən bu vacib iqtisadi sənəd eyni zamanda postmüharibə dövrünün reallıqlarını özündə əks etdirir. Həmçinin növbəti onillikdə iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini təmin etmək baxımından tamamilə yeni imkanlar açır. Yəni, Milli Prioritetlər ölkəmizin bütün sahələrdə sürətli inkişafına təkan verən vəzifələrin müəyyən olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Ardı 9-cu səh.

◆ Milli Məclisin iclasında

## Ələt Azad İqtisadi Zonasının fəaliyyəti daha da təkmilləşdiriləcək

Mayın 4-də parlamentin növbəti plenar iclası keçirildi. Əvvəlcə deputatlar cari məsələlər barədə fikirlərini bildirdilər.

Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Könül Nurullayeva, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Əli Məsimli, Razi Nurullayev, Tural Gəncəliyev, Azər Badamov, Müşfiq Cəfərov müxtəlif məsələlərə toxundular. Çıxış edənlər Dövlət Təhlükəsizliyi Xidməti və Sərhəd qoşunları zabitlərinin sərhəddə təqdirəlayiq fəaliyyətindən, azad olunmuş ərazilərdə yenidənqurma işlərindən, o cümlədən "Ağıllı kənd", "Ağıllı şəhər" layihələrinin həyata keçirilməsindən bəhs etdilər. Çıxışlarda həmçinin manatın məzənnəsi, bankların durumu, icbari tibbi sığorta, bələdiyyə torpaqlarının ayrılması sahəsində vəziyyət və sair məsələlər barədə fikirlər səsləndirildi.

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, 11 məsələ müzakirə ediləcək. Gündəliyin ilk 4 məsələsi üçüncü oxunuşda olan qanun layihələri idi.

Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırdı. Bildirdi ki, qanun layihəsi üçüncü oxunuşun tələblərinə tam cavab verir. Sənəd dini etiqad azadlığı sahəsində mövcud olan və yeni yaranan münasibətləri ölkənin qanunvericilik sisteminə uyğun şəkildə tənzimləmək, qanunun tələblərinə riayət olunmasına nəzarəti və maarifləndirmə işini səmərəli təşkil etmək məqsədi daşıyır.

Ardı 2-ci səh.

Felyeton

## Axmaq baş sahibinə qapaz yedizdirər

Hələ özünü ağılsız sayan adama rast gəlməmişəm!

Bəxtindən, imkansızlığından, işlərinin düz getməməsindən, hətta boyunun qısalığından və ailəsinin uğursuzluğundan gileylənənlər çox olsa da, ağlının azlığından şikayətçi yoxdur!

Gör hələ bir millət ola!

Ermənilər özlərini "çox qədim", "ən mədəni", "zəngin dövlətçiliyə malik", "xiristianlığı ilk qəbul edən millət" hesab etsələr də, nə deyilənləri təsdiq edən sübutları var, nə də deyilənlərə uyğun ağıl sahibidirlər!

Düzdür, hələlik "ağılölçən" cihaz kəşf olunmayıb!

Amma insanın əməlinə, gördüyü işlərə əsasən ağlına qiymət vermək mümkündür!

Eyni zamanda millətin də!

Əgər ən qədim millətsənsə, onda niyə yerin-yurdun, vətənin olmayıb? Azərbaycandan qamarladığınız torpaq hesabına özünüzə dövlət qurmusunuz.

Qədim Azərbaycan torpaqlarında XX əsrin əvvəllərində yaradılan Ermənistan dövlətinə qədər dövlət görməmisinizsə, onda hansı "qədim dövlətçilik"dən danışırsınız?

Əgər XX əsrədək vətəniniz, dövlətiniz olmayıbsa, onda mədəniyyətiniz harada formalaşıb, mədəniyyət abidələriniz, nümunələriniz haradadır, niyə görünmür?

Əgər qədim musiqiniz, mətbəxiniz, sənət nümunələriniz varsa, onda niyə bizimkiləri oğurlayıb öz adınıza çıxırsınız?

Adətən əliəyrilər özlərində olmayanları başqalarından mənimsəyib özününküləşdirməyə çalışırlar.

Əgər xiristianlığı ilk dəfə siz qəbul etmisinizsə, onda qədim, əzəmətli kilsələriniz hanı, harada tikmisiniz?

Niyə Allahın evlərini - kilsələrini oğurlayıb səmtini dəyişərək ora-burasına söz yazıb, işarə qoymaqla erməniləşdirirsiniz?

❖ ❖ ❖

Deyir, dadanmışa tövbə yoxdur!

1918-ci ildə yaranmş vəziyyətdən hiyləgərliklə istifadə edərək hamilərinizin məkrli niyyətləri sayəsində xeyli torpağımızı mənimsədiniz!

Dişinizdə şirə qaldı!

Ötən əsrin sonlarında qırmızı imperiya dağılanda təzə iştahaya düşdünüz.

Çoxdan gözaltı etdiyiniz Dağlıq Qarabağı ələ keçirmək üçün min oyundan çıxdınız!

Əvvəlcə SSRİ-nin birinci və axırıncı prezidenti M.Qorbaçovun arvadı Raisa Maksimovaya brilyant daşlarla işlənmiş üzük "hədiyyə" edərək onlardan Dağlıq Qarabağın "hə"sini aldınız.

Sonra başladınız nala-mıxa döyməyə, mitinqlər keçirməyə, guya bölgənin iqtisadiyyatı zəifdir, sizləri sıxışdırırlar, daha azərbaycanlılarla birgə yaşamaq mümkün deyil və s. və i.a.

Ardı 9-cu səh.

◆ Jurnalist araşdırması

## Azərbaycanın dostları

### Müharibə qurtarsa da, "döyüş" davam edir

Maruan Sudah illərdir ailəsi ilə birlikdə erməni təbliğatına qarşı döyüşür və bu mübarizədən əl çəkmək niyyətində deyil: "Vaxt olub ki, ailəm İordaniyada erməni diasporunun hücumlarına məruz qalıb, onlar məni çalışdığım nüfuzlu "Əl Rəy" qəzetində işdən uzaqlaşdıra biliblər.

Erməni təbliğatından mənə də Azərbaycan vətəndaşına olduğu qədər zərbə dəyib. Ona görə də biz Azərbaycan xalqının hansı təzyiqlərə və məkrli informasiya hücumlarına məruz qaldığını yaxşı bilirik. Mən yarım əsrdən artıqdır Azərbaycana bağlı insanam, odur ki, ailəmlə birlikdə özümüzü azərbaycanlı saymağa mənəvi haqqımız var. Bundan sonra da Ermənistan dövlətinin işğalçılıq siyasətini, erməni diasporunun yalanlarını həyat yoldaşım Yelena və qızım Mariya ilə ifşa edəcəyik. Hamımız Azərbaycanı ərəb mətbuatında təbliğ edir və bundan qürur duyuruq. Biz Azərbaycanlıyıq!"

Ardı 10-cu səh.

## Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"də, 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda və 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718; 2007, № 5, maddə 460, № 11, maddə 1117; 2008, № 6, maddələr 496, 497; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 182; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1115; 2014, № 10, maddə 1180; 2015, № 8, maddə 913; 2016, № 5, maddə 880, № 6, maddə 1031; 2017, № 3, maddə 388, № 6, maddə 1070, № 9, maddə 1636; 2018, № 5, maddə 943, № 11, maddə 2265; 2019, № 6, maddə 1051) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"nin 17.18-2-ci bəndində "Respublikası" sözü "Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının, Azərbaycanın" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825; 2019, № 1, maddə 58, № 4, maddə 618; 2020, № 5, maddə 541) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3.2.1-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 1-1-ci abzas əlavə edilsin:

"1-1. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı, övladları);";

2.2. 2-ci abzasda "Milli Qəhrəman" sözləri "Azərbaycanın Milli Qəhrəmanı" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 7.1-ci bəndi 7.1-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 7.1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 7.1. | Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2021-ci il*

## "Radiotezliklər üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 15 avqust tarixli 484 nömrəli Fərmanının ləğv edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Radiotezliklər üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 15 avqust tarixli 484 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 969; 2017, № 1, maddə 51; 2018, № 9, maddə 1840) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2021-ci il*

## Q.C.Hüseynovun "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qorxmaz Cavanşir oğlu Hüseynov "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2021-ci il*

## Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyasının yaradılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında radiokommunikasiya vasitələrindən və yüksəktezlikli qurğulardan istifadənin səmərəliliyini artırmaq və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək məqsədilə aşağıdakı tərkibdə Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası (bundan sonra - Dövlət Komissiyası) yaradılsın:

**Dövlət Komissiyasının sədri**

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

**Dövlət Komissiyasının üzvləri**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini.

2. Müəyyən edilsin ki, Dövlət Komissiyasının qərarı ilə dövlət orqanlarının (qurumlarının) nümayəndələri Dövlət Komissiyasının işinə cəlb edilə bilərlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2021-ci il*

# Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları "Heydər zirvəsi"nə yürüş təşkil ediblər

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) bir qrup əməkdaşı Ulu Öndərin adını daşıyan, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə növbəti yürüş təşkil edib.




AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, yürüş iştirakçıları tərəfindən Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivinin ətəklərində düşərgə salınıb, sonrakı mərhələdə isə sərt relyef və iqlim şəraitinə baxmayaraq, iştirakçılar bütün maneələri dəf edərək tam heyətdə müəyyən olunmuş marşrut üzrə və nəzərdə tutulan vaxtda "Heydər zirvəsi"nə çıxıblar. Ümummilli Liderin barelyefi önündə əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad edən heyət "Heydər zirvəsi"ndə Azərbaycan Respublikasının dövlət bayrağını ucaldıb, Dövlət Təhlükəsizliyi Xidmətinin adını və emblemini əks etdirən lövhə və plakatları yerləşdirib.

# BMT İnkişaf Proqramı işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə dəstək göstərəcək

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərinin həyata keçirilməsi prosesinə BMT İnkişaf Proqramı (UNDP) dəstək göstərəcək.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov BMT İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi Alessandro Frakassetti ilə görüşüb.

M.Cabbarov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə səmərəli əməkdaşlıq etdiyini, bir sıra sənədlərin imzalandığını və birgə layihələrin həyata keçirildiyini diqqətə çatdırıb. Bu il martın 1-də BMT və Azərbaycan Hökuməti arasında 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalandığını xatırladan iqtisadiyyat naziri sənədin ölkəmizdə aparılan sosial-iqtisadi islahatlara, milli prioritetlərə uyğun inkişaf hədəflərinə nail olmağa və Davamlı İnkişaf Məqsədlərinin (DİM) icrasına töhfə verəcəyini bildirib.

Görüşdə pandemiyanın iqtisadiyyata mənfi təsirlərinin aradan qaldırılması məqsədilə Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər barədə məlumat verilib, UNDP-nin bu istiqamətdə dəstəyinin yüksək qiymətləndirildiyi vurğulanıb. Qeyd edilib ki, UNDP 2020-2021-ci illərdə koronavirusun Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinə (KOB) təsirinin qiymətləndirilməsi ilə bağlı sorğular keçirib, pandemiya və müharibə nəticələrinin aradan qaldırılması istiqamətində KOB üçün rəqabət paketinin hazırlanmasına dəstəyini təklif edib.

A.Frakassetti təmsil etdiyi qurumun ölkəmizlə bir sıra sahələr üzrə səmərəli əməkdaşlığını diqqətə çatdırıb, işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin həyata keçirilməsi prosesinə UNDP tərəfindən dəstək göstərilməsinin planlaşdırıldığını bildirib.

Görüşdə pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması tədbirləri, DİM-ə nail olmaq istiqamətində görülən işlər və sair məsələlər müzakirə olunub.

**◆ Milli Məclisin iclasında**

# Ələt Azad İqtisadi Zonasının fəaliyyəti daha da təkmilləşdiriləcək





*Əvvəli 1-ci səh.*

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlardan Məlahət İbrahimqızı, Hikmət Məmmədov, Aydın Mirzəzadə layihə barədə öz fikirlərini bildirdilər. Fəzail İbrahimli səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təqdim etdi. Bu layihə "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin icrası ilə əlaqədar hazırlanıb. Layihədə nəzərdə tutulan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında", "Arıçılıq haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Təhsil haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Psixoloji yardım haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri ilə bağlı məlumat verdi. Komitə sədri həmçinin ölkədə koronavirusa qarşı peyvəndləmə prosesindən bəhs etdi və bununla bağlı statistik məlumatları diqqətə çatdırdı.

Deputat Qüdrət Həsənquliyev öz fikirlərini bildirdikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli gündəliyin növbəti üç məsələsini - "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" 2003-cü il tarixli 185 nömrəli Konvensiyanın (dəyişdirilmiş) Əlavələrinə edilmiş 2016-cı il tarixli dəyişikliklərin təsdiq edilməsi barədə, "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanununda dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim etdi.

Diqqətə çatdırıldı ki, hər üç sənəd "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" 2003-cü il tarixli 185 nömrəli Konvensiyanın (dəyişdirilmiş) Əlavələrinə edilmiş 2016-cı il tarixli dəyişikliklərə əsasən, dənizçilərin şəxsiyyət sənədlərinin forması və məzmununun beynəlxalq konvensiyanın tələblərinə uyğunlaşdırılması məqsədilə hazırlanıb. Dəyişikliklərdə dənizçinin şəxsiyyət sənədinin verilməsi, dəyişdirilməsi, təhvil verilməsi, qüvvədən düşmüş hesab edilməsi prosedurlarının təkmilləşdirilməsi və daha sistemli tənzimləmə mexanizminin yaradılması məsələləri əksini tapıb.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

Sonra iclasda "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olundu. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycanda iqtisadi sahədə həyata keçirilən səmərəli dövlət siyasətindən danışdı, azad iqtisadi zonaların əhəmiyyətini qeyd etdi. Azad iqtisadi zonaya sərmayələrin cəlb edilməsi üçün hüquqi çərçivənin dəqiqləşdirilməsinin önəmli olduğunu deyən komitə sədri "Ələt Azad İqtisadi Zonası haqqında" qanunun qəbulundan sonra keçən müddət ərzində baş verən dəyişikliklərdən bəhs etdi, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbənin regionda yaratdığı yeni iqtisadi imkanlar, Zəngəzur nəqliyyat dəhlizinin açılması reallığı fonunda müzakirəyə çıxarılan qanun layihəsinin vacibliyini vurğuladı.

Tahir Mirkişili layihənin Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması və müvafiq qanunun tətbiqi təcrübəsindən irəli gəldiyini söylədi. Qeyd etdi ki, sənəd Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin və bu sahədə qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Qanun layihəsində terminlərin dəqiqləşdirilməsi, səlahiyyətli qurumun hüquqlarının genişləndirilməsi, vergi, gömrük, maliyyə məsələlərinin qətiləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub. Layihədə həmçinin investorların cəlb edilməsi, mübahisələrin sahəvi bölgüsünün ləğvi, onların həllində nəzərdə tutulan qurumların siyahısına Beynəlxalq Arbitraj İnstitutunun əlavə olunması ilə bağlı dəyişikliklər öz əksini tapıb. Düzəlişlərin azad iqtisadi zonanın fəaliyyətinin səmərəliliyinin təmini baxımından əhəmiyyətli olduğu vurğulandı.

Müzakirələr zamanı deputatlardan Razi Nurullayev, Etibar Əliyev, Tahir Kərimli, Qüdrət Həsənquliyev, Fazil Mustafa, İltizam Yusifov, Tural Gəncəliyev fikirlərini bildirdilər.

Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Spiker Sahibə Qafarova bildirdi ki, gündəliyin növbəti iki məsələsi Konstitusiya Məhkəməsinin tövsiyəsi ilə Milli Məclisdə hazırlanıb və müvafiq qurumlarla razılaşdırılıb. Qeyd edildi ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri mahiyyətcə bir-birinə yaxındır.

Komitə sədri Tahir Mirkişili birinci oxunuşda hər iki qanun layihəsi barədə məlumat verdi. Qeyd etdi ki, təklif olunan layihələr Milli Məclisin komitələri tərəfindən hazırlanıb, geniş müzakirələrdən sonra plenar iclasa tövsiyə olunub. Qanun layihələri hərrac baş tutmadığı halda ipoteka kreditində olan girovun kredit verən təşkilatın əmlakına keçdiyi zaman hansı sənədin verilməsini və yaranan verginin kim tərəfindən ödənilməsi ilə bağlı məsələyə aydınlıq gətirir. Diqqətə çatdırıldı ki, Milli Məclisin sədri Sahibə Qafarovanın tapşırığı ilə məsələ İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən araşdırılıb, bununla bağlı xüsusi işçi qrupu yaradılıb.

O da bildirildi ki, dəyişikliklər bazarda münasibətlərin daha da sağlamlaşması, ədalətli tənzimləmənin səviyyəsinin daha da artırılması, bank sektorunun sağlamlaşması istiqamətində ölkədə aparılan islahatlara dəstək və eyni zamanda kredit faizlərinin aşağı salınması, kreditin dəyərinin uzlaşması baxımından əhəmiyyətlidir.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli rəhbərlik etdiyi komitənin məsələ ilə bağlı rəyinin müsbət olduğunu dedi. Komitə sədri Tahir Rzayev, deputatlardan Əli Məsimli, Aydın Hüseynov, Etibar Əliyev dəyişikliklər barədə öz fikir və təkliflərini səsləndirdilər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

İclasda son olaraq "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev dedi ki, qanun layihəsi "Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 22 aprel tarixli 998 nömrəli fərmanına əsasən hazırlanıb. Təklif olunan dəyişiklik heyvanların dövlət sifarişi ilə planlı profilaktik və məcburi peyvənd edilməsi ilə bağlı həyata keçirilən baytarlıq xidmətlərinə görə haqların müəyyən edilməsinə hüquqi əsas yaradacaq. Belə ki, özəl baytarlıq subyektləri tərəfindən heyvanların peyvənd edilməsi ilə bağlı həyata keçirilən baytarlıq xidmətlərinin haqları müəyyən edilməlidir ki, bunun əsasında da onlarla müqavilələr bağlanıla bilsin və həmin vəsait ödənilsin. Qanun layihəsinin qəbul olunması heyvan sağlamlığının qorunmasına və xəstəliklərinin qarşısının alınmasına, eyni zamanda baytarlıq sahəsində özəl sektorun inkişafının dəstəklənməsinə və xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Heydər Əliyevin «Bir millət - iki dövlət» prinsipi Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini təmin edir

## Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə videokonfransı keçirilib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, videokonfransda çıxış edən Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş konfransın təşkilatçılığında göstərdikləri xidmətlərə görə Mehmet Ceylana və Ramil Həsənə təşəkkür edib. O, həmçinin Yeni Azərbaycan Partiyasının VII qurultayında başda Tahir Budaqov olmaqla, yeni seçilən heyəti təbrik edib.

Konfransın partiyalar arasında bu formatda keçirilən ikinci tədbir olduğunu deyən Numan Kurtulmuş tədbirin nəticələrinin hər iki partiya və ölkə üçün xeyirli, uğurlu olmasını arzu edib: "Məsafələrimiz uzaq olsa da, ortaq məsələlər üzərinə fokuslanaraq könül birliyimizi, fikir birliyimizi daha da möhkəmləndirmiş oluruq. Bir daha konfransın təşkilində zəhməti olan dostlarımıza, iştirakçılara çox təşəkkür edirəm. Çıxışıma başlamadan əvvəl Azərbaycanın qurucu lideri Heydər Əliyevi anadan olmasının 98-ci ildönümündə rəhmətlə anıram. Bu da əslində gözəl bir adətdir. Adətən insanları ölüm ildönümlərində anırıq. Halbuki doğum günlərində anılmağın onların ölümsüzlüyünü ifadə etmə, gördüyü işlərin bərəkətini ifadə etmə baxımından önəmli olduğunu düşünürəm. Sizlər vasitəsilə azərbaycanlı qardaşlarımızın hər birinə ürəkdən sevgimizi, sayğımızı ifadə edirəm. Dünyada erməni lobbilərinin həm müharibə zamanı, həm də Qarabağ Zəfərindən sonra fəallaşması ilə ortaya çıxan yeni bir dönəmlə qarşı-qarşıyayıq. Bir daha böyük Zəfərdə xidməti olan başda cənab Prezident İlham Əliyev olmaqla, cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanı, bütün qəhrəmanları ürəkdən təbrik edirəm. İnşallah bu dönəmdə ortaya çıxan məsələlər, aramızdakı müzakirələrlə yeni perspektiv işlər ortaya qoymağımızı təmin edəcək. Bu konfransın da həm vəziyyəti dəyərləndirmək, həm də yeni perspektivlərlə gələcəyə istiqamətlənən rəylərimizi sağlamlaşdırmaq üçün önəmli olduğunu düşünürəm. Belə konfranslarla tək millət, iki ölkə olaraq əziz xalqımız gələcək perspektivimizi sağlamlaşdırmış olur. Qarabağ Zəfəri içərisində olduğumuz üçün bəlkə hiss etmədik, amma bu, tarixi bir uğurdur. Millətimiz üçün böyük bir uğurdur. Qarabağ hər şeydən öncə Vətəndir. Sözlərimin əvvəlində Türkiyədə də tanınan və sevilən şair, ustad Bəxtiyar Vahabzadənin bu misralarını bir daha xatırlatmaq istəyirəm:

*Vətənin arxasında*
*Biz həmişə dağ olduq.*
*Vətən bizimçin deyil,*
*Biz Vətənçin doğulduq.*

*Toxunmasın bu yurda*
*Bir an düşmən nəfəsi.*
*Gəlsin minarələrdən*
*Allahu-Əkbər səsi.*

*Başımızın üstündə*
*Məhəmmədəmin bayrağı.*
*Güllə qorxar igiddən,*
*Güllə tutar qorxağı.*

*Vətən adlı ocağa*
*Hər gün isinmək şərəf.*
*Bu torpağın yolunda*
*Torpağa dönmək şərəf!*

Bununla Bəxtiyar Vahabzadəni də rəhmətlə anıram. Həqiqətən bu misraları ilə Azərbaycan xalqı şanlı dirənişi necə həyata keçirdiyini də cümlə-aləmə bəyan etmiş oldu.

Müharibədən sonra ortaya çıxan vəziyyət, yeni reallıqları 5 istiqamət üzrə diqqətinizə çatdırıram. Birincisi, Qarabağ Zəfərinin həm regional tarazlığa, həm regional sülhə fövqəladə təsirləri olacağına şübhə yoxdur. Ancaq Qarabağ Zəfərinin siyasi, geopolitik təsirlərindən öncə ən böyük təsirinin öz toplumlarımız üzərində olduğunu ifadə etmək istəyirəm. Həm Azərbaycanın, həm də Türkiyənin Qarabağ Zəfərinin böyük bir milli coşqu yaratdığı və bu Zəfər ilə hər iki toplumda ortaq milli və dini dəyərlərin bir daha qabardığı və bu dəyərlər üzərində toplumun daha möhkəm hala gəldiyinə birlikdə şahid olduq".

Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini qeyd edib ki, azadlığın millətimiz üçün nə qədər önəmli olduğunu, Vətənin və Vətən uğrunda şəhadətin nə qədər müqəddəs dəyər olduğunu gənclərimiz bir daha Qarabağ Zəfəri ilə açıq şəkildə görmüş oldular: "Bu mənada Qarabağ Zəfəri siyasi, hərbi, geopolitik, iqtisadi nəticələri qədər toplumsal möhkəmlənmə baxımından fövqəladə dəyər ortaya qoyub.

Qarabağ Zəfəri ilə ortaya çıxan ikinci önəmli məsələ isə Dağlıq Qarabağın işğaldan azad edilməsi ilə "Ermənistan dediyiniz ölkənin sərhədləri hansıdır" sualını dünya ictimaiyyətinə ünvanlamasıdır. Ermənistanın sərhədləri nə üçün bəlli deyil? Ermənistan sərhədlərini nə üçün daim genişləndirmək istəyir? Bu suallar Qarabağın azadlığının təmin olunması ilə bir daha dünya gündəminə gəlmiş oldu. Bilirsiniz, Qarabağın işğalı məsələsi İosif Stalinin səyləri ilə 20-ci əsrin əvvəllərində başlanmışdı. Bu torpaqlarda yeni bir Ermənistan qurulması üçün, xüsusilə o torpaqlardan qovulan, sürgün edilən azərbaycanlı qardaşlarımızın boşaltdığı ərazilərə çox sayda erməni gətirildi. Sürətli bir şəkildə ermənilərin Dağlıq Qarabağ bölgəsində yerləşdirilməsi ilə bu bölgədə erməni işğalının əhali baxımından alt zəmini hazırlanmış oldu. Ermənilər 1988-ci ildən etibarən azərbaycanlıların sıx yaşadığı kənd və qəsəbələrə hücumları davam etdirdi. Erməni diasporu başda olmaqla, Ermənistandakı önəmli siyasətçilərin bir qisminin zehnində "böyük Ermənistan" qurmaq ideyası var. Bir sözlə, Azərbaycan Qarabağı işğaldan azad etməklə çox önəmli siyasi sualı dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Yəni, bu Ermənistanın sərhədləri hansıdır və nə üçün Ermənistan bu qədər çox genişlənmək, böyümək istəyir? Azərbaycanın Zəfəri ilə meydana çıxan ikinci mövzu budur".

Numan Kurtulmuş vurğulayıb ki, üçüncü önəmli məsələ, müharibə zamanı Qarabağın işğaldan azad edilməsinə kimlərin qarşı çıxmasıdır: "Eyni şəkildə cənab Baydenin qondarma "erməni soyqırımı" məsələsi də Qarabağ müharibəsi zamanı qarşı çıxanların hərəkətlərinin davamıdır. Bu kontekstdə bütün bunların gündəmə gətirilməsi Qarabağ Zəfərinin önəmi və dəyəridir. Hazırda erməni lobbilərinin Azərbaycan və Türkiyəyə qarşı açdıqları müharibə, terminologiyadan istifadə etmək lazım gələrsə, sərhədsiz bir savaşdır. Yəni, yeri, zamanı, forması bəlli olmayan çox əhatəli bir savaşdır. Yeri gəlsə, Xocalıdakı kimi qətliam edərlər. Yeri gələrsə, ASALA kimi terror təşkilatlarını dəstəkləyərək həm azərbaycanlı, həm türk hədəflərinə qarşı hücumlar edərlər. Yeri gələrsə, media savaşları həyata keçirərlər. Yeri gələrsə, lobbilər üzərindən savaşlar edərlər. Həmçinin, akademik ədəbiyyatla, kinoqrafik




propaqandalarla mübarizə edərlər. Bu baxımdan Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı mübarizəsi sərhədsiz savaşdır. Bu mənada Qarabağ Zəfəri zamanı Türkiyə və Azərbaycanın əl-ələ, yan-yana bu mübarizəyə qarşı dayanması əslində, ermənilərin dünya miqyasında bizə qarşı verdiyi bu sərhədsiz savaşı da aşkara çıxarıb".

Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini qeyd edib ki, Qarabağın işğaldan azad olunması ilə Azərbaycan və Türkiyənin dünyanın qlobal strukturlarına qarşı tənqidlərində nə qədər haqlı olduğunu bir daha ortaya qoyur: "BMT başda olmaqla, heç bir beynəlxalq təşkilatın dünyada sülhü təmin etmək, ədaləti bərqərar etmək baxımından azacıq əməyinin, gücünün olmadığı ortaya çıxdı. 1994-cü ildə qurulan ATƏT-in Minsk qrupunun əslində heç bir şey etmədiyini və əslində, 30 il Qarabağın işğalını seyr etdiyini bütün dünya görüb. Qarabağ Zəfəri ilə Azərbaycan sonu gəlməyən toplantılar, haqsız olana dayan, sən haqsızlıq edirsən demək cəsarətini göstərməməyin, haqlının güclə nəticə əldə edə biləcəyini bütün dünyaya göstərib. Bu mənada, ATƏT-in Minsk qrupu başda olmaqla bu qurum və quruluşların heç bir dəyəri olmadığı aşkara çıxıb. Eyni şəkildə 25-26 fevral 1992-ci ildə törədilən Xocalı qətliamından sonra "Human Right Watch" təşkilatı dünyadakı heç bir beynəlxalq təşkilatın Xocalı qətliamına səs çıxarmadığını gördük. Dünya qurumlarının ədaləti müdafiə etməyən, tamamilə mövcud status-kvonun qorunmasına səy göstərən qurumlarının da heç bir işə yaramadığını bir daha görmüş olduq. Yenə eyni şəkildə dünya televiziyalarına baxdıqda, Azərbaycanla bağlı dosyeləri, ədalətsiz yayımları görürük. Nə hikmətdirsə, Azərbaycanı neft və qaz zənginliyi ilə, Cənubi Qafqazda, Asiyada önəmli strateji keçid nöqtəsi olduğunu tez-tez gündəmə gətirirlər. Sanki Azərbaycan azərbaycanlıların deyil, beynəlxalq aləmin diqqətini üzərinə toplamış nəzər nöqtəsi kimi danışırlar. Amma azərbaycanlıların dərdləri ilə bağlı heç bir hərəkət etməzlər. Ona görə Azərbaycanın bu zənginliklərindən, strateji önəmindən bəhs edən beynəlxalq ictimaiyyətin nə üçün Xocalı qətliamı və Qarabağın işğalı kimi mövzularda illərdir səssiz qaldıqlarını bir daha sormaq istəyirəm. Bu mənada Qarabağ Zəfəri dünya sistemindəki boşluqların ortaya çıxarılması, həm də güclərimiz birləşdirildiyində nə qədər önəmli nəticələr əldə edildiyini göstərməsi baxımından xəbərdarlıq fişəngi kimidir. Bu məsələ dünyanın bir çox yerlərində Türkiyə və Azərbaycana qarşı fəaliyyətlərini davam etdirənlərin diqqətini çəkib. ABŞ, Fransa, Belçika və bir çox Qərb ölkəsindəki Türkiyə və Azərbaycan əleyhdarlarının necə erməni lobbilərinin çörəyinə yağ sürtdüyünü, onlarla necə əlaqədə olduqlarını, yeri gəldikdə ASALA, PKK, PYD, FETÖ kimi terror təşkilatlarına necə dəstək verdiklərini bir daha ortaya çıxarıb. Türkiyə ilə birlikdə Azərbaycanın əl-ələ olması bu coğrafiyada dəyərli bir tənhalıqdan qurtuluş və qürurlu duruş kimi dünyaya dərs vermişdir".

N.Kurtulmuş bildirib ki, Qarabağ Zəfəri Qafqazda sülhə, təhlükəsizliyə, ədalətə, problemləri dialoq vasitəsilə həll etmək üçün yeni siyasi meydan açıb: "Cənab Prezidentimizin Bakı səfəri çərçivəsində Qafqazdakı 6 ölkənin bu regionun problemlərini həll edə biləcək önəmli gücə sahib olduğunu ifadə etməsi əslində tam olaraq bu nöqtəni işarə edən bir hadisədir. Yəni biz bu bölgədə ədalətli sülh ortaya çıxdıqdan, ölkələrin ərazi bütövlüyü tanındıqdan sonra Qafqazdakı məsələləri müzakirə etmək üçün fövqəladə siyasi işbirliyi mühiti əldə edirik. Fikrimcə, Qarabağ zəfərini beşinci önəmli dərsi də budur".

N.Kurtulmuş vurğulayıb ki, ABŞ Prezidenti Co Baydenin qondarma erməni soyqırımı sözünü təkrarlamış olması tarixi həqiqətləri dəyişdirmə gücündə deyil: "Açıq şəkildə ifadə edirik ki, cənab Baydenin bu sözləri mənasız, siyasi məqsədlər üçün söylənmiş və erməni lobbilərin könlünü xoş tutmaq üçün dilə gətirilib. Daha açıq formada desəm, cənab Bayden ABŞ-ı erməni lobbilərinə girov vermişdir. Bu, ABŞ-ın milli maraqlarına da ziddir. Bu, həqiqətləri də əks etdirmir. Bizim tariximizdə heç bir şəkildə soyqırımı yoxdur. Əgər soyqırımından bəhs edənlər varsa, onlara geriyə dönüb öz tarixlərinə baxmağı tövsiyə edirik. Yaşadıqları ABŞ-a dönüb baxsınlar. Yeni qitənin əsl sahibləri olan yerlilərin necə və hansı formada yox edilməsinin hesabını versinlər. Xirosima və Naqasakidə 350 min insanın ölümünə səbəb olan və sadəcə, yaşayanlar deyil, sonrakı nəsillərin kökünü kəsən xain atom bombasının əmələ gətirdiyi soyqırımına baxsınlar. Əgər soyqırımı axtarırlarsa, getsinlər Vyetnamda insanlıq əleyhinə hansı cinayətlər törətdiklərini gözdən keçirsinlər. Həmçinin müharibə zamanı yaponiyalılara toplanma düşərgələrində nasist Almaniyasından betər şəkildə davrandıqlarını xatırlasınlar. Əgər o qədər geriyə gedəcək hafizələri yoxdursa, daha yaxın illəri nəzərdən keçirsinlər. Əfqanıstanda öldürdükləri 1.5 milyon insanın hesabını versinlər. İraqın işğalı ilə məhv edilən 1 milyondan artıq insanın hesabını versinlər. Bağdaddakı qətliamlara baxsınlar. Quantanamo kimi həbsxanalardakı insanlıq əleyhinə cinayətləri, işgəncələri xatırlasınlar. Dolayısı ilə bizim tariximizin heç bir dönəmində soyqırım yoxdur. Osmanlıda ermənilər sadiq millət olaraq qəbul edilirdi. Amma Osmanlının dağıntıları üzərində qınçaqlara, daşnaqlara, erməni təşkilatlarına kimlər dəstək, silah verdi? Türkiyədə, Azərbaycanda erməniləri dəstəkləyərək bizə qarşı kim qaldırdı? Bu gün ASALA, PKK, PYD kimi terror təşkilatlarının dəstəklənməsi dünyadakı imperialist təzahürlərin yeni formasıdır. 100-120 il əvvəl nə edirdilərsə, indi də eynisini edirlər. Biz bu oyunu bilirik. ABŞ və bəzi imperialist keçmişə sahib ölkələr arasında bölgəyə, Yaxın Şərqə baxışımızda təməl fərqlilik var. Biz Türkiyə olaraq sülhə, sabitliyə və həmrəyliyə sahib bir bölgə istəyirik. Bölgə xalqlarının türklər, ermənilər, kürdlər, ərəblər, əcəmlər, sünnilər, şiələr, fərqli məzhəbləri, fərqli dinləri ilə birlikdə sülh içərisində yaşasınlar. Türkiyə olaraq məqsədimiz daha çox inteqrasiya, birləşmə, əməkdaşlıq və rifahın yüksəldilməsidir. Təəssüf ki, bəzi imperialist keçmişə sahib ölkələr və bu gün ABŞ-ın Yaxın Şərqdə yürütdüyü siyasət daha çox parçalanmanın təmin edilməsinə xidmət edir. Bu baxış fərqləri Baydenin ifadə etdiyi kimi, qondarma soyqırımı kimi məsələlərdə ortaya çıxır. Bunu təkcə Türkiyəyə düşmən münasibət kimi ortaya qoymurlar. Qeyd etdiyim kimi, erməni məsələsi üzərindən bölgədə yenidən 100 il öncə etdiklərini təkrarlamaq istəyirlər. Biz iki dövlət, tək millət - Azərbaycan və Türkiyə Qafqazın önəmli iki ölkəsi olaraq xalqlarımızla birlikdə Qarabağ Zəfərindən sonra daha ayıq bir şəkildə yolumuza davam edəcəyik. Qardaşlığımızı, əməkdaşlığımızı, həmrəyliyimizi hər sahədə irəli aparacağıq. Bu məqsədlə Yeni Azərbaycan Partiyası və Ədalət və İnkişaf Partiyası bu böyük gələcək mübarizəsində iki önəmli güc olaraq ölkələrimizi irəli aparmaq üçün mübarizə aparacağıq".

Konfrans iştirakçılarını salamlayan YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında bildirib ki, Türkiyənin Ədalət və İnkişaf Partiyası və Yeni Azərbaycan Partiyasının birgə təşkilatçılığı ilə keçirilən videokonfransın tarixi və onun mövzusu heç də təsadüfən seçilməmişdir. Ümummilli Liderimiz Heydər Əliyevin "Azərbaycan - Türkiyə, bir millət, iki dövlət" kəlamının tarixiliyi özünün siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyətini ötən dövr ərzində sübuta yetirmişdir. 44 günlük şanlı Vətən müharibəsi və xalqımızın böyük zəfəri Ulu Öndərin bu sözlərinin təntənəsi idi. Elə son günlərdə də qardaş Türkiyənin uydurma soyqırımı ittihamı ilə üzləşdiyi bir zaman xalqlarımızın nümayiş etdirdiyi vahid mövqe sarsılmaz birliyimizin bariz nümunəsi oldu.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan 44 günlük müharibədə təcavüzkar Ermənistanı ağır məğlubiyyətə uğratdı, parlaq qələbə qazanaraq tarixi ədaləti, ərazi bütövlüyünü bərpa etdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu şanlı zəfər yürüşü edərək təcavüzkar erməni silahlı qüvvələrini əzəli torpaqlarımızdan qovdu. Beləliklə, 30 ilə yaxın müddət ərzində regionda sülhə, sabitliyə və təhlükəsizliyə ciddi təhdidlər yaradan, separatizmə rəvac verən işğal faktına son qoyuldu, Azərbaycan Dağlıq Qarabağ münaqişəsini hərbi-siyasi yolla həll etdi. Bununla Azərbaycan dövləti həm də Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının uzun müddət kağız üzərində qalmış 4 qətnaməsinin icrasına nail oldu. Azərbaycanın bu möhtəşəm tarixi qələbəsi təkcə ölkəmizin ərazi bütövlüyünün təmin olunması deyil, eyni zamanda, regionda yeni geostrateji reallıqların yaradılması baxımından mühüm əhəmiyyətə malikdir. Ölkəmiz yeni reallıqlar yaratmaqla bölgədə dayanıqlı sülh, etibarlı sabitlik və təhlükəsizlik, o cümlədən çoxşaxəli əməkdaşlıq mühiti formalaşdırdı. Regionda kommunikasiya xətlərinin bərpa olunması, o cümlədən Zəngəzur nəqliyyat dəhlizinin açılması təkcə bölgə xalqları və dövlətlərinin rifahına, inkişafına xidmət etməyəcək. Bu, eyni zamanda, regionda yeni, çoxtərəfli əməkdaşlıq platformasının yaranmasını şərtləndirəcək.

YAP sədrinin müavini diqqətə çatdırıb ki, istər 30 ilə yaxın müddət ərzində davam edən münaqişə dövründə, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində qardaş Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasına qətiyyətli, birmənalı mənəvi-siyasi dəstək göstərməsi sevindirici və qürurverici haldır. Xalqlarımız və dövlətlərimiz bir daha sübuta yetirdilər ki, dostluq, qardaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yeni dünya düzəni üçün parlaq nümunədir. Azərbaycan xalqı qardaş dəstəyini hər zaman çox yüksək qiymətləndirir, "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan münasibətlərin inkişafından böyük məmnunluq duyur.

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, yeni mərhələdə də Azərbaycan və Türkiyənin birgə təşəbbüsləri bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsinə, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək: "Hər iki ölkə bölgədə yaranan yeni əməkdaşlıq platforması çərçivəsində rifah və inkişaf tərəfdarıdır. Bütün bunlara baxmayaraq, bəzi məsuliyyətsiz, qərəzli, qeyri-obyektiv və tarixi faktlardan, həqiqətlərdən uzaq addımların atılması yeni geosiyasi reallıqlarla uzlaşmır, regionda qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığa ciddi mənfi təsir göstərir. Daha dəqiq desək, ABŞ Prezidenti Co Baydenin 1915-ci ildə baş vermiş hadisələrlə əlaqədar bəyanatında uydurma soyqırımı ifadəsindən istifadə etməsi tarixin təhrif olunması cəhdi kimi qiymətləndirilməlidir. Bu, eyni zamanda, qardaş Türkiyəyə qarşı uğursuz təzyiq cəhdi, həm də ABŞ ilə Türkiyə Cümhuriyyəti arasındakı strateji tərəfdaşlıq münasibətlərinin ruhuna zidd addım kimi qəbuledilməzdir. Bu, həm də ABŞ Prezidentinin beynəlxalq hüquq normalarına və ümumbəşəri dəyərlərə sayğısızlığıdır. Bu addım hər bir azərbaycanlının da hiddətinə səbəb olmuşdur. Çünki xalqımıza qarşı dəfələrlə soyqırımı aktları həyata keçirmiş, müharibə cinayətləri törətmiş ermənilərin "məzlum" obrazında göstərilməsi, eləcə də onların guya soyqırımına məruz qaldığının iddia olunması tarixin saxtalaşdırılması və reallıqların bilərəkdən təhrif olunması ilə yanaşı, Qarabağ zəfərindən sonra yaranmış geosiyasi mənzərəyə dolayı təsir cəhdləri kimi də qiymətləndirilməlidir. Yeri gəlmişkən, Azərbaycan cəmiyyəti və dövləti hər zaman olduğu kimi bu məsələdə də qardaş Türkiyəyə birmənalı və qətiyyətli dəstəyini bəyan etdi. Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı dövlət başçıları ABŞ Prezidenti C.Baydenin uydurma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatı qınadılar. Bu qərarın yanlış olduğunu qeyd edən partiyamızın sədri onu tarixi səhv adlandırdı. Dövlət başçısı Azərbaycan xalqı və dövləti adından bu bəyanatın qəbuledilməz olduğunu bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev eyni zamanda, sözügedən açıqlamanın regionda yeni yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bəyan etdi, Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ABŞ-ın dövlət katibi Entoni Blinken ilə telefon danışığı zamanı da ABŞ Prezidentinin dırnaqarası "erməni soyqırımı" ilə bağlı bəyanatı ilə əlaqədar qeyd etdi ki, Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir. Bu əməkdaşlıq postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır və ABŞ Prezidentinin bu açıqlaması Azərbaycan rəhbərliyi və ictimaiyyəti tərəfindən narahatlıqla qarşılanıb. Beləliklə, ölkələrimiz tarixi sınaq qarşısında bir daha sarsılmaz həmrəylik nümayiş etdirdilər. Bir millət, iki dövlət olan Azərbaycan-Türkiyə Qarabağ Zəfəri sonrası da qətiyyətli mövqe sərgilədilər. Hesab edirəm ki, bugünkü konfrans da sözügedən məsələyə dair hər iki ölkənin hakim partiyasının vahid mövqeyi kimi Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığının növbəti nümayişi olacaqdır".

Türkiyənin Uludağ Universitetinin professoru, SETA Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin təhlükəsizlik məsələləri üzrə xüsusi mütəxəssisi Ferhat Pirinççi bu önəmli konfransda çıxış etməkdən məmnunluğunu ifadə edib. Ferhat Pirinççi çıxışında Qarabağ Zəfərinin Ermənistan və erməni diasporuna təsirindən, eləcə də ABŞ Prezidenti Co Baydenin "erməni soyqırımı" açıqlamasının əsl məqsədlərindən bəhs edib.

*Ardı 4-5-ci səh.*

**1923 Azərbaycanın özü qədər əbədi 2021**

# Heydər Əliyevin «Bir millət - iki dövlət» prinsipi

*Əvvəli 3-cü səh.*

Ekspertin fikrincə, İkinci Qarabağ müharibəsini sadəcə müharibə, torpaqların işğaldan azad edilməsi kimi yox, daha geniş mənada dəyərləndirmək lazımdır: "Azərbaycan və Türkiyə olaraq bu mərhələni yaşadıq və bu mərhələdən zəfərlə çıxdıq. Bu zəfər Azərbaycana qarşı 30 il davam edən işğal siyasətinin, mövcud status-kvonun alt-üst edilməsi ilə müşayiət olunur. Dünya dövlətləri, beynəlxalq təşkilatlar Qarabağ probleminin ədalətli şəkildə həll edilməsi üçün ciddi cəhdlər etmirdilər. Nəticədə Azərbaycan hərbi-siyasi yolla bu problemi həll etdi. İkinci Qarabağ müharibəsində Azərbaycan hərbi və diplomatik müstəvidə çox fəal çalışdı. Türkiyə də hər zaman olduğu kimi yenə də Azərbaycanı qətiyyətlə dəstəklədi".

Ermənistan və erməni diasporunun fəaliyyətindən danışan Ferhat Pirinçci qeyd edib ki, Azərbaycanın zəfəri Ermənistanda on illərlə davam edəcək psixoloji travma yaratdı: "Ermənistanda İkinci Qarabağ müharibəsinə qədər də iqtisadi böhran, yoxsulluq hökm sürürdü, ölkə siyasi cəhətdən müstəqil deyildi. Azərbaycanın Qarabağ Zəfəri Ermənistanın heç gözləmədiyi anda, yeni torpaqlar işğal etməyi planladığı vaxtda baş verdi. Bu da erməni cəmiyyətində şok effekti yaratdı. Həmin vaxt Ermənistanda hakimiyyətə qarşı etiraz aksiyalarının şahidi olduq. İyun ayında keçiriləcək seçkilərdə də İkinci Qarabağ müharibəsinin nəticələrinin təsiri olacağı qaçılmazdır. Bu prosesdə erməni diasporu da müxtəlif fəaliyyətlər göstərir. Normal şərtlərdə müxtəlif ölkələrdə yaşayan xalqların diasporları öz doğma ölkələrinin siyasətini dəstəkləyir. Həyata keçirilən siyasətin yönümündən asılı olmayaraq, bu, belədir. Amma erməni diasporunun mövqeyinə baxdıqda, o, Ermənistanı yönləndirən və yönləndirməyə çalışan aktor olaraq dəyərləndirilə bilər. Erməni diasporunun, özəlliklə ABŞ-dakı erməni diasporunun Ermənistanın siyasətində olduqca təsirli olduğunu söyləyə bilərəm. Xüsusilə onu qeyd etmək istəyirəm ki, erməni diasporu "erməni soyqırımı"nı dünyada tanıtmağa çalışır. Dünya tarixində soyqırımı dedikdə, yəhudi soyqırımı- Holokost ilk olaraq yada düşür. Bəzi ölkələrdə soyqırımını qəbul etməməyə görə cəza qanunları da var. Erməni diasporu da buna çalışır. Bu məsələdə ABŞ-dakı bəzi siyasətçilər də ermənilərə dəstək verir. Məqsəd odur ki, həmin uydurma məsələni "soyqırımı aktı" səviyyəsində dünya ölkələrində qəbul etdirsinlər".

Mütəxəssis diqqətə çatdırıb ki, Türkiyə bu məsələ ilə bağlı arxivlərin açılmasını, tarixçilərdən ibarət ortaq, ya da ayrı-ayrı komissiyaların yaradılmasını təklif edib: "Məqsəd odur ki, 1915-ci il hadisələrini tarixçilər araşdırıb qiymət versinlər. Ermənilər isə bu təklifi qəbul etmir. Bilirlər ki, əgər gerçəklər ortaya çıxarsa, bu, ermənilərin ziyanına olacaq. Ermənistan və erməni diasporunun "soyqırımını" dünya gündəmində saxlamasında digər bir məqsəd Azərbaycan ərazilərini işğal etməsini, müharibə cinayətlərini, dinc insanların qətliamını, Xocalı soyqırımını kölgədə saxlamaqdır.

Ermənistan Gəncəyə, Bərdəyə və digər yaşayış məntəqələrinə atdığı raketlərin müzakirəsini əngəlləməyə çalışır. Ermənilər bütün bunların hamısının üstünü örtməyə çalışır. Bəs ABŞ Prezidenti nəyə görə "soyqırımı" ifadəsini indi işlətdi? Təbii ki, bunun Türkiyə-ABŞ münasibətlərinə mənfi təsiri var. Amma digər vacib məqamlar da qeyd edilməlidir. ABŞ-dakı erməni diaspor təşkilatları bütün erməniləri bu istiqamətdə fəaliyyətə çağırır. Mən ABŞ-dakı əsas erməni diasporunun saytını izləmişəm. Onların son fəaliyyətləri Qarabağ zəfəri qazanan Azərbaycana qarşı idi. Türkiyəyə qarşı bir çağırış var idi ki, bu da Türkiyənin Qarabağ məsələsində Azərbaycana dəstəyi ilə bağlıdır. Göründüyü kimi, 24 apreldə Co Baydenin həmin ifadəni işlətməsi Qarabağ məğlubiyyətinə görə psixoloji sarsıntı keçirən ermənilərin bir az sakitləşməsinə səbəb oldu. İndi ermənilər aqressiv şəkildə Qarabağ üzərindən təbliğat aparmaqdadırlar ki, Azərbaycana və Türkiyəyə böhtan atırlar".

Türk ekspert qeyd edib ki, hazırda Ermənistanda ciddi daxili problemlər var: "Etiraz aksiyaları davam edir, bir müddət əvvəl hakimiyyət çevrilişi çağırışları da var idi. Baydenin məlum bəyanatı ermənilərdə gərgin psixoloji vəziyyəti nisbətən yumşaldacaq. Eyni zamanda, parlament seçkilərində bir güc mübarizəsinin aparılmasına səbəb olacaq. Hazırda ermənilər Qarabağda məğlub olduqdan sonra Azərbaycana və Türkiyəyə qarşı böhtan kampaniyasını davam etdirirlər, əsas fəaliyyətlərini bu istiqamətdə qurublar. Baydenin açıqlamasının Türkiyə-ABŞ münasibətlərinə müəyyən təsiri olsa da, bizim mövqeyimizin güclənməsi fonunda hər hansı təsiri yoxdur. Yəni əsas məqam Türkiyə və Azərbaycanın bütün təxribatlara qarşı hazır olmasıdır. İki ölkənin birgə fəaliyyəti müsbət nəticələr verir və bu amil bölgədə sabitliyi təmin etmək iqtidarındadır. Azərbaycan bu məqsədlə çoxlu sayda şəhid verdi. Türkiyə isə Azərbaycana hər cür dəstəyi verdi. Bundan sonra da dəstək verməyə hazırdır. Növbəti mərhələdə bizim üç prioritetimiz var. Birincisi, azad olunan ərazilərin bərpası, bu anlamda iki ölkənin rəhbərləri mövqelərini bildiriblər. İkincisi, Zəngəzur dəhlizinin açılması və Naxçıvanla birbaşa kommunikasiyanın təmin olunması. Üçüncüsü isə Xankəndinə, Xocalıya və digər yerlərə azərbaycanlıların qayıtmasıdır. Əlbəttə ki, Ermənistan yeni təxribatlar törədə bilər. Çünki ermənilər İkinci Qarabağ savaşının nəticələrini həzm edə bilmirlər və belə bir şəraitdə erməni millətçiləri Baydenin məlum açıqlamasından bir qədər cəsarət almış durumdadırlar. Amma Azərbaycan və Türkiyə meydanda, cəbhədə güclü olduqca, heç bir şey 27 sentyabr öncəsi kimi olmayacaq. Əgər bir dəyişiklik olacaqsa, Azərbaycan və Türkiyənin xeyrinə olacaq. Son söz olaraq onu demək istəyirəm ki, Ermənistanın qarşısında iki yol var. Birincisi, dövlət başçılarımızın dediyi kimi, altılıq platforması çərçivəsində yaxşı qonşu olmalıdır, ya da aqressiv siyasətini davam etdirməklə uduzmağa davam edəcək".

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu isə çıxışında qeyd edib ki, müasir dünyamızın bir sıra səciyyəvi xüsusiyyətləri var ki, bunlar da dövlətlərarası münasibətlərdə mütləq şəkildə özünü göstərir. Sirr deyil ki, müasir mərhələdə dövlətlərin hamısı çoxqütblü çağırışlar qarşısındadır. Bu çağırışlar təbii ki, dövlətlərin inkişafına çox ciddi maneələr törədir. Amma qürurla qeyd etmək olar ki, bu, Azərbaycan- Türkiyə münasibətlərində və hər iki dövlətin ayrı-ayrılıqda inkişafında özünü göstərmir. Azərbaycan və Türkiyə inamla irəli gedir, inkişaf edirlər.

Hər şeydən öncə Azərbaycan-Türkiyə münasibətlərinin xarakterinə toxunmaq istərdim. Çünki iki qardaş dövlətin bugünkü uğurlarının əsasında məhz aralarındakı münasibətlərin, əməkdaşlığın xarakteri dayanır. Onların dostluğunu yaradan, əməkdaşlığını sürdürməyə imkan verən başlıca amil rolunda ortaq maraqlar çıxış edir.

Azərbaycan-Türkiyə münasibətlərində isə biz fərqli şəraitin olduğunu görə bilərik. Münasibətlər çox səmimi, ortaq dəyərlər üzərində, ortaq tarix üzərində qurulur. Təbii ki, o dəyərlər üzərində qurulan münasibətlər birgə addımlar ataraq birgə inkişafı, birgə potensialın formalaşdırılmasına imkan verir.



Azərbaycan-Türkiyə münasibətləri "bir millət, iki dövlət" şüarı ilə tam uzlaşır. Bu iki qardaş ölkə arasında münasibətlər, səmimiyyət, eyni zamanda, böyük Atatürkün təbirincə desək, "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" şüarı ilə uzlaşır. Hər iki xalqı birləşdirən ən mühüm ortaq dəyər isə tarixin ən böyük şəxsiyyətlərinə, qurucu atalarına malik olmağımızdır. Azərbaycan tərəfdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, qardaş Türkiyə tərəfdə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk və bu böyük şəxsiyyətlərin qurmuş olduğu fundamental əsaslar üzərində müasir Azərbaycan və Türkiyə çox uğurlu əməkdaşlıq qura biliblər, dostluq münasibətlərini formalaşdıra biliblər. Bu gün dünya dövlətləri arasında səmimi dostluq münasibətləri necə olmalıdır sualına cavab axtararkən Azərbaycan Türkiyə münasibətlərinə baxmaq yetərlidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı dünya üçün bir nümunədir. Həqiqətən də dünyanın digər dövlətləri arasında münasibətlərə diqqət yetirsək, Azərbaycan və Türkiyə arasındakı qədər səmimi dostluq, qardaşlıq münasibətlərini görə bilmərik. Tarixin çətin anlarında, sınaq qarşısında Azərbaycan və Türkiyə hər zaman biri-birilərinin yanında olublar. Təbii ki, həm müasir dünyamızda, həm də tarixin istənilən mərhələsində iki dövlət arasında və yaxud dövlətlərarası münasibətlər sistemində dövlətlərin biri-birinə olan münasibətlərini əsasən etimad amili müəyyənləşdirir. Biz yenə də qürurla qeyd edə bilərik ki, Azərbaycan və Türkiyə arasındakı etimad yenə də dünya ölkələri üçün bir örnəkdir.

Bir neçə məqam üzərində fikrimi əsaslandırmaq istərdim. 2014-cü ilin aprel ayının 24-də Praqa şəhərində Şərq Tərəfdaşlığı iştirakçılarının Sammiti keçirilirdi. Sammitdə Ermənistanın prezidenti olan Sarkisyan yenə də fürsətdən istifadə edərək Türkiyəyə qarşı ittihamlar səsləndirməyə başladı. "Soyqırımı" tanımamaqda, Ermənistanla sərhədləri açmamaqda qardaş Türkiyə ittiham olundu. Sammitdə Ermənistan Prezidentinə cavab verən cənab İlham Əliyev bildirdi ki, Ermənistan tərəfi həmişə olduğu kimi, vəziyyətdən sui-istifadə edərək Türkiyəni ittiham edir, qondarma "soyqırımı" haqqında danışır. Türkiyə nümayəndələri burada yoxdur, lakin mən buradayam.

Həqiqətən də dövlət başçımızın bu cür cavabı, bu mövqeyi iki dövlət arasında qardaşlığın, səmimiyyətin, etimadın hansı nöqtəyə qədər ucaldığının bariz göstəricisi idi. İştirakçılara, ayrıca olaraq Ermənistan prezidentinə Türkiyə-Ermənistan münasibətlərinin nəyə görə məhz indiki durumda olduğunu izah etdi. Dövlət başçımız bildirdi ki, 1993-cü ilin aprel ayında işğalçı Ermənistan Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən sonra qardaş Türkiyə Azərbaycanla, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirərək Ermənistanla sərhədi bağladı. Qondarma "soyqırımı"na gəldikdə isə yenə də Azərbaycan Prezidenti Ermənistan tərəfinin haqsız, ədalətsiz olduğunu və məsuliyyətsiz mövqe nümayiş etdirdiyini bildirdi. Bildirdi ki, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə ortaq komissiyanın yaradılmasını, arxivlərin açılaraq araşdırmaların həyata keçirilməsini təklif etmişdi. Lakin nə Ermənistan tərəfindən, nə də ona dəstək olan digər dövlətlərdən adekvat reaksiya olmamışdı. Bu da onu göstərir ki, nə Ermənistan, nə də ayrı-ayrı maraqlı dövlətlər həqiqətin üzə çıxmasında maraqlı deyillər. Çünki qondarma "soyqırımı" amilindən qardaş Türkiyəyə qarşı istifadə etməyə çalışırdılar. Lakin zaman dəyişir, təbii ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu öz sözünü deməkdədir. Müasir şərtlər daxilində dövlətlərin stabil inkişaf etməsi çox problemli məsələdir. Lakin bunlara baxmayaraq, həm Azərbaycan, həm də Türkiyə davamlı olaraq iqtisadi uğurlar qazanır, beynəlxalq münasibətlər sistemində siyasi mövqelərini gücləndirir və təsir imkanlarını artırırlar. Fəxrlə qeyd etmək lazımdır ki, bu uğurlarda dövlətlərin biri-birinə qarşılıqlı dəstəkləri həlledici rol oynamışdır.

2020-ci il sentyabr ayının 27-də Ermənistan ölkəmizə qarşı növbəti təxribat həyata keçirdi. Bu zaman Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu əks-hücum əməliyyatlatlarını həyata keçirdi. Qısa zaman kəsiyində haqqında miflər uydurulmuş Ermənistan ordusu darmadağın edildi. Xatırlatmaq istəyirəm ki, sentyabr ayının 27-də başlamış Vətən müharibəsinin artıq üçüncü, dördüncü günündə Ermənistan ordusunun 20-30 faizə qədəri yox idi. Azərbaycan xalqı, Azərbaycan dövləti iradəsini, gücünü bütün dünyaya nümayiş etdirdi. Xüsusi vurğulamaq lazımdır ki, bizim uğurlarımıza uğur qatan həm də qardaş Türkiyənin bizə göstərmiş olduğu səmimi, mənəvi, siyasi dəstək idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli mövqeyi Azərbaycan əsgərini daha güclü, Azərbaycan xalqını daha iradəli edirdi.

Bu baxımdan dünya bir daha gördü ki, iki qardaş xalq, iki qardaş dövlət arasında səmimi münasibətlər, onları birləşdirən dəyərlər varsa, bu qardaşlıq, bu əməkdaşlıq sarsılmaz olacaq və onlar öz ortaq hədəflərini çox uğurla quracaqlar. Azərbaycanla Türkiyənin ortaq hədəfləri vardır. Bu ortaq hədəf əsasən ondan ibarətdir ki, türk dünyası monolit olsun. Və Azərbaycan-Türkiyə öz münasibətləri ilə bu monolitliyi nümayiş etdirirlər. Türk dünyasına, Şərq, İslam dünyasına nümayiş etdirirlər ki, dövlətlərarası münasibətlər, qardaşlıq münasibətləri necə olmalıdır. Qürurla qeyd etmək lazımdır ki, dünya Türkiyə-Azərbaycan münasibətlərinin bu xüsusiyyətini görür və ondan örnək almağa çalışırlar. Həm Azərbaycan, həm də Türkiyə tarixin istənilən anında bir-birinə dəstək olmağa hazırdır. Vətən müharibəsindən sonra Azərbaycan və Türkiyə birgə Cənubi Qafqaz regionunda yeni siyasi reallıqlar formalaşdırdı. Bu siyasi reallıqların əsas əlaməti ondan ibarətdir ki, tarixin heç bir dövründə baş verməyən uğura imza atıldı. Bu uğur da ondan ibarətdir ki, Cənubi Qafqaz regionunda regional təhlükəsizlik sisteminin elementləri formalaşdırıldı və bunu Azərbaycan və Türkiyə birgə etdilər.

Cənubi Qafqaz regionunda yeni əməkdaşlıq platforması təşəbbüsü irəli sürülüb. Bu təşəbbüs Azərbaycan Prezidenti tərəfindən irəli sürüldü, qardaş Türkiyə tərəfindən dəstəkləndi və region dövlətləri də bu platformanın onların maraqlarına cavab verdiyini düşünür və yaxından iştirak etmək arzularını bildirdilər. Bundan sonra Cənubi Qafqaz regionunun həm geosiyasi, həm də geoiqtisadi vəziyyəti iki qardaş dövlətin haqlı maraqlarına uyğun olaraq tamam dəyişəcək. Bundan sonra Cənubi Qafqaz regionunda həm də təhlükəsizliyin, sülhün təmin olunması baxımından unikal imkanlar da yaranmış oldu. Bir daha vurğulamaq istəyirəm ki, Cənubi Qafqazın təhlükəsizlik sisteminin yaradılması uğrunda çox cəhdlər edilmişdir. Lakin Ermənistan və onun havadarlarının dağıdıcı fəaliyyəti bu sistemin yaradılmasına imkan verməmişdir. Azərbaycan-Türkiyə birliyi, qardaşlığı belə bir sistemin ilkin elementlərini artıq formalaşdırıb.

Görünən reallıq bu gün ondan ibarətdir ki, qardaş Türkiyə təcavüzkar Ermənistan və onun havadarlarının sonuncu silahını da əlindən almaqdadır. Dünyanın bir çox ölkəsi qondarma "soyqırımı"nı tanıyıb. Amma bunun Türkiyənin beynəlxalq mövqeyinə heç bir təsiri olmayıb. Əvvəlki illərdən fərqli olaraq qardaş Türkiyə qondarma "soyqırımı" məsələsinə çox da reaksiya nümayiş etdirmir. Hesab edirəm ki, bu, olduqca müdrik yanaşmadır. Çünki ermənilər bugünə qədər düşünürdülər ki, qondarma "soyqırımı"nı Türkiyəyə qarşı bir alət olaraq istifadə etmək olar. Türkiyə isə soyuqqanlı davranaraq nümayiş etdirir ki, uydurma "soyqırımı" adında alət Türkiyəyə heç bir təsir göstərmir. Türkiyə regionun ən böyük, ən güclü dövlətlərindən biridir. Regionda cərəyan edən proseslərə təsir etmək imkanı var. Və son olaraq qondarma "soyqırımı" tanıyan ABŞ Prezidenti Cozef Bayden də çox gözəl dərk edir ki, Türkiyə ilə əməkdaşlıq ancaq xeyir gətirər. Bu baxımdan gələcək islam dünyası, Şərq dünyası, müsəlman dünyası Türkiyə və Azərbaycanın dostluq örnəyi əsasında böyük uğurlara imza atacaq.

Çıxış edən Ədalət və İnkişaf Partiyası Sədrinin Xarici Əlaqələr üzrə müavini, Türkiyə parlamentinin üzvü Efkan Ala tədbir iştirakçılarını salamlayıb, YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqova və partiyanın bütün təmsilçilərinə fəaliyyətlərində uğurlar diləyib.

Konfransın əhəmiyyətindən bəhs edən Efkan Ala əvvəlcə Qarabağ zəfərindən öncə mövcud olan vəziyyəti xatırladıb: "Azərbaycan torpaqlarının bir hissəsi işğal edilib, ədalətsizlik baş verib və beynəlxalq ictimaiyyət 30 il bu prosesi sadəcə izləyib. Ulu Öndər Heydər Əliyevin dediyi "bir millət iki dövlət" fəlsəfəsinə uyğun olaraq ölkələrimiz haqqı, ədaləti bərpa etmək üçün birgə işləyib, birbirini dəstəkləyib, işbirliyi qurub, ədaləti bərpa etmək üçün 44 günlük müharibədə haqsızlığı yer üzündən silib. Bəzən 1+1 2-yə bərabər olmur. 5-ə, 6-ya bərabər olur. Bu da dünyanın gözü önündə baş verir. Yəni 44 günlük zəfərə dönüb baxdığımızda izah edə bilməyəcəyimiz heç nə yoxdur. Bu güc birliyinin kökündə ədalət, beynəlxalq hüquq dayanır. Bəs bundan sonra nə oldu? Azərbaycanda bir araya gələn iki dövlət başçısının - Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin birlikdə dəyərləndirdiyi mesaj dilə gətirildi. Bu mesaj altılıq platformasının yaradılması ilə bağlıdır. Yəni bu bölgədə elə bir ittifaq quraq ki, 6 ölkə bir araya gəlsin və öz insanına daha çox xidmət edəcək, iqtisadiyyatını inkişaf etdirəcək, idarəetmələrini inkişaf etdirəcək, hər şeyi daha irəli aparacaq platforma yaradılsın. Ermənistana da çağırış olundu. Yəni problemləri deyil, onların həllini danışaq. İqtisadiyyatlarımızda əməkdaşlıq yaransın, bölgəyə daha faydalı ola biləcəyimiz iş birliyi yaransın. Yəni hər kəs qazansın, adına da "qazan-qazan" platforması deyilir. Biz həm cəbhədə, həm də masada otururuq. Amma böyük hədəfimiz xarici siyasətimizlə beynəlxalq aləmdə heç kimsəyə haqsızlıq etmədən, hər kəsin qazana biləcəyi bir ortam təqdim edirik. Belə bir ab-havada buna heç bir qatqı etməyənlərin fikirləri səsləndi".

Ədalət və İnkişaf Partiyası Sədrinin Xarici Əlaqələr üzrə müavini qeyd edib ki, heç bir tarixi həqiqət siyasi fikirlərlə dəyişdirilə bilməz: "Tarixin mövzusu siyasətin mövzusu kimi gündəmə gətirilərsə, burada heç kim qazanclı çıxmaz. Tarix bunun nümunələri ilə doludur. Hər kəs bundan zərərli çıxar. Ona görə biz daim çağırış edirik. 2005-ci, 2015-ci ildə də daim çağırış etdik. Dedik ki, bir problemdən bəhs edirsiniz, o zaman tarixin ortaq mövzusundan danışaq. Ağrı-acıya gəlincə, bunlar üzərində siyasət qurarsaq biz acılarımızı dilə gətirməkdən qürur duyan, məmnun olan bir millət deyilik. Bəziləri bunu çox edir. Xocalı qətliamına nə ad verirsiniz? Balkan savaşında meydana gələn nəticələrə nə ad verirsiniz? Birinci Dünya müharibəsinə girmiş və o zamana qədər bütün haqqı, hüququnu vermiş ölkələrə qarşı törədilən qətliamlara nə ad verirsiniz? Osmanlı dövlətinin mövcud olduğu dövrdə olan prosesləri "soyqırımı" adlandırırsınızsa, o zaman gerçəkdən törədilən faciələrə nə deyəcəksiniz? Yəni "soyqırımı" demək üçün tarixdən xəbərdar olmaq lazımdır. Osmanlıda elə düzənləmələr var idi ki, həmin proseslər zamanı insan həqiqətən o qədər böyük savaşın içərisindəykən belə düzənləməyi reallaşdıra bilən dövləti hörmətlə salamlamaq istəyir".

Efkan Ala çıxışında o dövrdə tarixi sənədlərdən də sitat gətirib. Onun sözlərinə görə, həmin sənəddə ermənilərin köçürülməsi necə həyata keçiriləcək, prosesdən hansı komitələr məsuliyyət daşıyır və s. arxivlərdə bu haqda yazılıb: "Biz sözdə qondarma deyirik, amma azərbaycanlı qardaşlarımızın təbirincə demək daha yaxşıdır. Uydurma, qondarma erməni soyqırımı iddiaları deyirlər. Sözdə demək əvəzinə, uydurma demək daha yerində işlənir. Bunların heç bir təməli, tutarlı tərəfi yoxdur. Elə bir vəziyyətdir ki, Osmanlıda bu qruplaşmaların üsyan etmədiyi, qətliam törətmədiyi və erməni vətəndaşlarının hansısa olumsuz fəaliyyətdə olmadığı yerlərdə, başda İstanbul olmaqla bölgələrdə heç problem olmayıb. Ona görə də əsla yox etmədən söhbət gedə bilməz. Paytaxt İstanbuldan köçürmə yoxdur, çünki orda problem olmayıb. Düşünə bilirsizmi? Problemin olduğu yerlərdə onu həll etmək üçün toplumlar ayrılırdı. Və orda üsyan edənləri yenə ölkənin torpağına köçürürdülər. Və apararkən də tədbirli olmaq üçün xüsusi qanun olub, təlimatlar yazılıb. Bəs mənzərə ortadaykən, bu məsələlər niyə gündəmə gətirilir? Çünki bu gücün Türkiyə və Azərbaycanın bu bölgədə qlobal aktor halına gəlməsi, regional güc olması, beynəlxalq münasibətlərdə xüsusi rol oynamaları bir çox müstəvilərdə yenidən nəzərdən keçirilməsinə səbəb olur. Çünki yeni bir düzənin reallıqları ortaya çıxır. Ona görə də belə məsələlər dilə gətirilərək qarşımızı kəsməyə çalışırlar. Bir də olduğumuz bölgənin tarixdəki vəziyyətinə baxsaq görərik ki, doğrudan da, dünya buradan idarə olunub, ya da əgər bura zəifləyibsə dünya hər zaman bu bölgəni idarə etmək istəyib. O baxımdan bizim iş birliyi etmək və bu dəyərləri üstün tutaraq yolumuza davam etməkdən başqa çıxış yolumuz yoxdur. Və doğru olan da budur. Biz həm öz problemlərimizi həll edərik, həm də başqa problemləri çözərkən başqa problemlər yaratmarıq. Biz hələri çoxaltmaq siyasəti yeridirik. Biz problemləri çoxaltmaq və ondan yararlanmaq siyasəti yeritmirik. Azərbaycanla Türkiyə hansı mövzuda iş birliyi edibsə, bütün bölgəyə faydası olacaq məqamlar ortaya çıxarıblar. Amma 1990-cı illərdən bəri dünyadakı dəyişikliklər, həm "ərəb baharı"ndan sonra ortaya çıxan nüanslar, həm də bölgədə formalaşan yeni düzən, 2008-ci il dünya böhranı, koronavirus pandemiyası, Çin və ABŞ arasındakı silahsız müharibə, Böyük Britaniyanın Avropa İttifaqından çıxması - bütün bunlar diqqətə alındığında regional barış şəraiti xoş niyyət ərz edir. Bunu görürük. Yəni yenidən sülh içərisində dünya inşa etmək üçün öncə regional problemlərin həll olunması və bölgələrdə sülh və hüzurun təsis edilməsi lazımdır. Burda da ən önəmli bölgələr və sülhə, təhlükəsizliyə töhfə verə biləcək olan ən önəmli iki aktor Türkiyə və Azərbaycandır. Onlar yaxşılığı çoxaldır, haqsızlığı aradan qaldırır. ABŞ Prezidenti Baydenin açıqlaması da bu bölgədə təhlükəsizliyə zidd kimi qiymətləndirilir. Ona görə problemin yaşanmaması üçün daha çox çalışmalı, mübarizə və səbir göstərməliyik. Bu açıqlamanı rədd edirik. Heç bir hüquqi tərəfi yoxdur bu açıqlamanın. Bunu hüquqşünaslar daha yaxşı bilir. Şərdir, böhtandır və qəbuledilməz açıqlamadır. Biz bildiyimiz həqiqətləri yenə deyəcəyik. Heç kim həqiqətin səsindən daha çox danışa bilməz. Həqiqət arxivimizdədir. İstəyən gəlib baxa bilər, araşdıra bilər. Bizim kimsədən qorxumuz yoxdur, kimsəyə verəcək hesabımız yoxdur. Hər kəsin arzu etdiyi şey həqiqətin bilinməsidir. Siyasətdə buna görə qurulur. Bunun xaricində başqa siyasət ola bilməz".

Çıxış edən Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin professoru, YAP İdarə Heyətinin üzvü Anar İsgəndərov bildirib ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş bu konfrans, sözün həqiqi mənasında, Azərbaycan və Türkiyə tarixinin şərəfli dövrünə təsadüf edir: "Bu qardaşlığın analoqu olmayan tərifini Heydər Əliyev dahiyanə şəkildə vermişdir: Bir millət, iki dövlət! Nə üçün Türkiyə Cümhuriyyəti Azərbaycanın, Azərbaycan Türkiyənin yanındadır? İcazənizlə, bu dostluğun və qardaşlığın tarixinə bir yerdə nəzər salaq.

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini təmin edir

Anadolu türkləri ilə Azərbaycan türklərini bir-birinə dost, qardaş edən minilliklərlə ölçülən ortaq tariximiz və mədəniyyətimiz mövcuddur. Osmanlı dövlətinə böyük şöhrət gətirən, Türk-müsəlman tarixinə Fateh kimi daxil olan II Mehmetin müəllimi Azərbaycan türkü Ağ Şəmsəddin olmuşdur. Osmanlı imperiyası zaman-zaman üç qitədə torpaq sahibi oldu, imperiyaya daxil olan xalqların dili, dini ayrı olsa da, onlara tətbiq olunan qanunlarda fərq qoyulmadı. Bax, əsl ədalət budur.

1914-cü ildə I Dünya müharibəsi başladı. Müharibəyə daxil olan hər bir dövlətin öz maraqları var idi. Çar Rusiyası Osmanlıya qalib gələcəyi təqdirdə vaxtilə I Pyotr tərəfindən irəli sürülən vəsiyyətinə nail olmaq istəyirdi. I Pyotr vəsiyyətində deyirdi: Rusiya o zaman xoşbəxt dövlət ola bilər ki, İstanbul onun paytaxtı, Bosfor və Dardanel isə boğazları olsun. Qərb dövlətləri Osmanlı imperiyasını parçalamaqla üç dövlətə bölməyi planlaşdırmışdılar. Azərbaycan xalqı çar Rusiyasının təbəəsi hesab olunsa da din və dil qardaşı Osmanlını müdafiə etdi. Qərb dövlətlərinə qarşı aylarla davam edən və yüz minlərlə şəhid verən Çanaqqala savaşında minlərlə azərbaycanlı könüllü olaraq Osmanlı tərəfindən vuruşdu və şəhid oldu. Çar Rusiyası və Qərb dövlətlərinin hərtərəfli yardımına baxmayaraq, erməni hərbi birləşmələri Osmanlı ərazisində erməni dövləti yaratmaq xülyasını reallaşdıra bilmədilər. İşğal edilən Osmanlı ərazisində yüz minlərlə günahsız türkün həyatına son qoydular, əmlaklarını müsadirə etdilər, evlərini yandırdılar. Bu gün də Şərqi Anadoluda I Dünya müharibəsindən qalan yüzlərlə toplum məzarlıqlar mövcuddur. Bu məzarlıqların günahkarları və yerli əhalini soyqırımına məruz qoyan Qərb dövlətləri, çar Rusiyası və erməni-daşnak qüvvələri olmuşdur. I Dünya müharibəsinin ortalarına yaxın Osmanlı dövləti özünü müdafiə üçün müəyyən qədər güc toplaya bildi. Çar Rusiyası və erməni silahlı birləşmələrinin ölkədən qovulmasına nail oldu. Osmanlı ərazisində dövlət yarada bilməyən erməni silahlı birləşmələri 1918-1920-ci illərdə şimali Azərbaycan, cənubi Azərbaycan və qərbi Azərbaycanda yerli və əliyalın azərbaycanlılara qarşı soyqırımına başladılar. Bu danılmaz tarixdir. Ermənilərin azərbaycanlı əhaliyə qarşı soyqırımı ilə bağlı 1918-1920-ci illərdə fəaliyyət göstərən Fövqəladə Təhqiqat Komissiyası tərəfindən 36 cild sənədlər külliyyatı hazırlanmışdır. Çox təəssüflər olsun ki, Qərbin siyası dairələri kimi, tarixçiləri də bu sənədə istinad etmək əvəzinə, heç bir tarixi əsası olmayan uydurma "erməni soyqırımı"nın tanınmasına cəhd edirlər. Tarixi ədalətsizlik budur. Hər bir qaranlıq gecənin işıqlı bir səhəri olur. Tarixə 1918-ci ilin mart soyqırımı kimi daxil olan qanlı hadisələrdən sonra Azərbaycanın milli demokratik ziyalıları soyuq Şimaldan ümidlərini üzdülər, nəzərlərini Osmanlıya dikdilər və 1918-ci ilin mayın 28-də özgə torpaqda, özgə paytaxtda Azərbaycan Xalq Cümhuriyyətini elan etdilər.

Anar İsgəndərov qeyd edib ki, müsəlman Şərqində ilk cümhuriyyətin elan olunması Azərbaycan xalqına nəsib oldu: "Amma elan olunan hökumətin ordusu yox idi. Əgər o illərdə Osmanlı ordusu dost və qardaş Azərbaycanın köməyinə gəlməsəydi, cümhuriyyətin ömrü nə qədər ola bilərdi? O dövrün sənədlərində yazıldığı kimi, Allah-Təala öz mələklərini Osmanlı əsgərlərinin simasında müstəqilliyini yenicə elan edən Azərbaycanın köməyinə göndərdi. Halbuki həmin dövrdə Osmanlı dövləti özünün ən çətin günlərini yaşayırdı. Azərbaycanı ilk tanıyan və Qafqaz İslam Ordusunu köməyə göndərən Osmanlı dövləti oldu. Bu orduya 29 yaşlı Nuru Paşa rəhbərlik edirdi. Qafqaz İslam Ordusu Gəncədən Bakıya qədər şərəfli bir istiqlal yolu keçdi. Azərbaycanı işğalçı qüvvələrin caynağından azad etdi, bu mücadilədə 1330 nəfər şəhid verdi. Nəhayət, 1918-ci ilin sentyabrın 15-də Bakını düşmən qüvvələrindən azad etdi və həmin gündən Bakı şəhəri Azərbaycanın paytaxtına çevrildi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılışı oldu. Parlamentin ilk qərarlarından biri Azərbaycanın istiqlalı üçün şəhid olan Osmanlı əsgər və zabitlərinin şərəfinə Bakının ən əzəmətli yerində möhtəşəm bir abidənin qoyulması ilə bağlı oldu. Çox təəssüflər olsun ki, 1920-ci ilin bolşevik işğalı bu qərarın həyata keçirilməsini 70 ildən çox ləngitdi. Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra Şəhidlər xiyabanında bu abidənin təntənəli açılışı oldu. Bu gün Şəhidlər xiyabanına ziyarətə gələn hər bir azərbaycanlı, Azərbaycanın istiqlalı üçün şəhid olan Osmanlı əsgərlərini ziyarət edir və onlara rəhmət diləyir".




Tarixçi-alimin sözlərinə görə, 1918-1920-ci illərdə Azərbaycanın Naxçıvan bölgəsi erməni təcavüzünə məruz qalarkən ona qardaş əlini uzadan Türkiyə tərəfi oldu. Sovet Rusiyasının və Ermənistanın bütün təzyiqlərinə baxmayaraq, Türkiyənin bilavasitə iştirak etdiyi və diktə etdiyi Moskva və Qars müqavilələri imzalandı, Naxçıvan Azərbaycanın tərkibində qaldı. Əgər Türkiyənin bu inadı olmasaydı, Naxçıvanın taleyi şübhə altına düşürdü. Mustafa Kamal Atatürk Naxçıvanı "Türk Qapısı", Kazım Karabəkir Paşa isə "Şərq Qapısı" adlandırdı. 1920-ci il bolşevik işğalından canını qurtaran yüzlərlə azərbaycanlı qardaş Türkiyəyə pənah apardılar, Türkiyə onlara qucaq açdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu Bakını işğal etdi. Yüzlərlə şəhidimiz oldu. Bu hadisəyə beynəlxalq aləmdə öz kəskin etirazını bildirən yalnız Türkiyə Cümhuriyyəti oldu.

1991-ci ilin sonlarına yaxın SSRİ adlanan nəhəng imperiya süqut etdi, Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti oldu. Ermənilər havadarlarından böyük dəstək almaqla Azərbaycan torpaqlarının işğalına başladılar, Naxçıvan ağır blokada həyatını yaşamağa məcbur edildi. Həmin illərdə Naxçıvana Ümummilli Lider Heydər Əliyev rəhbərlik edirdi. Sonralar Heydər Əliyev dönə-dönə xatırlayırdı ki, əgər Türkiyə Cümhuriyyətinin bizə hərtərəfli yardımı olmasaydı, Naxçıvanın blokadasını ləğv etmək və onu qoruyub saxlamaq çox çətin olardı. Xüsusilə Türkiyə və Naxçıvan arasında Araz çayı üzərində "Ümid" körpüsünün inşa olunması Naxçıvana həyat və güc verdi.

Ölkə daxilində siyasi böhran və xarici təcavüzün nəticəsi olaraq Azərbaycan torpaqlarının 20%-i erməni qəsbkarları tərəfindən işğal olundu, bir milyondan artıq vətəndaşımız qaçqın və köçkün həyatını yaşamağa məhkum edildi. Ermənistanın bu təcavüzkar siyasətinə etiraz olaraq Türkiyə tərəfi Ermənistanla sərhədlərini bağladı. Sərhədlər bu gün də bağlıdır.

2001-ci ilin avqustunda Azərbaycan Xəzər dənizində kəşfiyyat işləri apararkən qonşu dövlətin təzyiqinə məruz qaldı. Narahat və həyəcanlı Bakının səmasında Türkiyənin qırıcı şahinləri göründü. Türkiyə bir daha dünyaya bəyan etdi ki, o, Azərbaycanın yanındadır. 2003-cü ilin aprelində Ümummilli Liderimiz Heydər Əliyev bu gün adını daşıdığı Heydər Əliyev sarayında Azərbaycan kursantlarına müraciətində deyirdi: Vətəni azad etmək sizin borcunuzdur. Bu borcu yerinə yetirmək üçün qardaş Türkiyə həmişə bizim yanımızda olacaqdır. Heydər Əliyevin bu dahiyanə sözləri 19 il sonra öz nəticəsini verdi.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, 30 ilə yaxın idi ki, Azərbaycan işğal altında olan torpaqlarımızı sülh yolu ilə azad etmək üçün nüfuzlu beynəlxalq təşkilatların vasitəçiliyi ilə Ermənistanla danışıqlar aparırdı: "İşğal altında olan torpaqların azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin olmasına baxmayaraq, bu işə cavabdeh olan dövlətlər işğal edənlə işğal olunan arasında fərq qoymadılar. Dünyanın aparıcı dövlətləri və nüfuzlu təşkilatları Azərbaycanın haqq işinə biganə qaldılar. Yalnız qardaş Türkiyə və onun dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işini dünyanın bütün nüfuzlu təşkilatlarında müdafiə edir, işğalçı Ermənistan dövlətini və onun havadarlarını ittiham edirdi. 2020-ci il sentyabrın sonlarında ermənilərin növbəti hücumunu dəf etmək üçün Azərbaycan Ordusu əks hücuma keçdi. 44 günlük Vətən müharibəsində Türkiyə Azərbaycanın yanında oldu və Azərbaycanın haqq işinə hər cür dəstək verdi. Düşmən işğalından azad edilən şəhər və kəndlərimizdə Azərbaycanın üçrəngli bayrağı ilə yanaşı, Türkiyə Cümhuriyyətinin bayrağı dalğalanır. Müharibədən sonra Azərbaycanın ən ucqar kəndində belə iki qardaş dövlətin bayrağı qürurla dalğalanır. Tarixdə bir-birinə qardaş münasibətdə olan dövlətlər mövcud olub. Amma Azərbaycan və Türkiyə qədər bir-birinə dost və qardaş olub, həyatın bütün sahələrində bir-birini bu qədər müdafiə edən dövlətlər olmayıb. İşğaldan azad olunan torpaqlarımızda bərpa və quruculuq işləri uğurla gedir. Türkiyə dövləti və onun nüfuzlu şirkətləri də bu işdə yanımızdadır.

Həmişə sual olunur: 1915-ci il aprelin 24-də Osmanlı ərazisində nə baş verib? Tam əminliklə demək istəyirəm ki, bu gün Türkiyəyə qarşı səlib müharibəsinə qalxan Qərb dövlətləri öz adları kimi dəqiq bilirlər ki, 24 apreldə nə ermənilərə qarşı soyqırımı haqqında qərar olub, nə də Osmanlı ərazisində ermənilər soyqırımına məruz qalıblar. Çünki uydurma iddiaya dəstək olan bu dövlətlərin arxivlərində Osmanlının daxili işlər naziri Tələt Paşanın imzaladığı sənəd vardır. Amma bu sənəd bu dövlətlərə sərf eləmir. Onlara Arom Andonyan kimi saxtakar birisinin saxta sənədləri lazımdır. Bu necə şifrəli sənəddir ki, sənəd Osmanlı dövləti üçün qanun olan Allahın adı ilə başlamır. Bu necə sənəddir ki, imzalanma tarixi müsəlman tarixi ilə yox, rum tarixi ilə qeyd olunub. Bu sənədə istinad edənlər özləri də gördülər ki, bu saxta sənəd onları hörmətdən salır. 1920-ci ildə ABŞ bu məsələ ilə bağlı Harbord komissiyasını yaratdı. 6 aydan sonra komissiya elan etdi ki, Şərqi Anadoluda soyqırımına məruz qalanlar ermənilər yox, türklər olmuşlar. 1983-cu ildə ABŞ Prezidenti Ronald Reyqanın yaratdığı komissiya da bu nəticəyə gəlmişdir. Deməli, ABŞ-a tarixi həqiqət yox, siyasi maraqlara xidmət edən nəticə lazımdır. 2014-cü ildə Çexiyanın paytaxtı Praqada Ermənistanın prezidenti növbəti dəfə Türkiyəni 1915-ci il uydurma soyqırımında ittiham edəndə Azərbaycanın dövlət başçısı İlham Əliyev: "Türkiyə burada yoxdur, amma mən varam, cavabını mən verəcəyəm" deyə bildirmişdir.

Millət vəkili qeyd edib ki, hazırda Türkiyə Cümhuriyyəti dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir: "Bu gün Türkiyə Cümhuriyyəti müstəqil siyasəti ilə diqqəti cəlb edir, kiminsə diktəsini qəbul etmir. 2001-ci ildə yaradılmış və Türkiyə iqtidarına rəhbərlik edən Ədalət və İnkişaf Partiyası bu dövləti dünyanın aparıcı və nüfuzlu dövlətlərindən birinə çevirmişdir. Bu siyasət bəzi nüfuzlu dövlətləri narahat edir, hətta 2015-ci ilin iyunun 15-də dövlət çevrilişinə cəhd göstərməkdən də çəkinmədilər. Amma 82 milyon türk xalqı Türkiyəni öz canları bahasına qorudular, yüzlərlə şəhid verdilər. Həmin ağrılı günlərdə Türkiyənin haqq səsinə səs verən Azərbaycan oldu. Türkiyə Cümhuriyyətinin bölgədə gündən-günə artan nüfuzunu həzm edə bilməyən dövlətlər onu uydurma soyqırımla imtahana çəkmək istəyirlər. Əgər dünyaya 24 aprellə bağlı əsil həqiqət lazım olsaydı, onu parlament kürsülərində yox, arxivlərdə axtarmış olardılar, problemlə bağlı son sözü tarixi sənədlər əsasında tarixçilər söyləmiş olardılar. Yoxsa tarixi həqiqət siyasi maraqlara qurban verilməzdi. Türkiyə-Azərbaycan qardaşlığı türk dünyasının birliyinə xidmət edən böyük hadisədir. 2018-ci ilin sentyabrın 15-də Bakıda Milli Ordunun yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, o cümlədən hər iki ölkənin hərbi qüvvələri iştirak edirdi. 2020-ci ilin dekabrın 10-da Bakıda Azadlıq meydanında Zəfər paradı iki qardaş dövlətin dostluğuna əyani nümunəsidir. Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik etdilər. Şübhəsiz, XXI əsr Türk əsridir".

Videokonfransda Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Numan Kurtulmuş yekun sözü ilə çıxış edərək faydalı fikir mübadiləsi aparıldığını qeyd edib: "Bu konfrans Türkiyə və Azərbaycanın bundan sonrakı dövrdə atacağı addımlara, həyata keçiriləcək siyasətə yön verir. Konfransdakı müzakirələrin üç mühüm nəticəsi var. Birincisi, biz bu bölgədə sülh, dostluq, qardaşlıq, ölkələrin və fərqli xalqların əməkdaşlığının gücləndirilməsini istəyirik. Ən əsası yaşadığımız regionun, tarixçilərin "bərəkətli hilal" adlandırdıqları coğrafiyada əməkdaşlığı, inkişafı arzulayırıq. Bunun üçün səmimi olaraq hər kəslə əməkdaşlıq etməyə hazır olduğumuz bir daha ifadə edildi. İkincisi, hər məsələdə anlaşmaq mümkün olmaya bilər. Eyni zamanda bir çox problemlə üz-üzəyik. Beynəlxalq miqrasiya, qlobal istiləşmə, silahlanma, ətraf mühitin çirkləndirilməsi, kimsəsiz uşaqlar, silahlandırılan azyaşlılar kimi çox geniş problemlərlə üzüzəyik. Bütün bunları həm regional, həm beynəlxalq miqyasda həll edəcək iradəyə sahib olduğumuzu konfransdakı müzakirələr göstərdi. Bunun üçün hamı ilə qarşılıqlı müzakirəyə açıq olduğumuzu, bütün millətlərlə bərabərhüquqlu şəkildə həm regional, həm beynəlxalq problemlərimizi müzakirə edə biləcəyimizi ifadə edirik. Üçüncüsü, bizim bir sıra qırmızı xətlərimiz var. Bunlar ölkələrin suverenlik haqlarıdır. Heç bir gücün, ölkənin, nə qədər qüdrətli olursa-olsun, özünü bu şəkildə hiss edərsə-etsin, hər hansı bir ölkənin suverenlik hüquqlarını yox etmək haqqı yoxdur. Ona görə istər işğal, istər ölkələrin daxili işlərinə qarışmaq, istər bəzi ölkələrin sərhəd pozuntuları etməsi, istərsə də ölkələrin daxili sabitliyini pozmaq üçün terror təşkilatlarının vasitə olaraq istifadə edilməsi bizim qəbul etməyəcəyimiz qırmızı xətlərdir. Bütün xalqlar bərabər hüquqlara sahibdir. Problemlərimizi müzakirə ilə həll edərik. Amma heç kimin başqasının haqqını pozmasına, suverenliyini yox etməsinə, daxili işlərinə qarışmasına əsla izin verməriк. Bu üç prinsip çərçivəsində fəaliyyətimizi davam etdirməliyik. Azərbaycan və Türkiyə bu üç prinsip çərçivəsində yan-yana hərəkət etdiyi müddətdə, gücümüzü daha da artıraraq və ətrafımızdakı dostlarımızı çoxaldaraq bu bölgəyə ədaləti, sülhü gətirəcəyik. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!"

Videokonfransın yekununda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan və Türkiyənin həm fəal iştirakı, həm də liderliyi ilə yaranan yeni əməkdaşlıq və təhlükəsizlik mühiti bütövlükdə regiona yeni perspektivlər vəd edir: "Ölkələrimiz regionda müxtəlif qüvvələrin qarşılıqlı etimad mühiti əsasında və səmimi şəraitdə işbirliyinin güclənməsi tərəfdarı kimi çıxış edirlər. Bu, həm də bütövlükdə Şərqdən Qərbə doğru geniş bir coğrafi məkanda ayrı-ayrı ölkələrin milli maraqlarının təmin olunmasına mühüm töhfədir. Təbii ki, bütün bu gerçəkliklər fonunda uydurma "erməni soyqırımı" kimi cəfəng iddiaların ortaya atılması və ondan siyasi təzyiq vasitəsi kimi istifadə olunması regionda yeni yaranmaqda olan əməkdaşlıq meyillərinə zərər vurmaq məqsədinə xidmət edir. Unutmaq olmaz ki, regionun gələcəyi qarşılıqlı hörmətə və uzlaşmaya əsaslanan əməkdaşlıqdan keçir. Nəhayət, onu da qeyd etmək lazımdır ki, xalqlarımızın sarsılmaz birliyi və mövqeyi dünyaya açıq və konkret mesaj verdi. Regionda Azərbaycanın və Türkiyənin iradəsi və maraqları nəzərə alınmadan çoxtərəfli əməkdaşlıq platformasında iştirak etmək, siyasi, iqtisadi mənfəət qazanmaq mümkün deyil. Əminliklə söyləmək olar ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında hərəkət edən Azərbaycan və Türkiyə bundan sonra da ortaq milli maraqlar əsasında fəaliyyət göstərəcək, möhkəm həmrəylik və qətiyyətli siyasi iradə nümayiş etdirəcəklər. İstər regionda sülh, sabitlik, təhlükəsizlik və tərəqqinin təmin olunmasında, istər erməni yalanlarının, o cümlədən ermənipərəst dairələrin qara piar kampaniyasının ifşa edilməsində, istərsə də bəzi xarici qüvvələrin ölkələrimizə yönəlik qərəzli və məkrli planlarının iflasa uğradılmasında Azərbaycan-Türkiyə sarsılmaz birliyi öz sözünü deyəcək. Bununla yanaşı, dünya siyasətində söz və nüfuz sahibi olan Azərbaycan ilə Türkiyənin bütün beynəlxalq platformalarda bir-birini qətiyyətlə dəstəkləməsi ölkələrimizin gücünün artmasını, qlobal arenada mövqeyinin möhkəmlənməsini şərtləndirəcək".

YAP sədrinin müavini daha sonra qeyd edib ki, regionun perspektivi dost, qardaş və strateji tərəfdaş olan Azərbaycan ilə Türkiyənin rifah və inkişaf naminə formalaşdıracağı yeni əməkdaşlıq platformasının uğurla reallaşdırılması sayəsində təmin olunacaq. Biz ölkələrimizin qüdrətli və həmrəy olmalarına görə son dərəcə qürurluyuq və iftixarla qeyd edə bilərik ki, Azərbaycan və Türkiyənin güclü mənəvi-siyasi birliyi xalqlarımızın xoşbəxt gələcəyinə, regionda təhlükəsizlik və inkişafa xidmət göstərir, ölkələrimizin tərəqqi yolunda inamla irəliləməsini təmin edir.

YAP ilə AKP arasında əməkdaşlığın daha da güclənəcəyinə əminliyini ifadə edən Tahir Budaqov diqqətə çatdırıb ki, partiyalararası münasibətlər bütövlükdə hər iki ölkənin əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir.

Çıxışının sonunda YAP Mərkəzi Aparatının rəhbəri konfrans iştirakçılarına qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbriklərini çatdırıb, Azərbaycan və Türkiyə xalqlarına, bütün müsəlman qardaşlarımıza sülh, əmin-amanlıq və rifah arzu edib.

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Şəxsiyyət zirvəsi



*Əvvəli 1-ci səh.*

Yaşlı insanlar artıq general Heydər Əliyevi tanıyırdılar. Onun iradəsinə də, qüdrətinə də, milliliyinə də, vətənpərvərliyinə də əmin idilər. İnanırdılar ki, problemlər məngənəsində çapalayan bir məmləkətə yeni ruhu, yüksəlişi məhz bu dahi şəxsiyyət gətirə bilər.

Heydər Əliyev onu ilk mərhələdə tanıyan minlərlə insanın ümidini doğrultdu, qısa müddətdən sonra ona inanan artıq yüz minlərlə vətəndaşının ümidlərini reallaşdırdı, daha sonra isə milyonların nicatına, etimad ünvanına çevrildi.

## Heydər Əliyevlə gerçəyə çevrilən əfsanə

14 iyul gecəsiylə bağlı bir xatirəni də unutmuram. Həmin gün ailə dostlarımız, qonşularımız bizə həmişəki vaxtdan daha tez gəldilər və həm də daha gec getdilər. Mövzu bir idi: ölkədə rəhbər dəyişmişdi. Hamı daha ümidli, daha rahat, daha gülərüz idi...

Sonrakı onilliklərdə, elə indi də xeyli tanışımdan, həmkarımdan 14 iyul gecəsi ilə bağlı xatirələr, həmin günlə əlaqədar təəssüratlar eşitmişəm. Yəni minlərlə ailədə həmin gün adi gün kimi başa çatmayıb, sadəcə "ölkədə rəhbər dəyişdi" xəbərini müzakirə etməyiblər.

Onlar Azərbaycan tarixini tənəzzüldən intibaha doğru dəyişdirən o möhtəşəm məqamı sanki intuitiv dərk etmişdilər və həmin gecəni bu xoş müjdənin ovqatında keçirmişdilər.

Həmin yay bağ evimizdə Heydər Əliyev mövzusu birmənalı olaraq əsas söhbət idi. Çox maraqlı, bir az da mənim üçün hətta detektiv üsluba bənzər faktlar səslənirdi. Bir anlıq 1969-cu ilin mənzərəsini fikrimizdə canlandıraq. İnformasiya kommunikasiyası, əhalinin operativ və geniş məlumat alacağı bir vasitə yox. Televizor tək-tük ailədə ola, ya olmaya. Qəzet hamının əlinə keçmir. Belə bir vaxtda vətəndaşların mütləq əksəriyyətinin üzdən tanımadığı Heydər Əliyevin ölkə boyu reydləri başlayır...

Məsələn, birinci katib xəbərsiz və mühafizəçisiz bazara gedir. Növbəti günlər yolunu yenə ictimai iaşə obyektlərindən, ərzaq dükanından, hansısa bərbad küçədən, məhəllədən, yataqxanadan, paytaxt kəndlərindən, bir sözlə, xalqın daha çox yaşadığı, üz tutduğu, ən əsası isə, narazı olduğu məkanlardan salır. Oradakı əyintiləri, qəbahətləri, nöqsanları öz gözü ilə əyani müşahidə edir, özünü tanıtmadan ünsiyyətə girib problemlərin mahiyyətini, səbəbini öyrənir. Bu ziyarət-reydlərin səsi isə sonra çıxır, özü də çox bərk, sərt və sərrast çıxır.

Danışırdılar ki, mağaza müdirləri və digər iaşə obyektlərinin rəhbərləri qəzetlərdə Heydər Əliyevin dərc olunan şəkillərini kəsib götürərək, işçilərinə paylayırmışlar ki, birdən birinci katib reydə çıxıb, yolunu burdan salar, hazırlıqlı olun.

Mütaliə hərfləri tanıdığım ilk gündən mənim ən yaxın yoldaşım olub. Kitablardan Heydər Əliyevin bədii prototipləri ilə tanış olurdum. Qədimdən ədalətli rəhbərlərin libaslarını dəyişərək bu üsulla ölkələrində olub-keçənlərdən xəbərdar olduqları barədə rəvayətlər dolaşdığını oxumuşdum. Ancaq indi bu idarəçilik üslubu artıq mifik əhvalat deyildi, Heydər Əliyevin timsalında hər gün rastlanan adi faktlara çevrilirdi.

## Azərbaycanda ədalət Heydər Əliyevin timsalında zəfər çaldı

Heydər Əliyev Azərbaycana ən əsası, ədalət gətirirdi. Bu ədalət çox gecikmiş olduğundan, xalq ona uzun illər tamarzı qaldığından insanlar bu dahi şəxsiyyətə böyük inamla yanaşırdılar.

Heydər Əliyev belə vəlvələ salmışdı ölkəni fəlakətə, xalqı narazılığa sürükləyən məmurların, vəzifəli şəxslərin, ümumilikdə isə, içəridən çürüyən bütün sistemin canına! Heydər Əliyev dahi təfəkkürünün məhsulu olan üsullarla yeni dövlət sistemi, müasir xidmət modeli, həm də ən doğru idarəçilik ənənələri formalaşdırırdı.

... Sentyabrda artıq şəhərə qayıtmışdıq və məktəb həyatım başlamışdı. Ovaxtkı Bünyad Sərdarov, şəhər camaatının "Verxnıy Naqornıy" kimi tanıdığı küçədə yaşayırdıq. Məktəbdən qayıdıb, dərslərimi hazırladıqdan sonra həmyaşıdlarımla küçədə gəzişirdik. Birdən küçənin başında bir maşın dayandı. İçindən düşən hündürboy qalstuk-kostyumlu kişi ətrafla maraqlanmağa başladı. Bir müddət sonra başqa maşınlar da gəldi və xeyli adam yığıldı. Bu an "gələn Heydər Əliyevdir" sədası küçəmizə yayıldı. Uşaqlar qarışıq böyüklər də yavaş-yavaş Heydər Əliyevə doğru yaxınlaşırdı. Kənardan bizə baxıb gülümsündü və əli ilə salam göndərdi. Amma sonra dərhal üz ifadəsi dəyişdi. Əsəbi formada qarşısındakı hansısa məsul şəxsi sorğu-suala çəkirdi. Verilən cavabların onu qane etmədiyini anlayırdıq. Bir qədər sonra maşına minib getdi.

Amma bir müddət sonra küçəmiz əməlli-başlı abadlaşdı...

Mən Heydər Əliyevi, dünyanın ən böyük azərbaycanlısını ilk dəfə məhz o küçədə gördüm.

Və sonrakı onillikər boyu küçəmizin timsalında ölkədə hər sahədəki natəmizliyi, nöqsanları aradan qaldıran, sistemi çirkabdan təmizləyən, millətinə arxa-dayaq duran, əsl liderlik nümunəsi yaradan KİŞİnin Azərbaycanı necə fədakarlıqla yenidən qurmasını qürurla müşahidə etmişəm, örnək kimi ondan öyrənmişəm...

Mənim kimi milyonlarla insan üçün Heydər Əliyev küçəmizdən başlayaraq bütün məmləkət boyu abadlığı, quruculuğu, ədaləti, düzlüyü, halallığı, məsuliyyəti bərqərar edən Rəhbər oldu.

Ən maraqlısı da o idi ki, artıq 12 yaşlı yeniyetmə də anlayırdı ki, Azərbaycanda rəhbərliyə Şəxsiyyət gəlib!

"Literaturnaya qazeta"da dərc olunan müsahibəsinin sərlövhəsi - "Qoy Ədalət zəfər çalsın!" fikri bütünlüklə Heydər Əliyev idarəçilik sisteminin fəlsəfəsini izah edirdi.

Həmin dövrdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirib, komsomol təşkilatında çalışırdım. Dahi şəxsiyyətin fəaliyyətini artıq kənardan müşahidə etmirdim, partiyanın Mərkəzi Komitəsinin "ehtiyyatı" olan komsomol hərəkatının təmsilçisi kimi çoxsaylı rəsmi tədbirlərin iştirakçısı, bəzən də təşkilati heyətinin üzvü kimi çalışırdım.

Biz gənclər Heydər Əliyevin hər çıxışını, mülahizəsini diqqətlə dinləyir, oxuyur, öyrənirdik. O, bizim üçün ən mükəmməl ensiklopediya idi. Həm də örnək idi.

Ondan probleme yanaşmanı öyrənirdik. Heydər Əliyev Azərbaycan idarəçilik sisteminə tənqidi, özünətənqidi gətirmişdi. Bu, inqilabi dəyişiklik sayılırdı. O, problemi dəqiqliklə müəyyənləşdirir, ən səmərəli çıxış yolunu seçir və qarşıya ən düzgün vəzifələri qoyurdu. Cəmiyyətin bəlasına çevrilən rüşvətxorluğa qarşı amansız mübarizəsi real nəticələr verirdi.

Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycana ittifaqın harasından baxırsansa bax, parlayırdı!

Təsadüfi deyil ki, SSRİ-nin 40-dan artıq strateji sahəsinə birbaşa rəhbərlik səlahiyyəti də məhz ona həvalə edildi. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Siyasi Büro üzvü kimi kiçik Azərbaycanın adını böyük dünyada fəxrlə səsləndirdi!

## Heydər Əliyev missiyası - Güclü Şəxsiyyət, Qüdrətli Dövlət və Möhtəşəm Tarix

Uzun illərdir təşkilati işlərdə, ictimai-siyasi həyatda fəal çalışsam da, hansısa prosesə yanaşmam siyasi-inzibatçı təfəkküründən daha çox məhz tarixçi məntiqi ilə əlaqəli olur. Tarix isə şəxsiyyət faktoruna kompleks yanaşmanı əsas götürür.

Heydər Əliyevə verilən "şəxsiyyət" qiyməti yalnız ifadə vasitəsi deyil (təəssüf ki, indi adi şəxsə də şəxsiyyət demək adi hal alıb). O, şəxsiyyət amilinin bütün müddəalarını artıqlaması ilə öz nümunəsində təsbit edib və şərəflə yaşadıb.

Ən maraqlısı da budur ki, Heydər Əliyevin timsalında biz Şəxsiyyət-Dövlət-Tarix üçbucağının tam vəhdətini, siyasi harmoniyasının təntənəsini görürük. Heydər Əliyev missiyasında Güclü Şəxsiyyət, Qüdrətli Dövlət və Möhtəşəm Tarix ən unikal formada təşəkkül tapır.

Harada ki Dövlət və Şəxsiyyət faktorları vəhdətdədir, orada inkişaf var, rifah var, müsbət hər şey var. O vaxt ki Dövlət və Şəxsiyyət sintezi pozulur, onda fəlakət, böhran, deqradasiya, bir sözlə, bütün neqativlər bir anda meydana çıxır.

Heydər Əliyevin Azərbaycanı - SSRİ-nin 15 respublikası arasında 14-cü yerdən qısa müddətə 3-cü yerə yüksəlmək deməkdir, inkişafdır, ədalətli cəmiyyətdir, bütün ölkə boyu quruculuqdur, respublikanın böyük tikinti meydanına çevrilməsidir.

Heydər Əliyevin rəhbər olmadığı Azərbaycan - Qarabağ savaşıdır, etnik separatizmdir, hakimiyyət çevrilişləridir, dövlət aparatının aşkar quldurluğudur, xaosdur, siyasi xəyanətdir, aclıq və səfalətdir, boş büdcədir.

1988-1993-cü illərin siyasi təlatümlərindən, iqtisadi böhranlarından daha ağırı Azərbaycanın real parçalanma təhlükəsi ilə üzləşməsi idi. O vaxt xalq yaranan problemlərdən nicat ünvanı kimi yalnız Heydər Əliyevi görməkdə tam haqlıydı.

Vətəndaşlarımız müqayisə edirdilər və Heydər Əliyevli Azərbaycanla Heydər Əliyevsiz Azərbaycanın fərqini tam mahiyyəti ilə anlayırdılar. Onu da başa düşürdük ki, Azərbacana qarşı rəzil Moskva-erməni məkri məhz Heydər Əliyev ittifaq rəhbərliyindən getdikdən sonra başladı.

1992-ci ildən etibarən xalq arasında geniş yayılan "Heydər Əliyev hakimiyyətə qayıtmalıdır" tələbi bütün ölkəni əhatə edirdi. İnsanlarımızın mütləq əksəriyyəti məhz vətəndaş mövqeyinin ifadəsi ilə Heydər Əliyevi yeganə xilaskar kimi görürdülər. Bu əhvali-ruhiyyənin dalğasında da Yeni Azərbaycan Partiyası yarandı.

## İlham Əliyevin "Dəmir yumruğu" və qüdrətli Azərbaycanı

1993-cü ildən sonra yenidən Heydər Əliyevli Azərbaycan dövrü - tariximizin qurtuluş, intibah, yüksəliş, əsl müstəqillik mərhələsi başlandı.

Bir anlıq təsəvvürümüzə gətirək, dahi şəxsiyyət hakimiyyətə 6 aydan sonra gəlsəydi, ölkənin halı necə olacaqdı? Məlumdur, erməni işğalçıları Kürü keçib Şirvan bölgəsinə irəliləyəcəkdilər, etnik separatizm "domino effekti" kimi cənubdan şimala doğru yayılacaqdı, fövqəldövlətlərin arzuladığı və çalışdığı kimi, bugünkü Azərbaycanın mövcudluğu sual altında olacaqdı.

Heydər Əliyev bax bu naqis gedişatı dəyişib, dövlətinə, xalqına və tarixinə sahib çıxdı - əsl Böyük Şəxsiyyət kimi!

Belə şəxsiyyətlər yalnız tarixə düşəcək hadisələrin müəllifi olmurlar, onlardan həm də tarix yaratmaq və bu tarixi davam etdirəcək irs-varis ənənəsi formalaşdırmaq tələb olunur. Bunlara nail olmayan şəxsiyyətlərin yaratdıqları da onlardan sonra yox olur, itir. Tək dünya tarixində deyil, elə məmləkət salnaməsində də çox belə acı faktlarla rastlaşmışıq.

Minilliklərin tarix süzgəcindən baxsaq aydın görərik ki, qürur mənbəyimiz olan çox hökmdarın yaratdığı qüdrətli dövlət onun ölümündən dərhal sonra adi titrəyişdən tar-mar olub, süquta uğrayıb. Onlar dövlət qurmaqda mahir olublar, varis yaratmaqda isə çox zəif...

Heydər Əliyevin əzəmətli Şəxsiyyət fərqi də məhz budur ki, o, yaratdığı müstəqil, qüdrətli dövləti etibar etməyə özü qədər inandığı siyasi varis formalaşdırdı və şah əsəri olan Azərbaycanı ona etibar etdi. Xalqın böyük dəstəyi ilə hakimiyyətə gələn cənab İlham Əliyevin 18 il ərzində yürütdüyü fəaliyyət tarixin ən şanlı səhifələrini təşkil edir.

Bu 18 ildə hansı fövqəladə nailiyyətlər qazanılıb, hansı müsbət irəliləyişlər əldə olunub, bunu xalqımız öz güzəranında, yaşamında və vətəndaşı olduğu dövlətin dünya miqyasında necə böyük nüfuza yüksəlməsində əyani görür.

Möhtərəm Prezident İlham Əliyev Heydər Əliyevin Azərbaycanını qorudu və daha möhtəşəm bir zirvəyə ucaltdı - Tarixin ən qüdrətli Azərbaycanını yaratdı!

Cənab Prezident iki əsr davam edən münaqişəyə 44 gün ərzində son qoymaqla adını artıq Azərbaycan tarixinə deyil, dünya tarixinə yazdıran Şəxsiyyət oldu!

Son əsrlər ərzində torpaq itirməyən, əksinə geri alan ən qüdrətli Sərkərdə kimi adını millətin yaddaşına əbədi həkk etdirdi!

İnformasiya savaşının yenilməz Komandanı kimi antiazərbaycançı şəbəkənin qlobal media vasitələrini hər dəfə sarsıtdı, onları bütün həmlələrdə iflas və ifşa etdirdi!

Möhtərəm Prezidentimiz dahi intellektinin nəticəsi olaraq, yalnız Ermənistan ordusunu məhv edib, bu dövləti diz çökdürmədi, bütünlüklə türk-islam dünyasını təhdid edən dünya erməniliyinə, lobbisinə sarsıdıcı zərbə vurdu!

İlham Əliyevin "Dəmir yumruğu" bundan sonra Qafqazın sabitliyini, inkişafını, gələcəyini müəyyənləşdirən əsas güc olacaq!

İlham Əliyev "Zəngəzur dəhlizi"ni reallığa çevirməklə dünənədək torpaqlarımızı işğal edən dövləti artıq öz iqtisadi-kommunikasiya təsiri altına alaraq, onun müqəddəratının sahiblərindən biri olacaq!

Azərbaycanı Qafqazın liderliyindən Avrasiya məkanının əsas söz sahiblərindən birinə, qlobal siyasi aktora çevirən İlham Əliyev həm də artıq özü dünya miqyaslı liderlər sırasının önündədir!

Heydər Əliyev irsinin uğurla davam etdirilməsində, qələbələr qazanmasında Mehriban xanım Əliyevanın da böyük fədakarlığı, layiqli xidməti var. Birinci vitse-prezident kimi ölkə rəhbərinin ən etibarlı silahdaşı, Azərbaycan boyda böyük məsuliyyətin çiyindaşı olmaqla bərabər, həm də xalqın inam, etimad ünvanına çevrilməsi Mehriban xanımın şəxsində bütünlüklə Əliyevçilik irsinin təntənəsidir.

Mehriban Əliyevanın dahi şəxsiyyətin adını daşıyan fondun rəhbəri kimi ölkə və dünya miqyasında həyata keçirdiyi mərhəmət aksiyaları, sosial layihələr Heydər Əliyevin əbədiyaşar ruhuna ən böyük ehtiram nümunələridir.

## Hər nailiyyətdə Heydər Əliyev izi, imzası var

Heydər Əliyevin Azərbaycana rəhbərlik illərinin hər iki dövrü barədə cild-cild kitablar, araşdırmalar hazırlanıb. Dünyanın məşhur tədqiqatçıları bu tarixi mərhələləri öyrənib, təhlil ediblər, çox dəyərli əsərlər yaradıblar. Ancaq yenə də yetərli deyil.

Heydər Əliyev dühasından nə qədər yazılsa da, bəhs edilsə də, yenə də bu şəxsiyyətin bütün fəaliyyəti, əməlləri əks olunmaqda acizdir. Hər dəfə yeni bir müsbət məqam, yeni bir yanaşma ortaya qoymaq olur.

Eləcə də bu gün hansı sahədə nailiyyət, inkişaf varsa, möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, istisnasız olaraq, onların hər birində Heydər Əliyev izi, Heydər Əliyev imzası var!

Bu dahi lider elə bir layihələr, planlar hazırlayıb ortaya qoyub ki, onlar hətta 30-40 il sonra da nəinki aktuallığını qoruyub, hətta daha qlobal miqyasa çıxıb. Məsələn, ötən əsrin 70-ci illərində icrasına başladığı yeni neft strategiyası nəticəsində ciddi durğunluq yaşayan bu sektor böhrandan qurtuldu, bütün infrastruktur yeniləndi, avadanlıqların milli istehsal sahələri yaradıldı, neft hasilatı artdı, ən əsası isə, indiyədək ittifaq büdcəsinə gedən neft gəlirlərinin respublika büdcəsinə yönəlmə həcmi faizlə yox, məhz dəfələrlə artdı. Heydər Əliyevin neft strategiyasının ikinci mərhələsi olan "Əsrin müqaviləsi"nin reallaşması (bu proseslərdə möhtərəm İlham Əliyevin fövqəladə diplomatik məharəti, peşəkar iqtisadi yanaşması, mahir təşkilatçı bacarığı, yüksək siyasi fəhmi ən başlıca faktorlardan biri olmuşdur) nəticəsində neft potensialı müstəqillik illərində ölkə iqtisadiyyatının inkişaf lokomotivi, həm də müstəqillyimizin etibarlı bünövrəsi oldu.

50 il öncə əsası qoyulan neft strategiyası üçüncü mərhələdə - bu gün artıq Avropanın enerji təhlükəsizliyini təmin edən əsas mənbələrdən birinə çevrilib, "Bakı-Tbilisi-Ceyhan", TANAP, TAP kimi transmilli layihələr əsasında Azərbaycan dünyanın yeni enerji xəritəsinin müəyyənləşməsində vacib aktorlardan biri kimi mütləqləşib.

Demək, Heydər Əliyev onilliklər sonrasını da düzgün proqnozlaşdırmağı bacaran, qlobal düşüncəyə sahib olan misilsiz siyasətçi, qüdrətli strateq idi!

Yalnız neft strategiyasını? Əlbəttə ki, yox. Onlarca belə misal çəkmək olar. Bu gün Azərbaycanın qitələrarası ən səmərəli nəqliyyat-logistik məkana, kosmos ölkəsinə çevrilməsinin əsasları hələ ötən əsrin 70-ci illərində qoyulub.

Yaxud elə azərbaycançılıq ideyası. Sovet ideologiyasının əsas prinsipləri olan bədnam kosmopolit, fəsadlı beynəlmiləlçilik meyillərinə qarşı Heydər Əliyevin sakit və düşünlümüş şəkildə həyata keçirdiyi millləşmə siyasəti heç də aparıcı xalqın dominatlığını təsbit etmirdi. Azərbaycançılıq bayrağı altında bu ərazilərdə tarixən yaşayan xalqların milli identifikliklərini qorumaq şərtilə birləşməsi 1993-cü ilin etnik separatizm cəhdlərinə qarşı da ən böyük zərbə oldu.

Vətən savaşında bütün xalqların vahid orqanizm kimi "Dəmir yumruğ"a çevrilməsi və düşmənin başını əzməsi, şəhid və əlil olanlar arasında Azərbaycanda yaşayan bütün xalqların təmsilçilərinin olması bir daha sübut etdi ki, Heydər Əliyevin Azərbaycançılıq ideyası dövlətin və müstəqilliyin bütünlüyünün əsas təminatçısıdır.

## "Z nəsli"nə Heydər Əliyevi necə tanıtmalı?

Heydər Əliyev əsrlər sonra belə Azərbaycan tarixində ən möhtəşəm mövqe, nüfuz sahibi kimi xatırlanacaq. Buna əsla şübhə yoxdur.

Bəzən belə deyirlər ki, Heydər Əliyevin təbliğata ehtiyacı yoxdur. Əslində, bu yanaşmanı ilk halda haqlı saymaq olar. Ətrafda, ictimai həyatda, dövlət fəaliyyətində hansı nailiyyət, qələbə varsa, onların hər birində Heydər Əliyev amili aşkar görünür. Ancaq bununla yanaşı, hesab edirəm ki, Heydər Əliyev siyasi irsini öyrənmək, təbliğ etmək və daha müasir təbliğat üsulları, kreativ metodlarla vətəndaşlarımıza, xüsusən də gənclərimizə, yeniyetmələrə çatdırmaq gərəkdir.

Unutmayaq ki, yeni yetişən nəsil, o cümlədən barəsində çox bəhs edilən "Z nəsli" bu dahi şəxsiyyətin müasiri olmayıb, Heydər Əliyevi ancaq bizim danışdıqlarımızdan, bir də kitablardan öyrənirlər. Onlar azad ölkədə, problemsiz cəmiyyətdə, davamlı inkişaf meyillərinin yaşandığı ictimai abu-havada formalaşıblar. Onlar Qarabağ savaşının acı məğlubiyyətini, etnik separatizm meyillərini, gecəli-gündüzlü çörək növbələrini, aclığı və səfaləti görməyiblər.

Açıq etiraf edək və gizlətməyək: yeni nəslin bir hissəsi Qurtuluş gününün əsl mahiyyətini də anlamır, həmin günlərin səbəb və nəticələri barədə dolğun təsəvvürə də malik deyil. Sanki 2021-ci ilin qalib, müzəffər Azərbaycanının davamlı inkişaf edən iqtisadiyyatı, yüksələn rifahı elə 1988-ci ildə də, 1992-1993-cü illərdə də, elə lap 1995-ci ildə də eyni olub. Acınacaqlı hal odur ki, - mən tarixçi olaraq, bunu ümumiyyətlə bağışlanmaz sayıram, - biz 28-30 ilin həqiqətlərini bəzi hallarda unuduruq.

Günahkar axtarmayaq. Ailədə valideyndən məktəbdəki pedaqoqlara, elmi araşdırma mərkəzlərindən siyasi təsisatlara, ictimai qurumlardan dövlət orqanlarınadək, İdarə Heyətinin üzvü olduğum Heydər Əliyev Partiyasının - Yeni Azərbaycan Partiyasının 760 min üzvündən, əlbəttə ki, dahi şəxsiyyətin şah əsərlərindən olan gözəl və füsunkar Bakının İcra Hakimiyyətinədək - hər birimizin bu prosesdə ciddi məsuliyyəti var. Hamımızın daha fəal səfərbərliyi vacib və mütləqdir.

Yenə də qayıdaq "Z nəsli"nə, - gələcəyimizi etibar edəcəyimiz bu gənclərə Heydər Əliyev irsinin təşviqatını taftaloji, standart yanaşmalardan uzaq, daha peşəkar, novator üsullarla, inandırıcılıq təsiri güclü və effektiv tərzdə, onların qəbul edəcəyi dil ilə, müasir informasiya və sosial media şəbəkəsindən düzgün bəhrələnməklə təlqin etməliyik.

Kampaniyaçılıqdan, mövsümi təşviqatlardan, populizmdən uzaq olmalıyıq. Heydər Əliyev elə bir qüdrətli düha, elə bir misilsiz xidmətlər sahibidir ki, onun nə mübaliğəyə, nə də obrazlı şişirtmələrə ehtiyacı var.

Heydər Əliyevi gələcəyimizə düzgün çatdırmalı, doğru anlatmalı, səmimi heyran etməliyik. Bu, bizim ən mühüm borcumuzdur!

Ümumilikdə Heydər Əliyevin təbliğatı prosesini yalnız bir şəxsiyyətin təşviqi üzərində qurmaq da düzgün deyil. Unutmamalıyıq ki:

- *Heydər Əliyev bir şəxsiyyət dühasından əlavə, mükəmməl dövlətçilik sistemidir!*
- *Heydər Əliyev irsi müstəqil dövlətçilik kursudur!*
- *Heydər Əliyev siyasi xətti Azərbaycanın inkişaf, rifah prioritetləridir!*
- *Heydər Əliyev amalları məmləkətin etnik bütövlüyünü, ərazi birliyini, siyasi suverenliyini möhkəmləndirən əsas amildir!*
- *Heydər Əliyev şəxsiyyəti ən ali vətənpərvəplik, qüdrətli liderlik, intellektual dahilik örnəyidir!*
- *Heydər Əliyevin fəaliyyəti mümkünsüzü mümkünə çevirən, xaosdan intibaha keçidi təmin edən, xalqın və dövlətin əsrlər boyu inkişafına təkan verəcək proqramları hazırlayan təkmil məktəbdir!*

Fikrimcə, bu prosesdə Heydər Əliyev Fondunun yanaşması, fəaliyyət üslubu ən doğru, ən düzgün, ən səmərəli nümunə kimi hamıya örnək olmalıdır. Çox hörmətli Mehriban xanım Əliyevanın formalaşdırdığı və fondun peşəkar komandasının ləyaqətlə, vicdanla həyata keçirdiyi Heydər Əliyev irsinin təbliği-təşviqi işini hər birimiz daha dərindən öyrənməklə yanaşı, prosesə töhfələr verməyə çalışmalı, öz sahəmizdə tətbiq etməliyik.

*Heydər Əliyev elə müasir Azərbaycan deməkdir.*

*Dahi şəxsiyyət özü də 1998-ci ilin prezident seçkiləri kampaniyası dövründə seçiciləri ilə görüşündə "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda həmişə olacağam" deyə bəyan etmişdi.*

*Bəli, Heydər Əliyev həmişə var olacaq, hər zaman yaşayacaq - dövlətimizin müstəqillyində, uğurlarında, inkişafında və cənab İlham Əliyevin yaratdığı Tarixin Ən Qüdrətli Azərbaycanında...*

**Eldar ƏZİZOV,**
***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı,***
***YAP İdarə Heyətinin üzvü***

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Əbədiyaşarlıq rəmzi



Əvvəli 1-ci səh.

Ulu Öndərimiz ictimai fikri hər zaman dövrün keyfiyyətcə yeni və pozitiv dəyişikliklərinə hazırlamış, yaranmış tarixi şəraitə uyğun strateji qərarlar qəbul etməklə yanaşı, fəaliyyətində daim milli maraq və mənafeləri önə çəkmiş, uzaq hədəflərə hesablanmış inkişaf strategiyası işləyib-hazırlamış və həyata keçirmişdir. Unikal keyfiyyətlərə sahib olan bir siyasətçi kimi bir-birilə ziddiyyət təşkil edən iki müxtəlif ictimai-siyasi quruluşda ölkəyə inamla rəhbərlik etmiş Heydər Əliyev hər iki mərhələdə Azərbaycanın möhkəmlənməsinə, tərəqqisinə çalışmış, xalqın mənafeyini hər zaman üstün tutmuşdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanı yüksəliş yoluna çıxaran inkişaf strategiyasının tarixi 1969-cu ildən, respublikamıza birinci dəfə rəhbər seçilməsindən başlayıb. 1969-cu il iyunun 14-ü həyatımızın olduqca mühüm tarixi hadisəsi kimi yaddaşımızda əbədi qalıb. Bu tarix dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah mərhələsinin başlanğıcını qoyub.

Ulu Öndərin rəhbərliyi illərində həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa yol açdı. O vaxt sovet rejiminin sərt qanunlarına baxmayaraq qısa zaman kəsiyində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə o dövrlərdə hətta ittifaq rəhbərliyinin cəsarət etmədiyi addımlar atılırdı. Respublikada korrupsiya, rüşvətxorluq hallarına qarşı başlanmış mübarizə, bu istiqamətdə atılan addımlar öz nəticəsini verirdi. Qarşıda duran vəzifələr uğurla icra edilirdi. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin ilk rəhbərliyi dövründə Azərbaycan bütün sahələr üzrə sözün əsl mənasında öz intibah dövrünü yaşayıb.

Məhz həmin dövrdən Azərbaycanın müasir tarixinin bütün mərhələləri Heydər Əliyevin adı ilə bağlıdır. Onun uzaqgörənliyi sayəsində yeni Azərbaycan iqtisadiyyatının qurulması, respublikada hərbi kadrlar yetişdirən hərbi liseyin yaradılması kimi məsələlər məhz müstəqil Azərbaycanın bugünkü inkişafı üçün nəzərdə tutulmuş addımlar idi.

İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər hələ sovet dönəmində respublikanın istehsal potensialının mühüm hissəsini ittifaq şəbəkəsindən ayırıb və bununla da respublika iqtisadiyyatının əsaslı şəkildə müstəqilləşdirilməsinə, sənaye potensialının gücləndirilməsinə nail olub. Həmin illərdə Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı sayəsində keçmiş sovetlər ittifaqının bir çox qabaqcıl texnologiyalara əsaslanan sənaye istehsal müəssisələri Azərbaycanda inşa olunub. Ulu Öndərin atdığı bu taleyüklü addımlar sayəsində Azərbaycanın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılıb. Neft sənayesinin iqtisadi inkişafdakı müstəsna rolunu düzgün qiymətləndirən Ulu Öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olub.

## Müstəqilliyimizin xilaskarı, müasir Azərbaycan dövlətinin banisi

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü.

"Pis günün ömrü çox olmaz" deyib atalar. Bütün çətinliklərə, məhrumiyyətlərə, cəmiyyət həyatının bütün sferalarını bürümüş böhrana dözən Azərbaycan xalqının müdrik qərarı və seçimi 1993-cü ilin ortalarından başlayaraq vəziyyəti dəyişdi. 1993-cü il iyun ayında təcrübəli siyasətçi, bacarıqlı dövlət xadimi Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ölkədəki hərc-mərcliyə, vətəndaş qarşıdurmasına son qoydu, dövlət müstəqilliyimiz qorundu. Ulu Öndər çox böyük real təhlükələri qarşısına alaraq qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü və dövlətini yox olmaq təhlükəsindən xilas etdi. Onu da qeyd edək ki, həmin ağır günlərdə Azərbaycan Həmkarlar İttifaqlarının çoxsaylı üzvləri xalqın böyük etimad göstərdiyi və sonsuz ümid bəslədiyi Heydər Əliyevin haqq işinin müdafiəsinə qalxmışdı.

Ulu Öndərin əsasını qoyduğu milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Bununla da ölkədə illərdən bəri davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız Vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu.

Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə möhtəşəm uğurlara imza atıldı, islahatlar həyata keçirildi, iqtisadi dirçəliş baş verdi, ordu gücləndirildi. Bu fikirlərin təsdiqi kimi, "Əsrin müqaviləsi"nin əhəmiyyətini vurğulamaq kifayət edər. Həmin beynəlxalq neft sazişi Azərbaycanın sonrakı uğurlu inkişafında əsaslı rol oynadı. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın dövlət mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar əldə edildi. Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da əhəmiyyətli dəyişikliklərin əsası qoyuldu. Ümummilli Liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı.

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyanın əsasını iqtisadiyyatın yüksəlişinə, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Nəticədə iqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu Öndər beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Azərbaycanın ozamankı məhdud imkanlarını nəzərə alan Heydər Əliyev iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ulu Öndər neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasında əsas vasitələrdən biri kimi baxırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Heydər Əliyevin hakimiyyətə qayıdışından dərhal sonra xarici investorlarla neft müqavilələri üzrə fəal danışıqlara başlandı və çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

Ümummilli Lider müasir Azərbaycan Respublikasında aparılan bütün islahatların təşəbbüskarı və müəllifidir. Həmin islahatlar bu gün də böyük uğurla davam etdirilir.

Bütövlükdə, Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətçiliyinin etibarlı bünövrəsini yaratdı. Böyük öndərin dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli oldu. İctimai-siyasi sabitlik amili indi də bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış edir. Şübhəsiz, sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçid formulunu reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya, insan hüquqları kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir. Məhz bu sabitliyin, iqtisadi tərəqqinin nəticəsidir ki, hazırda demokratik normalar qanunların və milli dəyərlərin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və dialektik inkişafa uyğun olaraq getdikcə ictimai şüur tərəfindən tam şəkildə mənimsənilir.

Onu da qeyd etmək yerinə düşər ki, Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf modeli spesifikliyi ilə fərqlənməklə demokratik dəyərləri özündə maksimum ehtiva edən milli inkişaf prioritetlərini müəyyənləşdirdi. Məhz bunun nəticəsidir ki, Azərbaycan çox qısa müddətdə bir sıra Qərb dövlətlərinin onilliklər ərzində əldə etdiyi iqtisadi tərəqqiyə nail oldu, demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi uğurlar əldə etdi.

## Azərbaycançılıq ideologiyası birləşdirici amildir

Ümummilli Lider Heydər Əliyevin vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından həyati əhəmiyyət kəsb edən azərbaycançılıq ideyasını irəli sürməsi, onu bir ideologiya şəklində formalaşdırması və bütün dünyada Azərbaycan diasporlarının təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir. Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla çoxsaylı görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa səsləmişdir. Ulu Öndər daim həmvətənlərimizi yaşadıqları ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, eyni zamanda vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun Azərbaycanı təmsil etdiklərini unutmamağa çağırmışdır.

1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan". Qeyd etmək lazımdır ki, hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyev Azərbaycan dilini milli mənliyin baş məsələsi kimi diqqət mərkəzində saxlayıb. Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr ziyalılarının əsərlərində milli ideya kimi türkçülüklə paralel olan azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı, ümummilli ideya, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı. Bu gün siyasi baxışlarından asılı olmayaraq, hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır. Ulu Öndər özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün bu sahədə sistemli və ardıcıl siyasət yeridir. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

## Azərbaycanın yüksəlişi Heydər Əliyev siyasətinin təntənəsidir

Hər bir uğurun əsasında Heydər Əliyev uzaqgörənliyi, düşünülmüş siyasəti dayanır. Prezident İlham Əliyev hələ 2003-cü ildə keçirilən andiçmə mərasimində Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin gərəkliyini bildirmişdi. Son 18 ilin uğurları bu vədin konkret əmələ əsaslandığını sübut edir. Prezident İlham Əliyev ölkəmizin ötən dövrdə qazandığı uğurları diqqətə çatdıraraq bildirmişdir: "Bu gün Heydər Əliyev siyasəti bütövlükdə bütün sahələrdə davam etdirilir. 2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən 2003-cü ildə bu barədə sözümü demişəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir".

Bu gün Azərbaycanın hansı uğurundan, hansı nailiyyətindən söhbət gedirsə-getsin orada Heydər Əliyevin dəstxəti, müdrikliyi, uzaqgörənliyi aydın görünür. Azərbaycanın iqtisadi möcüzələr ölkəsi kimi tanınması, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə evsahibliyi etməsi, ən əsası, inkişafın Azərbaycan modelinin dünyaya böyük səs salması təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün siyasətə əsaslanır.

Dövlət siyasətinin əsas prioritetləri kimi böyük əhəmiyyətə malik, Avropa və dünya birliyi dövlətlərinin enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş sayılan Azərbaycanın lider dövlət kimi tanınmasının təməlində də Ulu Öndər tərəfindən qoyulan daxili və xarici siyasətin uğurlu həlli dayanır. Bütün xalqlar və dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlıq siyasəti yeridən Azərbaycanın ən tanınmış beynəlxalq təşkilatlarda təmsil olunub, söz sahibi nüfuzu qazanması müdrik bir siyasətin məntiqi nəticəsi kimi bu gün də özünü doğruldur. Həyata keçirilən hər bir layihənin əks-sədası Azərbaycana marağı artırmaqla respublikamızı Cənubi Qafqazda lider dövlət kimi tanıtdırdı. Bu gün Azərbaycanın iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsinin qeyri-mümkünlüyü də deyilənlərin təsdiqidir. "Bu təşəbbüsləri gerçəkliyə çeviririk" söyləyən dövlət başçısı İlham Əliyev bu layihələrin ölkələr arasında dostluğun, əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyəti olduğunu bildirir. Gerçəklənən hər bir layihə yeni layihənin gündəmə gətirilməsinə stimul verir.

Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası bütün dünyada yaşayan azərbaycanlılar üçün birləşdirici faktora çevrilib. Dünyada Azərbaycan diaspor təşkilatlarının mövqelərinin getdikcə güclənməsini şərtləndirən əsas amil Prezident İlham Əliyevin diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşmasıdır. Ötən 18 ildə bu yönümdə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən dövlət başçımız müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Dövlətimizin başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır.

## Həmkarlar ittifaqlarının fəaliyyətində yeni səhifə açıldı

Qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının müstəqil qurum kimi formalaşması da məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə həmkarlar ittifaqlarının həyatında yeni səhifə açıldı. Heydər Əliyevin şəxsi diqqət və qayğısı nəticəsində Azərbaycan Həmkarlar İttifaqları yenidən ölkənin ictimai, siyasi, iqtisadi və mədəni həyatında layiqli yeri olan bir təşkilata çevrildi. Məhz Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edilmiş, bununla da təşkilatın normal fəaliyyətinə şərait yaradılmışdır. Beynəlxalq standartlara cavab verən belə bir qanunun qəbul edilməsi ilə həmkarlar ittifaqları elə nüfuz və hörmət sahibinə çevrildi ki, istər Milli Məclisdə, istərsə də Nazirlər Kabinetində əhalinin sosial-iqtisadi problemlərinin həlli ilə bağlı mühüm məsələlərə dair qərarların qəbulunda onun verdiyi təkliflər əsas yerlərdən birini tutmağa başladı. Əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında həmkarlar ittifaqlarının hüquqları tanındı. Azərbaycan Həmkarlar İttifaqları beynəlxalq həmkarlar ittifaqları hərəkatının tərkib hissəsinə çevrildi.

Heydər Əliyevin göstərişləri və tövsiyələri sayəsində Azərbaycan Həmkarlar İttifaqlarının vəzifələri dəyişdi, onların sosial təyinatı, funksiyaları, fəaliyyətlərinin forma və metodları əsaslı şəkildə yenidən quruldu. Ulu Öndərin uzaqgörən siyasəti sayəsində həmkarlar ittifaqlarının uzun illər ərzində yaranmış maddi-texniki bazası qorunub saxlanmış, həmkarlar ittifaqlarının demokratik idarəetmə prinsiplərinə əsaslanan fəaliyyətinə dəstək verilmişdir. Bütün bunlar respublikada həmkarlar ittifaqı hərəkatının inkişafına stimul yaradaraq işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsini daha səmərəli formada həyata keçirməyə imkan yaratdı.

Heydər Əliyev həmişə bu qurumun fəaliyyətini izləməyə, ona yardım göstərməyə vaxt tapmış, qurultaylarına təbrik məktubları göndərmiş, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirmiş, zəruri tövsiyələrini vermişdir. Ulu Öndərin 2003-cü il fevralın 5-də AHİK-in II qurultayına ünvanladığı təbrik məktubunda deyilirdi: "Yeni şəraitdə həmkarlar ittifaqlarının cəmiyyətdəki rolu daha da artmışdır. 1994-cü ildə qəbul olunmuş "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu bu qurumun cəmiyyətimizdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsi və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaradır. Həmkarlar ittifaqları hazırkı dövrdə əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli şirkətlərdə iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməlidirlər. Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar".

Ümummilli Lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasına sadiq olan Prezident İlham Əliyevin həmkarlar ittifaqlarının sosial-iqtisadi məsələlərlə bağlı mövqeyini dəstəkləməsi və bu sahədə mühüm qərarlar qəbul etməsi xüsusi rol oynadı. Prezident İlham Əliyev də dəfələrlə həmkarlar ittifaqlarının güclü qüvvə olduğunu və Azərbaycanda əmək hüquqlarının qorunmasında, işçilərin sosial məsələlərinin həllində mühüm rola malik olduğunu qeyd etmişdir: "Əminəm ki, həmkarlar ittifaqları cəmiyyətdə əməkdaşlıq ruhunun bərqərar olması, sosial ədalət prinsiplərinə riayət edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində çox iş görə bilər". Bu fikirlər həmkarlar ittifaqlarını daha da əzmkarlıq, birlik və həmrəylik nümayiş etdirməyə istiqamətləndirmişdir.

Bu gün Azərbaycan Həmkarlar İttifaqları vətəndaş cəmiyyətinin əsas institutlarından biri olmaqla, cəmiyyətdə öz yerinin və rolunun möhkəmləndirilməsi üçün real yollar axtarıb tapır. Sosial ədalət prinsiplərinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir.

Azərbaycan Həmkarlar İttifaqları respublikamızın ictimai həyatında mühüm rol oynamaqla iqtisadiyyatın və cəmiyyətin demokratik dəyərlərinin inkişafı sahəsində qarşıda duran vəzifələri yerinə yetirir, qloballaşmanın dərinləşməsi şəraitində dünya həmkarlar ittifaqları ilə əməkdaşlığı genişləndirir. Əhalinin sosial-iqtisadi və məşğulluq problemlərinin həlli üçün hökumətlə sıx əməkdaşlıq edir, cəmiyyətdə mövqeyinin güclənməsinə çalışır. Çoxsaylı sahə həmkarlar ittifaqını öz ətrafında birləşdirən AHİK və onun üzv təşkilatları qanunvericilikdə onlara həvalə edilmiş hüquq və səlahiyyətlərinin yerinə yetirilməsində uğurlu addımlar atırlar.

## Heydər Əliyevin müəyyənləşdirdiyi, İlham Əliyevin davam etdirdiyi siyasətin nəticəsi

Zaman xalqımızı ağır sınaqlara çəksə də, artıq yenidən tariximizin şərəfli səhifələri yazılır. Heydər Əliyevin müəyyənləşdirdiyi, İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi xəttin nəticəsi olaraq güclü Azərbaycan dövlətinin yaranması bu gün dünyanın etiraf etdiyi reallıqdır. Elə bu reallıqdan çıxış edərək xalqımız öz tarixinin yeni yüksəliş salnaməsini yaradır. Ötən il 44 günlük Vətən müharibəsindəki qələbə də bu salnamənin parlaq səhifəsidir.

Bu Qələbənin əldə olunması Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm İlham Əliyevin layiqincə davam etdirdiyi siyasətin nəticəsi və təntənəsidir. Bu zəfərlə Ermənistanın 30 illik işğalına son qoyuldu, məğlubiyyət damğası birdəfəlik üzərimizdən götürüldü, yeganə ağrılı problemimiz həllini tapdı. Azərbaycan döyüş meydanında yalnız Ermənistanı cəzalandırmadı, həm də cəmi 44 gün ərzində uzun onilliklər xalqımız barədə dünyada mənfi obrazlar yaratmağa çalışan dünya erməniliyinə böyük zərbə vurdu. Ermənistan ordusunun gücü, erməni əsgərinin döyüş əzmi barədə uydurulmuş mif bir neçə günə darmadağın edildi.

Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə bütün Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Bu reallıqlardan ən önəmlisi odur ki, Azərbaycan xalqı artıq öz torpaqlarına qayıdıb və bu qayıdış əbədidir. Bu reallıqla barışmaq istəməyən, hələ də tarixin təkərini geri döndərmək kimi boş ümidlərdən əl çəkməyən ünsürlərə ən gözəl cavabı çıxışlarının birində Prezident İlham Əliyev verib: "Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik. Əgər kimsə revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Azərbaycanın dəmir yumruğu düşmənin belini qırıb, lazım olarsa, bir daha qırar".

Beləliklə, İlham Əliyev sübut etdi ki, söz anlamayan Ermənistanı güc yolu ilə başa salmaq mümkündür. Erməni təəssübkeşlərinin isə Azərbaycanın qələbəsini etiraf etməkdən başqa yolları yoxdur.

İşğalçı Ermənistan üzərində qazanılmış hərbi Qələbəni, o cümlədən Qarabağa qayıdışı fərəh hissi ilə qeyd etdikcə, bir daha Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla anırıq. Çünki bizi bu Qələbəyə, bu qayıdışa aparan yolun təməlində Heydər Əliyev dayanır. Bu haqq savaşında xalqımız vətənpərvər liderinin ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı.

*Ulu Öndər Heydər Əliyevin xalqına, xalqın isə Ümummilli Liderinə olan sarsılmaz inamı və sonsuz sevgisi belə bir deyim yaratdı - "Heydər-Xalq, Xalq-Heydər!" Əslində bu ifadə özündə bəlkə də bəşər tarixində indiyədək mövcud olmuş ən möhkəm və sarsılmaz xalq-iqtidar birliyini təcəssüm etdirir. Heç bir şübhə yoxdur ki, Azərbaycanın öz ərazi bütövlüyünü möhtəşəm tarixi Qələbə ilə təmin etməsi bu gün də davam edən və gündən-günə daha da möhkəmlənən bu birliyin növbəti təntənəsidir. Azərbaycan xalqı öz xilaskar oğlu Heydər Əliyevin əziz xatirəsini daim yaşadacaq, Ulu Öndərin müəyyənləşdirdiyi yolla bundan sonra da daha böyük qələbələrə doğru inamla addımlayacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

1923 **Azərbaycanın özü qədər əbədi** 2021

# Heydər Əliyev yolunun uğurlu davamı Azərbaycana Zəfər sevincini yaşatdı



*Azərbaycan bu il dövlət müstəqilliyini yenidən bərpa etməsinin 30-cu ildönümünü qeyd edəcək. Dövlət başçısı İlham Əliyev daim çıxışlarında bu məqamı xüsusi qeyd edir ki, müstəqillik tariximiz tarixi paralellər fonunda şərh olunmalı, indiki və gələcək nəsillərə çatdırılmalıdır.*

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqilliyini yenidən bərpa etsə də, bu fakt inkaredilməzdir ki, onun bu sevincini yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yaşamağa başladıq. Müstəqilliyimizin ilk illərində yaşananlar yaşlı və orta nəslin yaddaşındadır. Azərbaycan gəncliyi bunu böyüklərin dilindən, eyni zamanda, tarix dərsliklərindən öyrənərək müstəqilliyimizin hansı çətinliklər hesabına qorunması, bu yolun heç də hamar olmaması barədə məlumata malik olur. Azərbaycan müstəqilliyinin ilk illərində ölkəyə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan insanların rəhbərliyi ucbatından müstəqilliyini itirmək, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Digər tərəfdən də ölkədə silahlı qüvvələrin torpaqların deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsi ilə məşğul olmaları ərazilərimizin işğalına gətirib çıxarmışdı. Cənab İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsi, eyni zamanda, postmüharibə dövründə xalqa bütün müraciətlərində, proqram xarakterli çıxışlarında daim diqqəti həmin dövrün reallıqlarına yönəldərək bu gerçəkliyi bəyan edir ki, torpaqlarımızın işğalı AXC-Müsavat cütlüyünün xəyanətinin nəticəsidir. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın 30 ilə yaxın dövrdə qazandığı uğurların təhlilini bir zərurətə çevirdi. Müstəqil Azərbaycanımız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ən çətin anlarda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xaosdan, anarxiyadan, özbaşınalıqlardan, iqtisadi böhrandan xilas olaraq inkişaf, tərəqqi yoluna qədəm qoydu. Belə bir ağır vəzifəni üzərinə götürməklə milyonların etimadını doğrultmağı həyatının əsas amalı adlandıran Ümummilli Lider Heydər Əliyev ilk növbədə xalqının müdrikliyinə, qüdrətinə güvənərək o dövrdəki səbatsız iqtidarın buraxdığı səhvlər nəticəsində yaranan vətəndaş müharibəsi təhlükəsini uzaqgörən siyasəti ilə dərk edirdi. Xalqın tələbi ilə 9 iyunda Bakıya qayıdan, həmin ayın 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi, milyonların etimadı nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev 10 oktyabr 1993-cü ildə keçirilən andiçmə mərasimində dövlət başçısı kimi müstəqilliyimizin əbədiliyi naminə qarşıda duran vacib məsələlərdən danışdı, müstəqilliyimizi tarixi nailiyyətimiz kimi dəyərləndirərək onu qorumağı hər kəsin vətəndaşlıq borcu kimi qarşıya qoydu. Ümummilli Lider ilk gündən bu çağırışı etdi ki, suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur. Dahi şəxsiyyət bu reallığı da diqqətə çatdırırdı ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması bundan da çətindir.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü dövlətinə, xalqına bağlılığı və bu fonda atdığı biri-birindən əhəmiyyətli addımları ilə xarakterizə olunur. Xalqına verdiyi vədləri həmişə olduğu kimi sədaqəti ilə doğruldan, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayacam" söyləyən Ümummilli Lider Heydər Əliyev "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" fikirləri ilə də Vətəninə, xalqına bağlılığının ifadə etmişdi. Hakimiyyətə gəldiyi ilk gündən müharibə şəraitində yaşayan ölkəmizdə müdafiə və ordu quruculuğu ilə məşğul olan Ulu Öndər, eyni zamanda, sülhpərvər diplomatik yanaşmaya üstünlük verərək Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün vasitələrdən istifadə edirdi. Ümummilli Liderin fəaliyyətinin əsasını Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını aradan qaldırmaq, həqiqətləri olduğu kimi dünyaya çatdırmaq təşkil edirdi. Müstəqilliyimizin ilk illərində Azərbaycan haqqında məlumatsızlıq erməni yalanlarının ayaq tutub yeriməsinə rəvac verirdi. Ermənilərin və erməni diasporunun apardıqları qərəzli təbliğata uyğun olaraq Azərbaycan beynəlxalq ictimaiyyətə işğalçı, Ermənistan isə işğala məruz qalan tərəf kimi təqdim olunmuşdu.1992-ci ildə ABŞ Konqresinin ölkəmizə qarşı "Azadlığı müdafiə aktı"na ədalətsiz "907-ci düzəlişi" tətbiq etməsində də bu məlumatsızlıq əsas rol oynamışdı. Ermənilər buna nail olmaqla Azərbaycanı yardımlardan məhrum etmək, bununla da iqtisadi cəhətdən asılı vəziyyətə salmaq istəyirdilər.

Amma ölkəmizin malik olduğu imkanlar, ən əsası, Ulu Öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə böyük dəyər verərək ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsini təmin etmək məqsədilə gərgin səylər nəticəsində 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanması Azərbaycanın qarşısında elə geniş imkanlar yaratmışdı ki, ölkəmizi nəinki iqtisadi cəhətdən zəiflətmək mümkün idi, əksinə, dayanıqlı iqtisadi inkişafı ilə dünyanın diqqətində dayanmışdı. Azərbaycan 10 il ədalətsiz "907-ci düzəliş"in tətbiqi şəraitində yaşasa da, iqtisadi uğurları ilə diqqət çəkdi. 2001-ci il 11 sentyabrda ABŞ-da baş verən terror aktı ABŞ hökumətinin xarici siyasətində dəyişikliklər etməsinə səbəb oldu. "907-ci düzəliş"in ədalətsiz qərar olduğunu etiraf edən ABŞ hökuməti onun fəaliyyətinin birillik dondurulması barədə qərar qəbul etdi. Növbəti illərdə bu qərar hər il yenidən təsdiqlənməklə fəaliyyəti dondurulur. Bunu qeyd etməklə Ulu Öndər Heydər Əliyevin qarşıya qoyduğu hər bir məqsədə nail olmaq üçün reallıqlara söykənərək atdığı addımların və onların nəticəsində ölçüyəgəlməz dərəcədə biri-birindən mühüm uğurlara nail olunduğunu bildirmək istərdik. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir imkanları böyük olan, mürəkkəb bir dövrdə xalqın xidmətində dayanan, siyasi iradəsini, qətiyyətini, dövlətçilik təcrübəsini və bacarığını nümayiş etdirən Ulu Öndər Heydər Əliyev ən bacarıqlı siyasi xadimlərin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirərək həqiqəti lazım olduğu məqamda dilə gətirən müdrik lider olduğunu sübut etdi.

Ümummilli Lider yaxşı bilirdi ki, Azərbaycanın ağır siyasi, iqtisadi böhrandan çıxması üçün başlıca şərt iqtisadi müstəqilliyin möhkəmləndirilməsi, bu fonda siyasi müstəqilliyin təmin edilməsidir. Buna görə də Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə irəliləməsini başlıca amil hesab edən Ulu Öndər Heydər Əliyev iqtisadi islahatlar həyata keçirdi, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsini prioritet kimi qarşıya qoydu. "Əsrin müqaviləsi"ni imzalamaqla yeni neft strategiyasını müəyyənləşdirən, Azərbaycana investisiya axınını iqtisadi böhrandan çıxış yolu hesab edən Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmiz etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi, iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri ilə dövlətlər, xalqlar arasında dostluq, əməkdaşlıq körpüsünü daha da möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərləri reallığa çevrildi, Azərbaycan regional inkişafın aparıcı qüvvəsi oldu. İllər keçdikcə əməkdaşlığın coğrafiyasının genişləndirilməsi öz aktuallığını qorudu. Son 17 ildə Heydər Əliyev kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin təkmil siyasəti, gələcəyə hesablanmış inkişaf strategiyasına uyğun olaraq beynəlxalq miqyas aldı. Enerji sektorunun uğurları sırasında 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2014-cü ildə "Cənub qaz dəhlizi"nin təməlinin qoyulmasını və 2018-ci ildə rəsmi açılışının keçirilməsini, həmçinin həmin ilin iyun ayının 12-də onun əsas seqmentlərindən olan TANAP-ın, 2020-ci il dekabrın 31-də TAP-ın istifadəyə verilməsini qeyd edə bilərik. Bununla da dünyaya sübut etdik ki, biz tərəfdaşlarımızla bərabərlik əsasında əməkdaşlıq etməyi bacarırıq və neft strategiyasını həyata keçirən Azərbaycanın bacarıqlı, təcrübəli neftçiləri var. Ulu Öndər Heydər Əliyev, eyni zamanda, möhtərəm Prezident İlham Əliyev neftçi əməyini daim yüksək dəyərləndiriblər. Ulu Öndər Heydər Əliyevin fərmanına uyğun olaraq "Əsrin müqaviləsi"nin imzalandığı tarixin - 20 sentyabrın ölkəmizdə Neftçilər Günü kimi təsis edilməsi də deyilənlərin təsdiqidir. İndi tam əminliklə demək olar ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələri dünyanın enerji xəritəsini dəyişdirməyə imkan yaratdı. Dövlət başçısı İlham Əliyev SOCAR-ın qarşısında beynəlxalq modern şirkətə çevrilməyi əsas vəzifə kimi qoyub. SOCAR-ın həyata keçirdiyi investiya layihələri həm ölkəmizin, həm də qurumun beynəlxalq mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, hər bir layihələrin uğurlu icrasında kadr potensialı da əhəmiyyətli rol oynayır. Dövlətimiz, həmçinin SOCAR bu məsələnin də həllinə xüsusi diqqət yönəldir. Cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli fərmanı əsasında SOCAR-ın strukturunda Bakı Ali Neft Məktəbi yaradılıb. Bu ali təhsil ocağı ilk gündən Azərbaycan universitetlərinin reytinq cədvəlində liderliyini qoruyur. Bakı Ali Neft Məktəbinin yaradılmasında məqsəd fəaliyyətini xaricdə genişləndirən SOCAR-ın, eləcə də ölkənin digər sənaye sahələrinin müasir tədris proqramları və təlim texnologiyaları əsasında təhsil almış ingilisdilli mütəxəssislərə olan ehtiyacını ödəməkdir. Bu məqsədə çatmaq üçün ilk növbədə Bakı Ali Neft Məktəbində müasir tələblərə cavab verən təhsil infrastrukturu yaradılıb, tədris prosesinə yüksəkixtisaslı professor-müəllim heyəti cəlb olunub. Bu təhsil ocağının tələbələri transmilli, beynəlxalq neft-qaz şirkətlərində, o cümlədən SOCAR-ın müəssisələrində istehsalat təcrübəsi keçirlər. Bu da onların gələcəkdə beynəlxalq standartlara uyğun kadrlar kimi yetişmələrinə imkan yaradır.

Ümumiyyətlə, ölkəmizdə təhsilin inkişafı prioritetdir. Cənab İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçildiyi gündən "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürdü və dünya təcrübəsinə əsasən bu reallığı da diqqətə çatdırdı ki, hər bir ölkənin inkişafında bilik, təcrübə, yeni texnologiyalar əsas rol oynayır. Bu üç amilin vəhdətinin qorunması ilə davamlı inkişafa nail olmaq mümkündür. Yeni texnologiyaların tətbiqi isə öz növbəsində kadr hazırlığını bir tələbə çevirir. Cənab İlham Əliyevin son 17 ildə atdığı addımlar Heydər Əliyev yolunun uğurlu davamıdır. Ulu Öndərin hakimiyyətinin hər iki dövründə gənclərə, onların təhsilinə, tərbiyəsinə diqqət və qayğı öndə olub. Hakimiyyətinin birinci dövründə yüzlərlə gəncin keçmiş ittifaqın ən nüfuzlu ali təhsil ocaqlarına göndərilməsi də Azərbaycanın müstəqil gələcəyinə hesablanmış addımlardan idi. Həmin gənclər sonrakı dövrlərdə ən yüksək strukturlarda təmsil olunaraq ölkəmizin ayrı-ayrı sahələrdə inkişafına öz töhfələrini verirlər. Cənab İlham Əliyevin gənclərin xarici ölkələrdə təhsili ilə bağlı dövlət proqramı da onların biliklərə daha dərindən yiyələnmələrinə, zəngin təcrübə əldə edib ölkəmizə qayıtdıqdan sonra dayanıqlı inkişafı dəstəkləmələrinə xidmət edir. Ən əsası isə bu gənclər, həm də Azərbaycanın təbliğatçılarıdırlar. Onlar təhsil aldıqları ölkələrdə Azərbaycan həqiqətlərini təbliğ edir, əlaqələrin inkişafına səy göstərirlər. Ümummilli Lider belə bir çağırış etmişdir ki, Azərbaycanın gələcəyi indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır.

Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında sıx birləşmək çağırışı həmrəyliyimizin qorunmasında əhəmiyyətli rol oynadı. Dünyaya inteqrasiya siyasəti həyata keçirən ölkəmizdə dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə, tariximizə bağlılıq prioritetdir. Bu gün tolerant dövlət kimi dünya sivilizasiyasının aparıcı ölkələri sırasında ön cərgədə dayanan Azərbaycanın brendi olan multikulturalizmin əsasını müəyyənləşdirən Ulu Öndər həmçinin bildirirdi ki, Azərbaycan çoxmillətli respublikadır. Ölkəmizdə bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların respublikanın ictimai-siyasi həyatında bərabər hüquqlar çərçivəsində iştirak etməsi üçün bütün imkanlar yaradılacaqdır. Bu siyasətin davamı olaraq dövlət başçısı İlham Əliyevin sərəncamları əsasında 2016-cı il ölkəmizdə "Multikulturalizm ili", 2017-ci il isə "İslam həmrəyliyi ili" elan edlimişdir. Xalqımızın tarixinə, ədəbiyyatına, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə bağlılığının təsdiqi kimi 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili", 2019-cu ilin "Nəsimi ili", 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsini də xüsusi qeyd etməliyik. Hər bir il gənclərimizin milli ruhda yetişməsinə geniş imkanlar açır.

Ümummilli Lider müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən ikitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin qurulmasını və inkişaf etdirilməsini, diaspor quruculuğunu xüsusi qeyd edirdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noybarın 9-10 tarixlərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor quruculuğu istiqamətində atılan ən mühüm addım, həmçinin bu sahənin inkişafında yeni mərhələnin əsası oldu. Diaspor bir dövlətin xaricdəki varlığıdır. Azərbaycan həqiqətlərinin təbliğində müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların birləşdikləri Azərbaycan mərkəzlərinin, diaspor təşkilatlarının böyük rolu var. Ümummilli Lider bu çağırışı da edirdi ki, Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edən düşünülmüş xarici siyasəti olmalıdır. Bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək, dünya dövlətləri sistemində layiqli yer tutmaq xarici siyasətimizin əsas istiqamətlərindəndir. Ümummilli Lider Heydər Əliyevin bu prinsiplər əsasında həyata keçirdiyi xarici siyasət kursunun da son 17 ildə möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi əldə olunan nəticələrdə öz aydın ifadəsini tapır. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirərək yeni-yeni dostlar, tərəfdaşlar qazanır ki, bu da öz növbəsində həqiqətlərimizin olduğu kimi təbliğində və qəbul olunmasında mühüm amillərdən biridir.

Ulu Öndər bu mühüm vəzifəni də qarşıya qoymuşdur ki, müstəqilliyimizi, suverenliyimizi daimi etdirmək üçün güclü ordumuz olmalıdır. Həmçinin güclü, qüdrətli ordu sülh danışıqlarının daha cəsarətlə aparılması üçün vacib şərtlərdən biri idi. Ulu Öndərin ordu quruculuğu istiqamətində atdığı addımların da bünövrəsi məhz respublikamıza rəhbərliyinin birinci dövründə qoyulmuşdur. Cəmşid Naxçıvanski adına hərbi liseyin əsası məhz həmin zamanlarda Ümummilli Liderin gərgin səyləri əsasında qoyulmuşdur. Bu gün böyük fəxr hissilə qeyd edirik ki, Azərbaycan Ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti bu liseyin yetirmələridir. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş ruhunun artması, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində atdığı addımların nəticəsi bugünkü reallıqlarımızda öz aydın ifadəsini tapır. Müstəqilliyimizin ilk illərində gənclərin ordudan yayınma halları geniş vüsət almışdı. Amma 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, ordu quruculuğunda da atılan addımlar gənclərin daha yüksək əhvali-ruhiyyə ilə hərbi xidmətə getmələrini stimullaşdırdı. 44 günlük İkinci Qarabağ müharibəsi ordumuzun hansı imkanlara malik olduğunu nümayiş etdirməklə yanaşı, gənclərdə məhz həmin dövrdə qoyulan möhkəm təmələ əsaslanaraq formalaşmış vətənpərvərlik ruhunun, torpaq sevgisinin təqdimatı oldu.

Ulu Öndər Heydər Əliyevin xidmətlərindən bəhs edərkən onun demokratik cəmiyyətin formalaşması, o cümlədən bunun əsas tərkib hissələrindən biri kimi çoxpartiyalı sistemin yaradılması istiqamətində addımlarından bəhs etməmək qeyri-mümkündür. Bu gün nəinki ölkənin, eyni zamanda, regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biridir. Daim dövlətə, xalqa xidməti fəaliyyətinin əsası kimi qəbul edən Yeni Azərbaycan Partiyası yarandığı gündən milyonların partiyasına çevrildi. Tutduğu yola sadiqlik, hər addımında dövlətinin, xalqının gələcəyini düşünməsi, populizmdən uzaqlığı, bütün təbəqədən olan insanları öz sıralarında bir araya gətirərək dövlətimizin həyata keçirdiyi siyasətə dəstəyi, Azərbaycanın hər bir uğurunda payının olması üçün göstərdiyi səylər YAP-ı qaliblər partiyası kimi tanıdıb. Ölkəmizdə keçirilən bütün seçki proseslərindən qalibiyyətlə çıxan Yeni Azərbaycan Partiyası qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər ilə daim ölkə ictimaiyyətinin rəğbətini qazanıb. Ümummilli Lider Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlər üçün aktuallığını qoruyur, partiyanın davamlı uğurlarına bələdçilik edir. Son 17 ildə partiyanın Prezident İlham Əliyevin rəhbərliyi ilə təkmil inkişafı günümüzün reallıqları sırasındadır. Belə ki, 2019-cu ildə Yeni Azərbaycan Partiyasının ölkəmizdə aparılan təkmil islahatlardan qanunverici orqanın da kənarda qalmaması üçün parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Cənab İlham Əliyevin sərəncamı əsasında 2020-ci il fevralın 9-da keçirilən parlament seçkiləri əsasında formalaşan yeni parlament daha çevikliyi, səmərəli fəaliyyəti, cənab İlham Əliyevin gəncləşmə siyasətinə uyğun olaraq bu kateqoriyadan olan insanların təmsil olunması ilə diqqət çəkir. Dövlət başçısı İlham Əliyev islahatların inkişaf, yeni ideya, tərəqqi olduğunu önə çəkərkən bu məqamı da xüsusi vurğulayır ki, dayanıqlı inkişafın təmin edilməsində təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Dövrün, zamanın tələblərinə uyğun təkmilləşmə hədəflərə yüksək səviyyədə nail olmağa əsas yaradır.

Bu il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı da qəbul olunan qərarlar, qarşıya qoyulan vəzifələr, ünvanlanan çağırışlarla tarixə yazıldı. Bu mühüm hadisənin təsadüf etdiyi dövrə nəzər salmaq kifayətdir ki, onun tarixi əhəmiyyətini dərk edək.

Son 17 ilin reallıqları Ulu Öndər Heydər Əliyevin 2003-cü il 1 oktyabr tarixində xalqa müraciətində əksini tapan fikirlərin təqdimatıdır. Ümummilli Lider cənab İlham Əliyevə özü qədər inandığını, axıra qədər çatdıra bilmədiyi işlərin onun xalqın, Yeni Azərbaycan Partiyasının dəstəyi ilə sona yetirəcəyini böyük əminliklə qeyd etmişdi. 2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,84 faizinin səsini toplayaraq Prezident seçilən, növbəti 2008, 2013, 2018-ci illərin prezident seçkilərində də qələbəsini təkrarlayan cənab İlham Əliyev 2003-cü ildə ilk dəfə prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm" vədinin əməli işdə təsdiq etdiyini nümayiş etdirməklə Azərbaycanın qarşısında böyük imkanlar açdı.

Bu gün İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərimiz Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində qurulan möhkəm təməlin nəticəsidir. Xalqımız tam əmin idi ki, Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən möhtərəm Prezidentin rəhbərliyi ilə Dağlıq Qarabağ münaqişəsi də öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar. Cənab İlham Əliyev daim öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız üçün lazım olan şəraiti yaratdıqda, çadırları şəhərciklərlə əvəzləyəndə bu fikri də diqqətə çatdırırdı ki, bunlar müvəqqəti xarakter daşıyır. Tezliklə torpaqlarımız işğaldan azad olunacaq, üçrəngli bayrağımız bu ərazilərdə dalğalanacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdaraq yeni həyata başlayacaqlar. Dövlət başçısı ən yüksək tribunalardan bəyan edirdi ki, bir qarış torpağımız belə düşmənə verilməyəcək. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz. Möhtərəm Prezidentin bəyanatları sırasında "Biz imkan verməri̇k ki, torpaqlarımızda ikinci erməni dövləti yaradılsın" fikri də xüsusi yer tuturdu. Cənab İlham Əliyevin özünün də qeyd etdiyi kimi, nəyi nə zaman etdiyini yaxşı bilir. Azərbaycan bu müddət ərzində gücləndi, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində erməni qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu öz əksini tapıb. Digər qurumların da qərar və qətnamələrində Azərbaycanın mövqeyi dəstəkləndi. Bütün bunlar rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazmasında mühüm rol oynadı. Azərbaycanın 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 ölkəni öz sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrliyi və digər uğurlarımız da Azərbaycana dəstəyin aydın mənzərəsini yaradır. Bununla belə, dünyanın ikili siyasəti ucbatından qəbul olunan qərar və qətnamələr kağız üzərində saraldı, ermənilərə gözün üstə qaşın var deyən olmadı. 30 ilə yaxın dövrdə aparıcı dövlətlərin, nüfuzlu beynəlxalq təşkilatların edə bilmədiklərini Azərbaycan Ordusu 44 gün ərzində etdi. Torpaqlarımızın işğalına son qoyuldu, ədalət bərpa edildi, milli qürurumuz özümüzə qayıtdı. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, 2003-cü ildən bugünə qədər yetişən Azərbaycan gənclərinin vətənpərvərlik hissinin, torpaq sevgisinin böyüklüyü İkinci Qarabağ müharibəsində Qələbəmizin mühüm amilidir. "Torpaqdan pay olmaz" deyib ömürdən pay verən gənclərimiz öz qanı, canı ilə Zəfər tariximizi yazdılar. Bundan sonra qürur hissi ilə yaşayacağıq: Müzəffər xalq, güclü dövlət, yenilməz ordu, güclü iradə sahibi kimi. Hər zaman Azərbaycanın yanında olan qardaş Türkiyə də Qələbəmizi eyni coşqu ilə yaşadı. Nəinki paytaxt Bakımızın, həmçinin Türkiyənin küçə və meydanlarını iki dost, qardaş ölkənin bayraqları bəzədi. Vətən müharibəsi, eyni zamanda, həqiqət anı oldu. Dövlətlər, təşkilatlar münasibətlərində nə qədər səmimi və qeyri-səmimi olduqlarını nümayiş etdirdilər. Bütün təzyiqlərə baxmayaraq, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev öz qətiyyətli mövqeyindən bir addım da belə geri çəkilmədi, Ermənistana və ona havadarlıq edən dövlətlərə öz mesajlarını çatdırdı. Möhtərəm Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsində 30-a yaxın xarici mətbuata müsahibələri, həmçinin postmüharibə dövründə videoformat şəklində keçirilən beynəlxalq tədbirlərdə çıxışları, yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı Dağlıq Qarabağ həqiqətlərinin, İkinci Qarabağ müharibəsini şərtləndirən amillərin təqdimatında əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyev istər döyüş meydanında, istərsə də informasiya cəbhəsində Azərbaycanın üstünlüyünü təmin etdi. Bu gün böyük fəxr hissilə qeyd edirik ki, Azərbaycan xalqı dünyanın ən məğrur, yenilməz xalqı, cənab İlham Əliyev qalib Lider, ordumuz ən güclü, qüdrətli ordusudur. Torpaqlarımız öz tarixi sahibinə qayıtmaqla bu reallığı bir daha dünyaya çatdırdı ki, işğalçıya dəstək olmaqla tarixi silmək, başqasının ərazilərini işğal altında saxlamaq qeyri-mümkündür. Gec-tez həqiqət qalib gəlir.

Artıq işğaldan azad edilmiş torpaqlarımızda yeni həyat başlayıb. Tezliklə bu torpaqlarımız cənnətməkana çevriləcək, soydaşlarımızın Böyük Qayıdışı reallaşacaq. Bu ərazilərimizdə ermənilərin törətdikləri vəhşiliklər bugünə qədər necə vəhşi ilə üz-üzə qaldığımızı nümayiş etdirir. Təəssüflər olsun ki, dünya hələ də baş verənləri görməzdən gəlir. Fakt budur ki, Azərbaycan tarixi Zəfəri ilə regionda və dünyada yeni reallıqlar yaradıb. Yazımı möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 noyabrda Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən söylədiyi bu fikirlərlə bitirirəm: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

***Elmar QASIMOV,***
***YAP İdarə Heyətinin üzvü,***
***Bakı Ali Neft Məktəbinin rektoru***

# “Qubadlı” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrində xidməti-döyüş fəaliyyətinin təşkili yoxlanılıb





Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev mayın 3-4-də DSX-nin Sərhəd Qoşunlarının “Qubadlı” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.





DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən və işğal altındakı torpaqlarımız azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılıb. Son dövrdə bu ərazilərdə artıq 10 yeni hərbi hissənin fəaliyyətə başlamasının böyük əhəmiyyət kəsb etməsi xüsusi qeyd olunub. Aprelin 26-da Cəbrayıl rayonu ərazisində Dövlət Sərhəd Xidmətinin yeni inşa olunmuş hərbi hissəsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərhədçilər qarşısında çıxışından irəli gələn məsələlərin qısa müddətdə həllinin vacibliyi vurğulanıb, Azərbaycan sərhədçilərinin bu tapşırıqların da öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunub.

Ezamiyyət müddətində əlahiddə sərhəd diviziyasının xidməti ərazisində dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili istiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən yeni hərbi hissələrin inşası, sərhəd yollarının çəkilməsi, ərazidə hərəkətin təmin edilməsi üzrə tikinti-quruculuq işləri və təhlükəsizlik tədbirləri nəzərdən keçirilib, sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüş keçirilib, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraiti ilə tanışlıq olub.

Əlahiddə sərhəd diviziyasının rəhbər heyətinin iştirakı ilə xidməti müşavirə keçirilib, vəzifəli şəxslərin xidməti ərazidə mövcud əməliyyat şəraiti və görülən tədbirlər haqqında məruzələri dinlənilib. Habelə hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsinin, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsinin vacibliyi xüsusi vurğulanıb.

Səfər çərçivəsində həmçinin Azərbaycan-İran dövlət sərhədində Zəngilan rayonu ərazisində “Bartaz” sərhəd zastavasında xidməti-döyüş fəaliyyətinin təşkili, dövlət sərhədinin etibarlı mühafizəsinin daha da yüksəldilməsi üçün görülən işlərlə yerindəcə tanışlıq olub, şəxsi heyətin xidməti və yaşayış şəraitinə baxış keçirilib, zəruri tapşırıq və tövsiyələr verilib.

# *XİN:* Beynəlxalq öhdəliklərini pozan Ermənistanın Azərbaycanın öz ərazisində apardığı bərpa-quruculuq işləri ilə bağlı şərh verməyə hüquqi əsası yoxdur

Azərbaycanın 30 ilə yaxın işğal altında saxlanılan ərazilərinin azad edilməsi ilə ölkəmiz bu torpaqlarda bərpa və quruculuq prosesinə başlayıb.

Hazırda bu ərazilərdə nəhəng yenidənqurma işləri həyata keçirilir, o cümlədən onilliklərlə davam edən Ermənistan işğalı zamanı yerlə yeksan edilmiş tarixi, mədəni və dini irsimiz bərpa olunur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfindən Şuşada aparılan bərpa işləri ilə bağlı bəyanatının şərhində yer alıb.

Bildirilib ki, Şuşa şəhərində həyata keçirilən genişmiqyaslı quruculuq işləri çərçivəsində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir. Qeyd etmək istərdik ki, bu yenidənqurma işləri Şuşanın tarixi simasının bərpa edilməsi məqsədilə məhz orijinal memarlıq üslubuna uyğun olaraq həyata keçirilir.

Eyni zamanda, onu da vurğulamaq istərdik ki, Şuşadakı Qazançı kilsəsinin 200 metrliyində “İsgəndər M” raketinin qalıqlarının tapılması və yalnız xoşbəxtlikdən bu faciənin baş verməməsi onu göstərdi ki, bu ölümcül silahla Ermənistan bütün şəhəri, o cümlədən “dəyər verdiyi” kilsəni belə məhv etməyə hazırdır.

Ermənistan Xarici İşlər Nazirliyinə xatırladırıq ki, qonşu dövlətin ərazilərini onilliklər ərzində qanunsuz hərbi işğal altında saxlayan Ermənistandan fərqli olaraq, torpaqlarını azad edən Azərbaycan üçün ərazisindəki hər bir abidə, bina, daş belə dəyərlidir, onların yenidən qurulması və qorunmasına dövlət səviyyəsində əhəmiyyət verilir.

Qeyd olunub ki, Ermənistana gəldikdə, bu ölkənin Azərbaycanın ərazilərində törətdiyi vəhşiliklər göz qabağındadır. Ermənistan bu ərazilərdəki mədəni və tarixi irsin xarakterini sistematik və qəsdən məhv edib və ya dəyişdirib, o cümlədən muzeylərin mülkiyyətində olan əlyazmalar və digər dəyərli eksponatlar yox edilib və yaxud onlar oğurlanaraq qara bazarlarda satışa çıxarılıb, Azərbaycanın xalçaçılıq sənətinin dəyərli nümunələri talan edilib, yüzlərlə mədəniyyət müəssisəsi, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 8 mədəniyyət və istirahət parkı, habelə Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.

Bütün bu vəhşiliklərə, beynəlxalq öhdəliklərin pozuntusuna səbəb olan bir ölkənin Azərbaycan tərəfindən öz ərazisində aparılan bərpa-quruculuq işləri ilə bağlı hər hansı şərh verməyə mənəvi, ya da hər hansı hüquqi əsası yoxdur.

Vurğulanıb ki, bu gün Azərbaycan Ermənistanın təcavüzkar siyasətinin, törətdiyi vandallıqların ağır nəticələrini aradan qaldırır. Odur ki, belə olan halda Ermənistan XİN-in əsassız iddialar deyil, üzrxahlıq bəyanatı ilə çıxış etməsi daha doğru olardı.

# Milli Prioritetlər - yeni inkişafın yol xəritəsi

## İlham Əliyevin müəyyənləşdirdiyi yüksəliş konsepsiyası sistemli islahatlar üçün böyük imkanlar yaradacaq

*Əvvəli 1-ci səh.*

İqtisadçılar hesab edirlər ki, Milli Prioritetlər mühüm dövlət konsepsiyasıdır, burada nəzərdə tutulan tədbirlər həddindən artıq geniş və çoxşaxəlidir və bir çox dövlət orqanları qarşısında mühüm vəzifələr durur. Ona görə də Milli Prioritetlərə əsasən, müxtəlif proqram və layihələr hazırlanacaq.

### Qarabağın iqtisadi potensialı dayanıqlı inkişafa böyük təkan olacaq

Vətən müharibəsində əldə olunmuş tarixi qələbə həm də ölkəmiz üçün yeni iqtisadi imkanlar açıb. Ona görə də bu mərhələdə Azərbaycanın yeni inkişaf yolunun xəritəsi də müəyyənləşməli idi.

İlham Əliyev beş prioritetin iki bəndini (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit, “yaşıl artım” ölkəsi) məhz bu istiqamətə uyğun müəyyənləşdirib. Çünki işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir və təbii ki, Azərbaycan bu potensialdan maksimum yararlana bilər.

Bu iki istiqamətin uğurlu icrası da onu deməyə əsas verir ki, tezliklə Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividentlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yaradacaq. Çünki Qarabağda dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, trikotaj, turizm, aqrar və “yaşıl enerji” kimi sahələrin böyük inkişaf potensialı var. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Dövlət büdcəsi hesabına Qarabağda 2,2 milyard manatlıq sərmayə qoyuluşu da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə yaradılacaq iqtisadi infrastrukturlar dayanıqlı inkişafa böyük imkan yaradacaq.

Eyni zamanda xarici dövlətlərin iri şirkətləri də bu gün işğaldan azad edilmiş torpaqlarda investisiya yatırımına böyük maraq göstərirlər. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan, İsrail kimi dövlətlərdən Qarabağın bərpasına sərmayə axını başlayıb.

Mayın 3-də İlham Əliyev bu istiqamətdə görüləcək işlərlə bağlı Prezidentin Ehtiyat Fondundan 1.391.040 ABŞ dollarının manat ekvivalenti məbləğində, yəni 2 milyon manatdan çox vəsait ayırdı. Dövlət başçısının imzaladığı sərəncama əsasən işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkət cəlb ediləcək.

Göründüyü kimi, İlham Əliyev Qarabağda tikinti-quruculuq proseslərinin sürətləndirilməsi üçün mühüm addımlar atır, vacib qərarlar qəbul edir. Ona görə də əminliklə deyə bilərik ki, İlham Əliyevin müəyyən etdiyi Milli Prioritetlər qarşıdakı 10 il ərzində ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə və keyfiyyətcə yeni mərhələyə yüksəldəcək və Azərbaycan inkişaf etmiş ölkələr sırasında layiqli yerini möhkəmləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

*Felyeton*

# Axmaq baş sahibinə qapaz yedizdirər

*Əvvəli 1-ci səh.*

Ərkəsöyünlüyünüz söyüş, daş davasına çevrildi, sonra silaha əl atdınız, yerli azərbaycanlıları dədə-baba yurdlarından zorla qovub çıxartdınız.

Moskva sizə hərtərəfli dəstək verdi, əl altınca silahlandırdı.

Hətta “xüsusi idarəetmə komitəsi” adlı bir qondarma qurum yaradaraq Dağlıq Qarabağı imkan düşən kimi sizə vermək ötrü bizdən ayırdı!

Qudurdunuz, yolunuzu azdınız...

Xocalı soyqırımını törətdiniz, qadınları, qocaları, uşaqları qətlə yetirdiniz, əsir və girovların başına olmazın müsibətlərini gətirdiniz...

“Məzlum millət” də qocaya, qadına, uşağa əl qaldırar?

Qədim xalq da başqasının ev-eşiyini yandırıb dağıdar, şəhər və kəndləri viran qoyar, meşələri, meyvə bağlarını məhv edər?

“Xiristianlığı birinci qəbul edən” məscidləri uçurar, Allahın evində donuz, heyvan saxlayar, özgə kilsəsini dəyişib özününkü etmək istəyər?

Yalan, hiylə, riya, oğurluq, qorxaqlıq, vəhşilik və barbarlıq sizin əsil sifətiniz, əsil simanızdır!

❖ ❖ ❖

Torpaqlarımızı işğalda saxladığınız 27 ildə nə qazandınız, nə yiyəsi oldunuz?

Bəli, bizdən oğurladıqlarınızdan, bizdən oğurlayıb başqalarına satdığınızdan müəyyən qazancınız oldu!

Bu, həqiqətdir!

Bəs onun nəticəsi nədir?

Yenə yoxsul, dilənçi kökündə yaşayırsınız!

Hamilərinizin dəstəyi ilə Azərbaycan torpaqlarını işğal etdiniz!

Qurulu evləri, kəndləri, şəhərləri dağıdıb viran qoydunuz, ora-bura satıb pula çevirdiniz!

Torpaqlardan qovulanda isə illərlə yaşadığınız evlərə od vurub yandırdınız!

Əgər o torpaqlar, evlər sizin idisə, niyə dağıdıb yandırırdınız?

Niyə bayquş kimi xarabalığı sevirsiniz?

Allahın evində - məscidlərdə donuz saxlayanda bilmirdinizmi evin sahibi sizi yerlə yeksan edəcək?

Bilmirdiniz ki, Allahın evinin adını, ünvanını dəyişəndə ora da həsrət qalacaqsınız?

Hələ bu harasıdır...

❖ ❖ ❖

Axmaq olmaq üçün, gərək əvvəlcə erməni olasan!

Damın kölgəsində yatıb, öz kölgən sayasan!

Özgə ağzı ilə məharətlə hürəsən!

Sözlə deyildi ki, özgə torpaqlarından çıxın - başınıza batmadı!

Xəbərdarlıq edildi ki, hərb yoluna əl atılsa, külünüz göyə sovrulacaq - inanmadınız!

Vaxt verib gözlədik ki, başa düşəsiniz - qudurdunuz!

Elə bildiniz ki, sizdən qorxuruq, təzə ərazilərimizi ələ keçirməklə hədələdiniz!

Dəmir yumruq başınıza dəyən kimi, “ağıllandınız”, dərhal sahibinizin yanına qaçaraq yalmanıb kömək istədiniz.

Böyüyünüz üzə çıxmağa utanaraq, hansısa zirzəmidə təslim aktını imzaladı.

Dəvə başını kolluğa soxmaq misalı: elə bildi ki, heç kim bu təslimçilikdən xəbər tutmayacaq.

30 il səngər qazmağa, səd qurmağa, mina basdırmağa, tikanlı məftillər çəkməyə, yeraltı bunkerlər tikməyə sərf etdiyiniz əziyyət, çəkdiyiniz xərc batdı getdi!

Dinməz-söyləməz, quzu balası kimi Ağdamı, Laçını və Kəlbəcəri qoyub getdiniz!

Amma murdar xislətinizi burda da göstərdiniz:

Sizdən sonra işğal ərazilərində minalar - ölüm tələləri qalır.

Onların xəritələrini isə vermirsiniz!

Çünki faşist xislətlisiniz!

Faşistlərə nökərçilik eləmiş Nijdeyə heykəl qoyub pərəstiş edənlərsiniz!

M.Qandinin heykəlinə od vurub, Holokost qurbanlarının abidəsini təhqir edənlərsiniz!

Sizlərdən və sizinlə dostluq edənlərdən bundan artıq nə gözləmək olar?!

❖ ❖ ❖

Dünya sizi yaxşı tanımır!

Bəlkə də tanımaq istəmir, çünki pulluların özlərindən əvvəl pulları görünür və göz qamaşdırır.

Sizin “məzlum”, “zavallı”, “ən qədim” sözlərinə inanmaq istəyir.

Amma gəlib Qarabağa baxanlar, sizin miras qoyduğunuz vandallığı, vəhşiliyi, goreşənliyi görənlər hansı xislət sahibi olduğunuzu anlayırlar.

Sizlərin bir simanız isə döyüş meydanında aşkar oldu!

Dəmir yumruqla başınız əziləndə!

Sonra dəmir yumruq sahibi həmin döyüş meydanını olduğu kimi Bakıya gətirdi, hamının görməsi üçün Dənizkənarı yeni bulvarda yerləşdirdi.

Hərbi Qənimətlər Parkının yaradılması nə sizə, nə də havadarlarınıza, müdafiəçilərinizə xoş gəlmir!

Çünki burada hər şey olduğu kimi görünür!

Hətta manikenə çevrilmiş sir-sifətiniz və mahiyyətiniz də!

İstədiyiniz vaxt gəlib özünüz də tamaşa edə bilərsiniz!

Yaddaşın möhkəmlənməsi üçün çox təsirli vasitədir!

Çünki arada dəmir yumruğu unudaraq qisasdan, təzə ordu qurmaqdan danışırsınız.

Elə bilirsiniz ki, Xankəndidə əvvəlki oyunlar çıxarda biləcəksiniz?

Xam xəyalınızdır!

Azərbaycan 90-cı illərin Azərbaycanı deyil!

Azərbaycan Ordusu ovaxtkı silahlı dəstələr deyil!

Rüstəm Muradov da Arkadi Volski ola bilməyəcək!

Ortalıqda Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, dəmir yumruğu, Rusiya Prezidenti V.Putinin mötəbər imzası və kapitulyasiya aktında Paşinyanın qolu var!

Qaçmağa yer yoxdur!

Məlum bəyanatın şərtlərinə əməl etmək istəməsəniz, zorla etdirəcəyik!

Dəmir yumruğun gücü ilə etdirəcəyik!

Qardaş Türkiyənin dəstəyi ilə etdirəcəyik!

Dostlarımızdan aldığımız silahların, PUA-ların gücü ilə etdirəcəyik!

Zəngəzurdan da dəhliz açacağıq!

Nijdenin təzə heykəlini də dağıdacağıq!

Qarabağımızı yenidən tikib-quraraq cənnətə çevirəcəyik!

Çünki Qarabağ bizimdir!

Biz isə güclüyük!

Sərkərdəmiz İlham Əliyevlə güclüyük!

Xalqımızın milli birliyi ilə güclüyük!

Qalib ordumuzla güclüyük!

Dostlarımızla güclüyük!

İqtisadiyyatımızla güclüyük!

Ədalətimizlə güclüyük!

Güclülər isə həmişə qalib gəlirlər!

Güclülərlə isə həmişə hesablaşırlar!

❖ ❖ ❖

Axmaq baş sahibinə qapaz yedizdirər - demişlər.

Müharibə etdiniz, şil-küt edib qovduq!

İndi görün nə kökdəsiniz!

ABŞ Prezidenti “soyqırımı” dedi - nə olsun?

Nə torpaq olacaq, nə təzminat, boş sözdür!

Biz sizi yaltaq, yarınan millət kimi görmüşük.

Qapımızda çox nökərçilik edib, quyruq bulamısınız!

Belədə sizə də yaxşı olur!

Rahat və firavan dolanırsınız?

Ağıllanmaq vaxtıdır!

Bizi eşitmək, tabe olmaq, dediklərimizi eləmək vaxtıdır!

Onda başınız da salamat qalar, özünüz də rahat yaşayarsınız!

Nə qədər tez ağıla gəlsəniz, özünüz üçün yaxşıdır!

Heç zaman Aprel müharibəsini, 44 günün zəfərini yaddan çıxarmayın!

Yaddaşsızlıq bəla gətirər!

**Bəxtiyar SADIQOV**

# PUA heyətləri təlim-məşq uçuşları yerinə yetirirlər





Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun silahlanmasında olan müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının (PUA) heyətləri təlim-məşq uçuşları yerinə yetirirlər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşq prosesində heyətlər əməliyyat-taktiki biliklərini artırır, ən müasir trenajorlarda əldə etdikləri vərdişlərin təkmilləşdirilməsi məqsədilə praktiki uçuşlar və təlim-döyüş tapşırıqları icra edirlər.

PUA heyətləri şərti düşmənin müdafiəsinin dərinliyindəki hədəfləri vaxtında və dəqiq aşkarlayaraq qarşıya qoyulan tapşırıqları icra edir, müxtəlif hündürlüklərdə kəşfiyyat apararaq əldə edilən məlumatları idarəetmə məntəqələrinə ötürürlər.

Tapşırıqların icrası zamanı ərazinin optik və radioelektron kəşfiyyatının aparılması üçün nəzərdə tutulan xüsusi PUA-lardan istifadə olunur.

PUA heyətləri şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkarlanması, məhv edilməsi və müvafiq məlumatların artilleriya bölmələrinin atəşin idarəedilməsi məntəqəsinə göndərilməsi üzrə tapşırıqları da icra edirlər.

Təlim-məşq uçuşları çərçivəsində heyətlər praktiki döyüş atışlarını yerinə yetirərək şərti düşmən hədəflərini dəqiqliklə məhv edirlər.

Jurnalist araşdırması

# Azərbaycanın dostları

## Müharibə qurtarsa da, “döyüş” davam edir

*Əvvəli 1-ci səh.*

### “Böyük Ermənistan” yaradanların müəmmalı köçü



Biz Maruan Sudah, onun həyat yoldaşı və qızı ilə ətraflı söhbət etdik. Məqsədimiz ərəb dünyasında Qarabağla bağlı məlumatların 15 il əvvəl və bu gün yayılması arasındakı fərqi araşdırmaq, müsbət və mənfi tendensiyaların nədən ibarət olduğunu çözələmək idi. Bu baxımdan həm 30 illik işğal dövründəki, həm də torpaqlarımız erməni işğalından azad edildikdən sonrakı vəziyyəti ərəb jurnalistlərinin gözü ilə nəzərdən keçirdik, dövlətimizin təbliğat müharibəsində qazandığı uğurlara və tətbiq etdiyi yeniliklərə bir qədər uzaqdan - İordaniya KİV nümayəndələrinin analitik baxış bucağından baxdıq.

Mövzuya adlamamışdan öncə sadə bir suala cavab axtardıq: Qarabağ mövzusu, Ermənistan-Azərbaycan münaqişəsi ərəb ölkələri üçün nə dərəcədə aktualdır ki, onu bu qədər geniş araşdırmağa ehtiyac yaransın? ru.wikipedia.org/wiki/ Армянская диаспора saytında göstərilir ki, Suriyada 190 min, Livanda 160 min, İraqda 20 min, Misirdə 8,2 min erməni var. Həmin saytda İordaniyada da 35 min erməninin yaşadığı bildirilir. İordaniyalı dostlarımız həmin rəqəmin cəfəngiyyat olduğunu, bu ölkədə yaşayan 300 min xristianın cəmi bir faizinin - 3 min nəfərin erməni olduğunu dedilər.

Adıçəkilən saytda heyrət doğuran digər statistik rəqəmlərlə də rastlaşdıq. 2009-2010-cu illərdən 2020-ci ilədək ermənilərin sayının Rusiyada 1,7 milyondan 3 milyona, Fransada 250 mindən 700 minə, ABŞ-da isə 484 mindən 2 milyona kimi artdığı göstərilir. Belə çıxır ki, əgər bu 3 ölkədə 2010-cu iləcən təxminən 2 milyon 434 min erməni yaşayırdısa, 2020-ci ildə onların sayı sürətlə artaraq 5 milyon 700 minə çatmışdır. “Böyük Ermənistan” ideyası ilə zəhərlənən bir xalqın Ermənistanda sayının 3 milyon 500 mindən 1 milyon 500 minə düşməsi, Fransa, ABŞ və Rusiyada isə cəmi 10 il ərzində 5 milyon 700 minəcən - təxminən iki dəfədən çox artması heyrət doğurur. Necə olur ki, “Böyük Ermənistan” ideyası ilə çırpınan və savaşan xalq ildırım sürəti ilə vətənini tərk edir? Əgər ermənilər “Böyük Ermənistan” ideyasına belə tüpürürlərsə, həmin cəfəng ideyanı bu xalqa sırımağa hansı qüvvələr çalışır? Məsələ burasındadır ki, araşdırmaq istədiyimiz ərəb ölkələrindən də ermənilər köç edirlər. Amma orada yenə də kifayət qədər erməni yaşayır. Bu gün 5 ərəb ölkəsində onların təxmini sayı 400 minə yaxındır.

Maruanın həyat yoldaşı Yelena izah edir ki, bu, böyük qüvvədir. Azərbaycanla müqayisədə onların təbliğat sahəsində əsrlik təcrübəsi, işlək mexanizmləri və sabit maliyyə mənbələri var. Erməni diasporu öz yalanlarını sistemli surətdə ərəb kütləvi informasiya vasitələrində yerləşdirə, ictimai fikri öz tərəflərinə çəkə bilir. Bu baxımdan Azərbaycan ərəb dünyasında fərqli yanaşma ilə seçilən təbliğat maşınını qurmalı, günümüzədək qazanılan uğurları mütəmadi artırmalıdır.

### Sudah Maruan və ailəsi

Sudahlar ərəb dünyasında Azərbaycanın haqq işini fərqli bir tərzdə müdafiə edən ilk jurnalistlərdəndir. Maruanla 43 ildir ki, dostluq edirik. Dostluğumuzun baməzə bir tarixçəsi var. 1978-ci ildə Lomonosov adına MDU-nun hazırlıq kursunda oxuduğumuz zaman bir gün onunla yataqxanamızın yanından keçən Zaqorodnoye şosesi ilə üzüaşağı gedirdik. Yolun solundakı yanacaqdoldurma məntəqəsində benzin dolduran qurğuların biri qəfildən alışdı və ətrafı alov bürüdü. “Maruan, qaçdıq!” deyə qışqırdım və yanğını söndürməyə cumdum. Oraya çatanda gördüm ki, dostum qeyb olub. Amma 10-15 saniyə keçməmiş Maruan tələsik yaxınlaşdı, əlini çiynimə qoyub dedi ki, qardaş, bağışla, elə bildim əks tərəfə qaçmaq lazım olduğunu dedin. O vaxt Maruan rus dilini o qədər də yaxşı bilmirdi, anlaşılmazlıq da bundan yaranmışdı.

Yanğını söndürüb geri qayıdanda elə hey rus dilini pis bildiyinə görə özünə qeyzlənib deyinirdi. Məni tək qoymadığı üçün həmin gün anladım ki, ona güvənmək olar.

Maruan cavan olsa da, İordaniyada bir kommunist kimi marksist ədəbiyyatını yaydığı üçün həbsə alınmışdır. Dediyinə görə, hətta işgəncələrə məruz qalmışdır.



Moskvada hazırlıq kursunu bitirdikdən sonra o, Sankt-Peterburq Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olmuş, rus qızı ilə ailə qurmuşdur. Təhsilini başa vurduqdan sonra həyat yoldaşı Yelena ilə birlikdə vətəninə dönmüşdür. Uzun illər müxtəlif qəzetlərdə çalışmışdır. Hazırda isə beynəlxalq mövzuda yazan yaşlı ərəb jurnalistlərindəndir. Rusiyada, Çində, Şimali Koreyada, Qazaxıstanda, Azərbaycanda və bir sıra başqa ölkələrdə olub. Fəaliyyəti bir neçə dövlət tərəfindən orden, medal və hədiyyələrlə qiymətləndirilib. Ölkəmizlə ilk tanışlığı ötən əsrin 70-ci illərində Azərbaycan radiosunun ərəb redaksiyası ilə əməkdaşlıqdan başlayıb. Artıq 50 ildən çoxdur ki, Azərbaycanla bağlı yazılarla çıxış edir. Məqalələri ərəb mətbuatından başqa “Azərbaycan” qəzetində dərc edilir, “AZƏRTAC”ın xətti ilə tərcümə edilərək ölkə KİV-ində yayılır.

Maruan Sudah erməni təbliğatını iki mərhələyə bölür. Birinci mərhələ Azərbaycan torpaqlarının işğal altında olduğu illəri əhatə edir. İkinci mərhələyə isə 44 günlük müharibə və böyük Qələbədən sonrakı dövr aiddir.

### İşğalçı dövlətin azğın təbliğat maşını

XX əsrin sonlarında Azərbaycan müstəqilliyinə qovuşduqdan bir qədər sonra erməni faşist qüvvələri Dağlıq Qarabağı işğal etdilər. Həmsöhbətlərim həmin illəri xatırlayarkən qeyd edirlər ki, o zaman İordaniyada, eləcə də digər ərəb ölkələrində heç kim Bakıda real vəziyyətin necə olması haqqında təsəvvürə malik deyildi. Erməni təbliğat maşını isə var gücü ilə işləyir, özünün işğalçı siyasətini gizlətmək və bütün günahları Azərbaycanın üstünə atmaq üçün dəridən-qabıqdan çıxırdı. “Artcax”ın “azad olunması” eninə-uzununa təbliğ edilirdi. “Əzabkeş” xalqın “ədaləti bərpa etdiyi” xəbəri yayılırdı. Bu isə o demək idi ki, bütün dünyada erməni təbliğat maşını eyni ssenari üzrə çalışırdı, eyni mərkəzdən idarə olunurdu.

İordaniyada ölkəmizin səfirliyi açıldıqdan sonra Azərbaycan həqiqətlərinin çatdırılması istiqamətində müəyyən addımlar atılmağa başladı. Bu yerdə qeyd edək ki, dostumuz Maruan hələ uşaqlıqdan - 1970-ci illərin əvvəlindən Azərbaycan radiosunun ərəb redaksiyası ilə məktublaşır, müsabiqələrdə iştirak edir, sovet Azərbaycanı haqqında jurnal və kitablar oxuyurdu. Ölkəmizə sevgi və maraq daha sonralar onu İordaniyaya səfir təyin edilən Elman Araslı ilə yaxınlaşdırdı. İllər ötdükcə bu münasibətlər ailəvi dostluğa çevrildi. Yelena da səfir Elman Araslının həyat yoldaşı Elvira xanımın xahişi ilə ona “İordaniya - sevgim mənim” kitabını yazarkən yaxından kömək etdi. Yelena belə deyir: “Azərbaycan səfiri ilə belə möhkəm ailəvi əlaqələrimiz, təbii ki, bizi ömürlük Azərbaycana bağladı və biz bu ölkənin uğurlu fəaliyyətinin təbliğatçılarına çevrildik. Biz o vaxtdan indiyədək Azərbaycan səfirliyi ilə İordaniya mətbuatı arasında körpü rolunu oynamışıq və bu gün də həmin vəzifəni məmnuniyyətlə yerinə yetiririk. Bizim Azərbaycana olan daimi rəğbətimiz qızımız Mariyaya da təsir etmiş və o da bizim tutduğumuz yolu seçmişdir”. Lakin müsahiblərim etiraf edirlər ki, o illər erməni təbliğatına qarşı mübarizə aparmaq o qədər də asan deyildi.

5-6 il əvvəl Maruan Sudah işlədiyi nüfuzlu “Əl Rəy” qəzetində erməni təbliğatını və Ermənistan dövlətinin işğalçı siyasətini açıb göstərən yazı ilə çıxış etdi. Erməni diasporu müəllifə qarşı dərhal əks-hücuma keçdi, təqiblər, hədələr başlandı. Eyni zamanda birbaşa redaksiyaya müraciətlər göndərildi və Maruan Sudahın işdən qovulması məsələsi qaldırıldı. Özlərini həmişə haqlı tərəf kimi qəbul etdirə bilən və İordaniya cəmiyyətində heç bir müqavimətlə üzləşməyən erməni diasporu Sudahın işdən çıxarılmasına nail oldu. Bəli, rəqibləri olmadığı üçün erməni diasporu informasiya məkanında ağalıq edə, istədiyi adamı məhşər ayağına çəkə bilirdi.

Yelena Neqodina bir məsələyə də aydınlıq gətirdi. Dedi ki, onların ailəsi Azərbaycanı müdafiə edərkən yalnız bir məqsəd güdür: “Biz bunu ona görə edirdik ki, Azərbaycan kimi kiçik dövlətin əraziləri işğalçılar tərəfindən qəsb edilmişdi, hər bir ədalətli insanın isə vəzifəsi haqqı müdafiə etməkdir. Bilirsinizmi, gizlətmək istəmirəm, şəxsən mənim erməni tanışlarım var. Bizim çıxışlarımız dinc və sülh şəraitində yaşamağa can atan erməni xalqına qarşı deyil. Hətta biz bu addımı atsaq belə İordaniya dövlətinin qanunlarına görə cinayət məsuliyyətinə cəlb oluna bilərik. Biz işğala, dinc əhaliyə tutulan işgəncələrə rəhbərlik edən Ermənistan dövlətinin aqressiv siyasətinə qarşıyıq”.

### Dönüş nöqtəsi

Maruan Sudah belə hesab edir ki, ərəb dünyasında 44 günlük müharibənin ilk günlərindən Azərbaycan həqiqətlərinin təbliğində böyük imkanlar yarandı və erməni təbliğat maşını sürətlə çökməyə başladı: “Prezident İlham Əliyevin müharibə dövründə xarici KİV-ə verdiyi 30-dan çox müsahibə ideoloji cəbhədəki gələcək qələbələrinizin təməlini qoydu. Azərbaycan Prezidenti bu müsahibələrində “zavallı və əzabkeş xalq”ın ağıları arxasında gizlənən erməni faşizminin mahiyyətini məharətlə ifşa edirdi. Xarici jurnalistlərə verilən bir çox müsahibələr əsl söz döyüşünü xatırladırdı. Prezident İlham Əliyev heç kimin qarşısından geri çəkilmədi, bütün ittihamlara ləyaqətlə, təmkinlə müdrik cavablar verdi. Bu müsahibələrə bütün dünya baxırdı, ərəb dünyasında da onlar yayımlanırdı. Müsahibələrin sayı artdıqca uydurma erməni təbliğatı sabun köpüyü kimi partlayırdı, işğalçı dövlətin iç üzü açılır, erməni faşizmi ifşa edilirdi. Əsrlər boyu dünya ictimaiyyətinin şüurunu yalanlarla zəhərləyən erməni təbliğatı 44 günün içində ölümcül zərbələr aldı”.

Yelena da razılaşır: “İşğal olunmuş ərazilər azad edilərkən müharibə səhnəsində aparılan döyüşlərinmi, yoxsa Prezident İlham Əliyevin müsahibələrininmi erməni işğalçılarına daha ağır zərbə vurduğunu demək çətindir. Lakin mənə elə gəlir ki, hər iki cəbhədə aparılan döyüşlər mükəmməl idi və kənardan baxanlarda heyrət doğurmaya bilməzdi. Bütün dünya, o cümlədən ərəb dünyası kimin haqlı və kimin haqsız olduğunu aydın gördü”.

### Erməni təbliğat maşınına ölümcül zərbə

Həqiqətən ağır döyüşlərin getdiyi günlərdə dünya KİV-ində yayılan açıqlamalar hamının diqqətini çəkirdi. Hər müsahibə Azərbaycanın necə əsassız təzyiqlərə məruz qaldığını, bu müharibədə nə dərəcədə haqlı olduğunu üzə çıxarırdı. “Cəbhə bölgəsində Azərbaycanın yaşayış məskənləri işğaldan azad edildikcə bu torpaqlardan təcili görüntülər yayılırdı. Biz hamımız işğaldan azad edilmiş ərazilərdə törədilən vəhşilikləri, qətlləri görürdük. Onlar nəinki məscidləri dağıdıb orada mal-qara saxlayır, hətta xristian abidələrinə də qənim kəsilmişdilər, - deyən Maruan sözünə davam edir: “Azərbaycan tərəfinin döyüşlər ərəfəsindəki yaydığı təcili məlumatlar və görüntülər uydurma erməni təbliğatını çökdürürdü, dünya sizin dövlətin müharibəyə zorla təhrik edilən tərəf kimi hansı böyük itkilərə məruz qaldığını görürdü. Sizin təbliğat maşını çox səlis işləyir, bütün haqsız informasiya hücumlarının qarşısını yubanmadan alırdı”.



Bəli, dağıdılan şəhərlər, viran qoyulan kəndlər özlərini mədəni, müdrik və sivil xalq kimi dünyaya təqdim edən erməni işğalçılarının iç üzünü açdı. Bunu bütün dünya, o cümlədən ərəb ölkələrindəki kütləvi informasiya vasitələrinin rəhbərləri gördülər. İndi hamımız anlayırıq ki, Ermənistan dövləti vəhşiliklərini gizlədir, yalan danışır və hər şeyi Azərbaycan tərəfinin üstünə atmağa çalışır. Artıq heç kim onlara inanmır, onların təbliğatının cəfəngiyyat olduğunu anlayırlar. Müharibə bitdikdən sonra işğal edilmiş ərazilərdən geniş reportajlar verildi, çoxsaylı KİV nümayəndələri, səfirliklərin əməkdaşları erməni işğalçılarının viran qoyduğu, bombaladığı ərazilərə dəvət edildi.

Bu gün İordaniyada erməni dövlətinin yalanlarına heç kim inanmır, heç bir diaspor təmsilçisi əvvəlki illərdə olduğu kimi, mətbu orqanların üstünə yeriyib haqlarında yazılanları böhtan, iftira adlandıra bilmir və artıq buna cəsarəti də çatmır.

### Qələbə ruhən güclünün tərəfindədir

Ali Baş Komandanın və ordumuzun erməni işğalçıları üzərində tarixi qələbəsi erməni faşizmini həm darmadağın, həm də ifşa etdi. Lakin reallıqlar onu göstərir ki, düşmən döyüş mövqelərini qorxaqcasına atıb qaçsa da, tarixin dərslərindən və acı məğlubiyyətindən ibrət almaq əvəzinə informasiya cəbhəsində həmlələrini səngitmək niyyətində deyil. Bu gün erməni təbliğat maşını dünya ictimaiyyətinin rəyini öz mənafeyinə dəyişmək üçün ideoloji müharibənin bütün elementlərindən yararlanmağa çalışır, əks-hücuma keçərək mövqelərindən geri çəkilmir. Onların mübarizə texnologiyaları yüz il əvvəl olduğu kimi yenə yalana, şantaja, hər şeydə qarşı tərəfi ittiham etməyə əsaslanır. İftira, böhtan üzərində qurulan, “qədim, müdrik və əzabkeş xalq” imicini bayraq edən erməni təbliğatı köhnə havada yallı getdikcə daha çox uduzur, özünü ifşa edir.

XVI əsrin hüquqşünası Prüden de Sen-Morinin kitabının üz qabığında latın dilində belə bir deyim var: “Ruhən güclülər qalib gəlir və fayda gətirir”. 400 yüz il əvvəl yazılan bu ifadə Azərbaycanın bugünkü Qələbəsinin mahiyyətini izah edir, artıq tarixə çevrilən müharibədən hər iki tərəfə faydalanmağın mövcud yollarını göstərir. Amma nə edəsən ki, dövlətimiz sülhə və barışa səmtlənən bütün zəruri addımları atsa da, erməni siyasi elitası nə xalqının, nə məğlubiyyətlərinin faciəsini dərk edir, nə də Azərbaycanın əməkdaşlıq təkliflərindən faydalanır.

### Köklü islahatların və yeni ideyaların təsir gücü

Ərəb jurnalistləri söhbət zamanı onu da qeyd etdilər ki, Azərbaycanda aparılan köklü islahatlar xarici siyasət idarəsinin və səfirliklərin fəaliyyətində aşkar hiss olunur. Onlar əvvəlki illərdəkindən daha fəaldır, daha çevik hərəkətlər edir, yerli mətbuat orqanları ilə birbaşa daha dərin əməkdaşlıq əlaqələri qurmağa çalışırlar. Maruanın fikrincə, Azərbaycan ağır maharibədən çıxmasına baxmayaraq, bütün istiqamətlərdə uğurla inkişaf edir. Ölkə Qarabağda quruculuq işlərinə start verib, yüksək texnologiyalara keçir, “ağıllı şəhər” və “ağıllı kənd” layihələrini reallaşdırır, yollar çəkir, aeroportlar tikir. Bütün bunlar qürur doğurur. O, belə deyir: “Ermənistan dövlətinin işğalçılıq siyasətinin bundan sonra da ifşa edilməsi zəruridir. Burada yeni ideyaların, yeni fikirlərin tətbiq edilməsi vacibdir. Bizim ailəmiz mütləq hər həftə Azərbaycanla bağlı İordaniya mətbuatında çıxış edir. Bundan başqa, fəaliyyətimizi bir qədər də genişləndirmişik. Artıq İordaniya jurnalistlərinin “Azərbaycanın dostları” saytını yaratmışıq, onun fəaliyyətini genişlədiririk. Bu saytda bir neçə ərəb ölkəsinə çıxışımız var. Azərbaycan KİV ilə də münasibətlərimiz dərinləşir. Onların xahişləri ilə vacib yazıları İordaniya mətbuatında yerləşdirməyə başlamışıq. Artıq müsbət nümunələrimiz var”.

Yelena, qızı Mariya da bildirirlər ki, bu münaqişəni işıqlandırarkən onu yaradan real səbəbləri cəmiyyətlərinə təqdim etməyə çalışırlar: “Lakin hələ də nəinki İordaniyada, bütünlükdə Yaxın Şərqdə, ərəb ölkələrində, əsasən Liviyada, Suriyada çoxsaylı erməni diasporu münaqişənin əsl səbəblərini gizlədərək, yanlış məlumatları yayırlar. Ərəb ölkələrindəki Azərbaycan səfirliklərinə 400 min nəfərlik erməni diasporunun zərərli fəaliyyətinin qarşısını almaq o qədər də asan deyil”.

Yelena belə deyir: “Həm İordaniyada, həm də digər ərəb ölkələrində azərbaycanlı qadınlar çoxdur. Digər postsovet ölkələrində də ərəblərlə ailə quran xanımlar var. Onlar asanlıqla birləşərək cəmiyyət yarada, bu istiqamətdə daha faydalı işlər görə bilərlər. Bizə gəldikdə həmişə lazım olan dəstəyi verməyə hazırıq”.

Söhbətimizin sonunda Maruana bir sualla müraciət etdim:

*- Sən bir neçə dövlətin orden və medalları ilə təltif olunmusan. Onların sırasında Azərbaycandan təltiflərin varmı?*

*- Yaxşı sualdır, - deyə Maruan gülümsəyir. - Mən sizin ölkədən heç vaxt hər hansı bir təltif gözləməmişəm, burada əqidə məsələsi daha vacibdir.*

*- Bəlkə könlündən nəsə keçir? - deyə dostumdan zarafatyana soruşdum.*

*- Əlbəttə ki, keçir. Azərbaycana 50 illik bağlılığım mənə ölkənizin vətəndaşlığını xahiş etməyə imkan verir. İstərdim ki, cibimdə Azərbaycan pasportu olsun, azərbaycanlı adını daşıyım.*

**Bahadur İMANQULİYEV,**
**“Azərbaycan”**

# ABŞ Prezidentinin ermənilərə “quyu qazan” populizmi

ABŞ Prezidenti illər sonra ilk dəfə “erməni genosidi” ifadəsini işlədib. Bununla da Ağ Evin sahibi illərdir ABŞ-dan “dəstək” dilənən, amma eyni zamanda özünün təbirincə desək, “ABŞ-ı zənginləşdirən” ermənilərə sədəqəsini əsirgəməyib. Əslində, Baydenin bu addımı atmaması təəccüb doğura bilərdi. Bəlli olduğu kimi, Bayden ABŞ-da erməni məsələsinin lobbiçilərindən olub. 1995-2007-ci illərdə senator olduğu dönəmdə Bayden ABŞ Konqresinin erməni məsələləri üzrə qrupunda təmsil olunub və ədalətsiz 907-ci düzəlişə səs verib. 1997-ci ildə Federal Cinayət Məcəlləsinə yalnız “soyqırımı” tərifini deyil, həm də bu cinayətə görə cəza təyin edən qanunvericilik düzəlişinin müəllifi olub. Vitse-prezident kimi fəaliyyətə başladıqdan sonra da Bayden erməni havadarlığından əl çəkməyib və Vaşinqtonda saxta soyqırımı qurbanları üçün təşkil edilən ibadətə qatılıb.

2020-ci il prezident seçkisi kampaniyası zamanı Bayden ermənilərə Konqresin “erməni soyqırımı”nı tanıyan qərarını dəstəkləyəcəyinə söz verib və bu yöndə simvolik addımını atıb. Ermənistan üçün ABŞ-dakı nüfuzlu erməni lobbisinin fəallığı hər zaman motivasiyaedici əhəmiyyət daşıyıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 26-da keçirilən mətbuat konfransında Baydenin bəyanatını şərh edərkən həm də ABŞ-ın Cənubi Qafqazda baş verənləri spekulyasiya obyektinə çevirmək cəhdlərinə də toxunub: “30 il əvvəl işğal olunmuş Qarabağ və Azərbaycan şəhərlərində edilənlər göz önündədir. Hörmətli Bayden, Minsk qrupu deyilən bir üçlük quruldu. 30 il ərzində bu işğala son qoymadınız. Təəssüf ki, oradakı insanlar, bir milyondan çox azərbaycanlı qardaşlarımız doğma yurdlarından köç etmək məcburiyyətində qaldılar. Bütün o yerlər, o Qarabağ, bütün binalar, hər şey təəssüf ki, yandırıldı, məhv edildi. Soyqırımı deyirsinizsə, güzgüyə baxmalı və özünüzü qiymətləndirməlisiniz. Hinduları deməyimə ehtiyac yoxdur. Bütün bunlar ortada ikən ayağa qalxaraq Türkiyəyə və türk millətinə soyqırımı damğası vura bilməzsiniz”.

Məsələnin mahiyyətinə gəldikdə isə baş verənlər ABŞ rəsmilərinin növbəti ikili standartlara əsaslanan “siyasi tamaşası”ndan başqa bir şey deyil və heç də yüksək humanizm dəyərlərinə sadiqlik nümunəsi kimi dəyərləndirilməməlidir. Bir fakta diqqət çəkmək kifayətdir ki, soyqırımının istənilən təzahürlərini qadağan edən konvensiyaya ABŞ yalnız 1988-ci ildə qoşulub. Bəlli olduğu kimi, BMT Konvensiyası soyqırımı “milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək məqsədi ilə” törədilmiş bir əməl kimi şərh edir. Bu mətn hər kəs üçün aydındır. Məsələ burasındadır ki, ermənilər 1915-1923-cü illərdə baş verən hadisələri fərqli qəbul edir və yenə öz amplualarındadırlar. Xülasə, ermənilər hər zaman olduğu kimi, “adımı sənə qoyum, səni yana-yana qoyum” fəlsəfəsindən çıxış edərək bu məsələdən də əzəli-əbədi türk düşmənçiliyində bir addım irəli düşmək şansı kimi yararlanmaq iddiasındadırlar. Bu şou, ABŞ Prezidentinin yalnız simvolik önəm daşıyan çıxışı ilə bağlı ermənilərin eyforiyası həmçinin 44 günlük Vətən müharibəsində bədnam qonşularımızın biabırçı məğlubiyyətini, Azərbaycanın tarixə düşən parlaq Zəfərini unutdurmaq, kölgədə qoymaq məqsədi güdür.

Təəccüb doğuran onların dəyirmanına su tökənin kimliyi ilə bağlıdır. Bayden kifayət qədər təcrübəli siyasətçidir. Və gözəl anlamalıdır ki, əgər vəkil Lemkinin 75 il öncə siyasi dövriyyəyə gətirdiyi soyqırımı etnik təmizləmədirsə, onda etnik təmizləməni, terroru XX əsrin əvvəllərindən milli ideologiya səviyyəsinə qaldıran Ermənistan qınananların ön sırasında olmalıdır. Yoxsa türkləri və azərbaycanlıları qətlə yetirənlər terrorçu hesab edilmir? Axı öz seçkiqabağı kampaniyası gedişində Bayden bu cür hallarda “susqunluğun ortaqlıq kimi” anlaşıla biləcəyinə eyham vurmuşdu. O zaman düşünülə bilər ki, ABŞ hökuməti və bütövlükdə Qərb dünyası XX əsrin əvvəllərində erməni daşnaklarının Türkiyə və Azərbaycan ərazisindəki vandallıqlarına, Xocalı soyqırımına laqeydlik nümayiş etdirməklə onların cinayətlərinə şərik çıxır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ Prezidentinin erməni anım günü münasibətilə etdiyi çıxışına dair şərhində bu məqama xüsusi diqqət çəkilib: “100 il bundan öncə baş verən hadisələr yanlış şəkildə təqdim edilərkən 30 il bundan öncə Ermənistan tərəfindən Xocalıda azərbaycanlılara qarşı törədilən soyqırımına hələ də ədalətli qiymətin verilməməsi qərəzlilik və ikili standart nümunəsidir”.

Baydenin siyasi populizmi Cənubi Qafqaz regionunda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurur. Amma görünür, Oval kabinetin sahibi Türkiyə və Azərbaycanın regionda güclənməsini o dərəcədə həzm edə bilmir ki, bu ayrıntıları gözardı edir. Əslində ABŞ Administrasiyası düzgün hesablayıb ki, türk dünyasının əzəmətini qaytarmaq üçün həm beynəlxalq müstəvidə söz sahibi olan Türkiyənin Prezidenti Ərdoğan, həm də hazırda tarixinin ən qüdrətli dönəmini yaşayan Azərbaycanın Prezidenti İlham Əliyevdə yetərincə xarizma, nüfuz və böyük siyasətçilərə xas baxış bucağı var. Hər iki dövlətin başçısı müstəqil və praqmatik siyasət reallaşdıran, elektoratının həlledici çoxluğunun dəstəyinə sahib uzaqgörən və cəsarətli liderlərdir və istənilən məsələdə bir-birinin yanındadırlar.

Bu reallıqların fonunda ABŞ hazırda keçmiş müttəfiqinin “inad”ını qırmaq üçün siyasi müstəvidə nəhəng oyunçu olduğunu zaman-zaman Suriyada, Liviyada, Qafqazda təsdiqləyən Türkiyənin müstəqil siyasət yürütdüyü bölgələrdə münaqişələrin qızışdırılmasında da olmasa, “yavaş tüstüləməsində” birbaşa maraqlıdır. Çünki ABŞ-da II Dünya savaşından sonra qurulan dünya düzəninin çökməkdə olduğunu, şərtlərin dəyişdiyini və üç önəmli Avroatlantika, Asiya və Avrasiya güc mərkəzləri arasında mücadilənin alovlandığını yaxşı dərk edirlər. Həmçinin Türkiyənin bu arada önəmli mövqeyini də düzgün dəyərləndirirlər ki, çıxış yolunu ona təzyiq etməkdə görürlər. Bəli, Baydenin bəyanatı geosiyasi gediş, “erməni genosidi” isə Ankaraya hesablanmış təsir vasitəsidir. Yoxsa Bayden də, ABŞ siyasi elitası da 1915-ci ildə Şərqi Anadoluda baş verənlərin soyqırımı olmadığını, “Köç və Məskunlaşma Qanunu”nun da Osmanlı dövlətinin daxili təhlükəsizliyini qorumaq zərurətindən qaynaqlandığını yaxşı bilirlər.

Birinci Dünya savaşı gedişində ayrı-ayrı ölkələr zaman-zaman belə tədbirlərə əl atmışdılar və bu, hərbi siyasətin bir parçası idi. Maraqlı bir məqam da qeyd olunmalıdır ki, 1985-ci ildə məhz ABŞ-ın dünyada məşhur 69 tarixçisi və elm adamı 5 illik araşdırmaların nəticəsi olaraq “erməni soyqırımı” mifini yalanlayan deklarasiya imzalayıblar. Bu gün bu mifi tirajlayanların bu deklarasiyadan xəbərsiz olmadıqları faktdır. Əslində ermənilər özləri belə bu təbliğat terminini doğrulamağın mümkünsüzlüyünü anlayırlar.

Artıq qeyd etdiyimiz kimi, soyqırımı 1948-ci ildə BMT çərçivəsində yəhudi soyqırımı ilə bağlı hazırlanan konvensiyayla dövriyyəyə gətirilib. Bu sənədin ən önəmli məqamı - “bir olayın soyqırımı olaraq tanınması üçün qəsdən törədilməsi” şərtidir. Bu baxımdan yanaşdıqda qızıldərililərlə bağlı ABŞ-da yaşananlar soyqırımıdır.

Konvensiyada sənədin gündəmə gəldiyi andan etibarən baş verən olayları soyqırımı kimi dəyərləndirə bilmək üçün hazırlandığı və geri oxunmadığı mesajı verilir. Bu səbəbdən keçmişdə tanınan və bilinən yeganə soyqırımı yəhudi qətliamıdır. Bu həqiqətlər Baydenin bəyanatının tarixi səhv olduğunu bir daha təsdiqləyir. Görünən odur ki, 78 yaşlı siyasətçi bilərəkdən yeganə qurtuluşu Qarabağ probleminin həllinin ardınca bölgədə sülhün bərqərar olması, kommunikasiya xətlərinin bərpası olan Ermənistanı yenidən fəlakət girdabına sürükləyir.

**Ziyafət HƏBİBOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar süfrəsi açılıb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Azərbaycan Günü təşkil edilib və iftar süfrəsi açılıb.





AZƏRTAC xəbər verir ki, Moskva Müsəlmanları Dini İdarəsinin təşkilatçılığı, Rusiya Müsəlmanları Dini İdarəsi və Moskva hökumətinin dəstəyi ilə "Poklannaya qora"da qurulmuş "Ramazan çadırı"nda keçirilən gecədə ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan 1000-ə yaxın müsəlman iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Zaur Paşayev, Moskva müsəlmanları məktəbinin direktoru Ənas Həzrət Məmmədov iftarın təşkilinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya, eləcə də "Ramazan çadırı"nın təşkilatçılarına təşəkkürlərini bildiriblər.

"Ramazan çadırı"nın təşkilatçıları dini-mənəvi dəyərlərə verdiyi yüksək qiymətə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı təşəkkür məktubu ilə təltif ediblər.

Tədbirdə Azərbaycanda multikulturalizm ənənələrindən bəhs edən film nümayiş etdirilib, Moskva müsəlmanları məktəbi şagirdlərinin ifasında dini şeirlər, dini mahnılar ifa olunub, "AMOR" və "İRS-Naslediye" jurnalları paylanıb.

İftardan əvvəl müqəddəs "Qurani-Kərim"dən ayələr və axşam duası oxunub. Sonra müsəlmanlar iftarlarını açıb, Azərbaycan milli mətbəxinin təamlarından və şirniyyatlarından dadıblar.

Qeyd edək ki, Rusiya Müftilər Şurasının mühüm layihəsi olan "Ramazan çadırı" xalqlar arasında dostluğu möhkəmlətmək, Moskvada yaşayan və islam dininə etiqad bəsləyən çoxsaylı xalqların nümayəndələrini birləşdirmək məqsədilə həyata keçirilir. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi hər il bu layihədə fəal iştirak edir, dindarlar üçün iftar süfrəsi açır.

## 5 May xalçaçı günüdür

# Xalı-xalçanın xalı gözəl...



Azərbaycan xalqının tarixində və mədəniyyətində elə sənətkarlıq nümunələri var ki, onlar əsrləri yola salmaqdadır. Bu sənət əsərlərində həm tariximizin, həm də mədəniyyətimizin ilkinlikləri öz işartılarını və inkişafını qoruyub saxlamaqdadır. Onlardan biri də ilmələrdən naxışlanmış xalı-xalçalardır.

## Ərişə dolanıb, arğacda ilmələnən, naxışların dili ilə danışan xalçaçılıq milli-mənəvi dəyərlərimiz kimi əsrlərin yadigarıdır

Mənalı ömrünü və şərəflə keçdiyi yolu xalçaçılıq sənətinə həsr edən Lətif Kərimovun bu sahədəki xidmətlərindən biri də 1972-ci ildə Bakıda Xalçaçılıq Muzeyinin təşkilinə nail olmasıdır.

"Azərbaycanın ənənəvi xalçaçılıq sənəti" 2010-cu ildə UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu da qədim sənət nümunələrimizin ermənilər tərəfindən saxtalaşdırılmasının qarşısının alınmasında mühüm vasitələrdən biridir. Buna isə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın şəxsi təşəbbüs və xidmətləri sayəsində nail olunub.

Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 2017-ci ildə 20-dən çox ölkədən mütəxəssislərin iştirakı ilə "Ənənə və innovasiyalar" mövzusuna həsr olunmuş Azərbaycan xalçası üzrə V Beynəlxalq simpozium keçirilmişdir. Ölkə rəhbəri tərəfindən imzalanmış "Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası da bu sənətin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Heydər Əliyev Fondu tərəfindən, xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə UNESKO-nun baş qərargahında və xarici ölkələrdə Azərbaycan xalça sənətinin təbliği məqsədilə çoxsaylı layihələr reallaşdırılır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgi də keçirilmişdir.

2014-cü ildə paytaxt Bakıda, Dənizkənarı parkda Xalça Muzeyinin yeni binasının açılışı olub. Unikallığı, milli memarlıq üslubu ilə də diqqəti cəlb edən muzeyin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır.

Azərbaycan xalçaçılığı tarixi ənənələrə sadiqliyini bu gün də qoruyub saxlamaqdadır. Bir neçə bölgənin özünəməxsus xalçaçılıq sənəti yaşadılır ki, onlardan biri qarabağlılara məxsusdur. Ermənilərin dünyaya özlərininki kimi təqdim etdiyi Qarabağ xalçalarının 33 kompozisiyası var. Bu xalçalar Qarabağın Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və digər yerlərində istehsal olunurdu. Azərbaycanın cənub-qərbində yerləşən Qarabağ xalça məktəbi iki regionda - dağlıq və aran zonalarında inkişaf etmişdir. Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri, Daşbulaq, Dovşanlı, Girov, Çanaxçı, Köhnə Tuğlar, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayıb. "Aran", "Bağçadagüllər", "Buynuzı", "Bərdə", "Qarabağ", "Ləmbəran", "Muğan", "Talış", "Lampa", "Malıbəyli", "Xanqərvənd", "Xanlıq", "Xantirmə", "Çələbi", "Qızılgül", "Şabalıdbuta" və s. çeşnili kompozisiyalar Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir. Qarabağda evlərin interyerlərinə uyğunlaşdırılmış 5 xalçadan ibarət dəst xalı-gəbələr geniş yayılmışdır.

XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, "Bağçadagüllər", "Saxsıdagüllər", "Bulud" və s. çeşnilər toxunurdu. "Qarabağ" adı ilə tanınan xalçalar Azərbaycanın bütün xalçatoxuma müəssisələrində istehsal olunub və bu gün də toxunmaqdadır. İstehsal yerindən asılı olaraq bu xalçalara müxtəlif adlar verilib. Lakin sənətkarlar onları ümumilikdə "Qarabağ" xalçaları adlandırıblar. XIX əsrdə Şuşada İstanbul bazarlarına satış üçün istehsal olunan bu kompozisiyalı xalçalar "Xan" və ya "Xan Qarabağ" kimi müxtəlif adlar almışdılar.

Qarabağ Azərbaycanın ən tanınmış xalçatoxuma ərazisidir. Burada istehsal olunan xalçalar incəsənət əsərlərinin gözəl nümunəsi olub. XIX əsrdə Cəbrayılda, xüsusilə də Mirzəcanlı, Əfəndilər, Daşkəsən, Süleymanlı kəndlərində istehsal olunan xalçalar dünya bazarına və yarmarkalara ixrac olunanlardan daha gözəl hesab olunurdu. Qarabağ xalçaçılıq məktəbinin ən gözəl nümunələrindən biri də Cəbrayıl qrupuna aid edilən xovlu "Qasımuşağı"dır. Xalçanın adı Laçın rayonunun şimalında yerləşən Şamkənd, Ərikli, Çorman və Şəlvə kəndinin əhalisinin adı ilə bağlıdır.

Gəncə xalçaçılıq məktəbi şəhərin özünü, ətraf kəndləri, eləcə də Gədəbəy, Goranboy, Şəmkir, Samux rayonlarının ərazisini əhatə edib. X-XI əsrlərdə yüksəkkeyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xalça emalatxanaları fəaliyyət göstərib. Bu emalatxanalarda "Qədim Gəncə", "Çölkənd", "Faxralı", "Çaykənd" və digər kompozisiyalı xalçalar toxunub. Nizami yurdunda bu gün də dörd xalçaçılıq emalatxanası fəaliyyət göstərir. Onlar Heydər Əliyev Mərkəzində, Məhsəti Mərkəzində, Toxuculq Kombinatının nəzdində, biri isə əməkdar rəssam Şərif Şərifovun emalatxanasındadır. Toxuculuq kombinatında 20, Heydər Əliyev Mərkəzində 11, Məhsəti Mərkəzində 9, Şərif Şərifovun emalatxanasında 8 toxucu dəzgahı var. "Qollu çiçi", "Faxralı", "Qədim Gəncə", "Köhnə Qazax", "Butalı Gəncə" və sair adda xalçalar bu gün ən çox toxunanlar sırasındadır.

Azərbaycan xalçaları içərisində Şirvan qrupunun da özünəməxsus yeri var. Şirvan əhalisinin ev-məişətinin zəruri hissəsi olan xalçalar əsrlərboyu mənzillərin bədii tərtibatında başlıca yer tutub. Burada digər xalq sənət sahələri kimi, xalçaçılıq da bədii-texnoloji baxımdan müxtəlif inkişaf mərhələləri keçib. Əhalinin əsas təsərrüfat sahələrindən biri olan qoyunçuluq xalçaçılığın inkişafı üçün əlverişli zəmin yaradıb.

Şirvan xalçaları texnologiyasına görə xovsuz və xovlu növlərə bölünür. Bölgənin əsas xalçaçılıq mərkəzləri Şamaxı, Ağsu, Kürdəmir, Hacıqabul, Ağdaş, Göyçay, Zərdab, İsmayıllı, Qobustan, Ucar rayonlarının kəndlərini əhatə edir. Qəbələ və Salyan rayonlarının əhalisi tərəfindən toxunan xalçalar da texniki və bədii cəhətdən Şirvan xalçaları ilə bir çox oxşar cəhətlərə malik olduğundan, onlar da bu qrupa aid edilir. Şirvanın ən böyük xalçaçılıq mərkəzi Şamaxı şəhəri, onun ətrafındakı qəsəbə və kəndlər olub. Müasir Qobustan rayonunun kəndləri Azərbaycanın ən qədim xalçaçılıq məntəqələri kimi tanınıb. Elmi ədəbiyyatlarda "Mərəzə", "Nabur", "Çuxanlı", "Cəyirli", "Cəmcəmli", "Qabıstan" kimi adlandırılmış xovlu, kilim, palaz, zili tək xovsuz xalçalar məşhurdur. "Qaraçöp" xalçalarının adı Muğanlı, Ləmbəli, Tüllər kəndinin adı ilə bağlıdır. Azərbaycan xalçaçılıq məktəbinin əsas qollarından birini də Qazax xalçaçılıq məktəbi təşkil edir.

Qazax xalçaçlıq məktəbinə Azərbaycanın qədim şəhərlərindən olan Qazax və onun ətraf kəndləri, Ağstafa və Tovuz rayonları da daxildir. Göyçə xalçaçılıq mərkəzini Pəmpək, Ləmbəli, İcevan, Qaraqoyunlu və Göyçə gölü ətrafındakı ərazilər, Borçalı xalçaçılıq mərkəzini isə Borçalı, Qarayazı, Qaraçöp, Qaçağan xalça məntəqələri əhatə edir.

Qazax qrupuna "Şıxlı", "Borçalı", "Qaymaqlı", "Qaraqoyunlu", "Qarayazı", "Qaraçöp", "Qaçağan", "Dağkəsəmən", "Dəmirçilər", "Kəmərli", "Göyçəli", "Salahlı " və s. çeşnili xalçalar daxildir. Bu məktəblərin xalçalarında az rənglərlə ahəngdar kolorit yaradılır. Gəncə-Qazax xalçalarının naxışları hələ orta əsrlərdə Avropa rəssamlarının marağını cəlb edib və XI əsr italyan rəssamı Karlo Krivelonun "Müjdə", alman rəssamı Hans Holbeynin (XV əsr) "Elçilər" tablolarında bu xalçaların təsviri verilib.

Quba xalçaçılıq məktəbi Qonaqkənd və Dəvəçi rayonları daxil olmaqla, 35-ə yaxın ornament kompozisiyalı xalçaları əhatə edir. Bildiyimiz kimi, Quba ərazisi müxtəlif tayfalar yerləşən tarixi bölgədir. Burada Azərbaycan, ləzgi, tat, xınalıq, cek, buduq, qırız və başqa dillərdə danışan xalqlar yaşayır. Quba xalçaları bəzən ayrı-ayrı kəndlərdə toxunduqları üçün naxış müxtəliflikləri ilə fərqlənirlər. Onların ornamentlərinin böyük əksəriyyəti uyğunlaşdırılmış coğrafi və bitki motivləri ilə xarakterizə olunur. Onlardan "Qırız", "Qımıl", "Qonaqkənd", "Şahnəzərli" və digər xalçaları göstərmək olar.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# Azərbaycanda təhsil alan əcnəbi tələbələr Hərbi Qənimətlər Parkında olublar

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları, Azərbaycanda təhsil alan əcnəbi tələbələr Hərbi Qənimətlər Parkını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, nazirliyin əməkdaşları və əcnəbi tələbələr 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülən hərbi texnika və sursatlarla yaxından tanış olublar. Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov məlumat verib ki, tədbirə 28 ali məktəbdən 70-dən çox əcnəbi tələbə qoşulub: "Hazırda Hərbi Qənimətlər Parkını 49 ölkədən olan əcnəbi tələbə ziyarət edir. Məqsədimiz odur ki, ordumuzun uğurlarını əcnəbi tələbələr öz gözləri ilə görsünlər. Tələbələrimiz müxtəlif auditoriyalarda, paltformalarda təmsil olunurlar, sosial şəbəkələrdən istifadə edirlər. Bu da ölkəmizin suverenliyinin bərpa olunmasını dünyaya çatdırmaqda öz töhfəsini verəcək. Bu işlərin davamlı olması üçün gələcəkdə əcnəbi tələbələrimizlə işğaldan azad olunmuş torpaqlarımıza səfər də planlaşdırırıq".

Qeyd edək ki, Hərbi Qənimətlər Parkında İkinci Qarabağ müharibəsi zamanı qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

# Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavininin qanunsuz hərəkəti ilə bağlı Baş Prokurorluqda araşdırma aparılıb

Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Bayramova Xalidə Nuru qızının qanunsuz hərəkətlərə yol verməsi haqqında daxil olmuş məlumat əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma zamanı Xalidə Bayramovanın vəzifə səlahiyyətlərindən istifadə edərək, Səbail rayonu ərazisində yerləşən 1 saylı şəhər poliklinikasının vəzifəli şəxslərinə zəng edib COVID-19 xəstəliyi əleyhinə vaksinasiya prosesi ilə əlaqədar yaxın qohumuna peyvənd vurulmadan peyvəndlənmiş şəxs kimi qeydiyyata alınaraq, bu barədə tibbi sənədin verilməsini tələb etdiyi müəyyən olunub.

Qeyd edilənlərlə bağlı Xalidə Bayramovaya Baş Prokurorluq tərəfindən xəbərdarlıq edilməklə, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanununun tələblərinin pozulması səbəbindən barəsində qanuni tədbirlərin görülərək intizam məsuliyyətinə cəlb edilməsindən ötrü "Prokurorluq haqqında" Qanununun 23-cü maddəsinə əsasən, Səbail Rayon İcra Hakimiyyətinə müvafiq təqdimat verilib.

# FHN hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin mayın 5-i səhərdən başlayaraq ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, güclü külək əsəcəyi barədə proqnozu ilə bağlı əhaliyə müraciət edib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlik gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə təhlükəsizlik naminə ciddi zərurət olmadan güclü küləkli havada bayıra çıxmamağı tövsiyə edir.

"Bununla yanaşı, əgər güclü külək sizi küçədə haqlayıbsa, yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Bu zaman diqqətli hərəkət edərək yaxınlıqdakı binanın zirzəmisində və ya möhkəm tikilidə daldalanmağa çalışmaq lazımdır.

Həmçinin güclü külək zamanı xüsusilə açıq hava şəraitində baş verən yanğınların söndürülməsinin mürəkkəbliyi nəzərə alınaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsi tövsiyə olunur", - deyə nazirliyin müraciətində bildirilib.

# Azərbaycanda koronavirusa 963 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2091 nəfər müalicə olunaraq sağalıb, 963 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 322 min 761 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 296 min 875 nəfər müalicə olunaraq sağalıb, 4597 nəfər vəfat edib. Aktiv xəstə sayı 21289 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 279 min 163 test aparılıb. Dünənki test sayı isə 11328-dir.





## Lənkəran Dövlət Universiteti "LDU-nun 2 saylı tədris korpusunun bina və yeməkxana sahəsinin qazlaşdırılmasından ötrü, qaz təchizatı üçün texniki şərtin dəyişdirilməsi ilə əlaqədar layihə smeta sənədlərinin işlənməsi işləri"nin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 30.04.2021-ci il 08:30-dan 05.05.2021-ci il saat 17:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Tender komissiyası tərəfindən 21 aprel 2021-ci il tarixdə "Akademiyanın ərazisində 4-cü tədris korpusunun layihə-smeta sənədlərinin hazırlanması işinin satın alınması" üzrə keçirilmiş kotirovka sorğusu prosedurunda "AT və S" Məhdud Məsuliyyətli Cəmiyyət qalib elan edilmişdir.

Qalib təşkilatla 29 aprel 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərişıq" ASC 1/10/35 kV tipli güc kabellərin elektriki, konstruktiv və mexaniki bütövlüyünün bərpasını təmin edən vasitələrin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1**

1/10/35 kV tipli güc kabellərin elektriki, konstruktiv və mexaniki bütövlüyünün bərpasını təmin edən vasitələrin satın alınması.

**İştirak haqqı - 350 manat**

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bankın" Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Emil Əliyev (telefon: 440-39-93, daxili (29-18))
emil.aliyev@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Mənfəət bəyannaməsi); (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (İri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *təklif edilən malların yerli və ya beynəlxalq sertifikatları (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02 iyun 2021-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 10 iyun 2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 iyun 2021-ci il saat 12:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*Tender komissiyası*

## “Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Chevrolet Niva nəqliyyat vasitəsinin satın alınması üzrə kotirovka sorğusu elan edir

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış Əsas şərtlər toplusunu "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatından əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 08 may 2021-ci il saat 15:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Fəxrəddin Orucova müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri Yasamal rayonu, Qədirli küçəsi, 125

Telefon: (012) 538-92-35

e-mail: maliyye.aqrarkredit@mail.ru

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu 2020-ci il üzrə müstəqil auditor rəyi də daxil olmaqla maliyyə fəaliyyəti barədə illik hesabatının tərtibat və çap işlərinin satın alınması üçün təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498 77 53, faks: +99412 565 87 55, əlaqələndirici şəxslər: Cəmilə Abdullayeva-daxili: 1827, hüquqi məsələlər üzrə Fatimə Səlimli-daxili: 8025) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 17 may 2021-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 18 may 2021-ci il saat 10:00-da AZ1029, Bakı şəhəri Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## “Bakı Metropoliteni” QSC “Elmlər Akademiyası” stansiyasının inzibati binasının 5-ci mərtəbəsində pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: “Bakı Metropoliteni” QSC-nin “Elmlər Akademiyası” stansiyasının inzibati binasının 5-ci mərtəbəsində pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsindən əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov telefon:490-01-01)

**İştirak haqqı - 100 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02 iyun 2021-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 10 iyun 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 iyun 2021-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## “Sumqayıt Kimya Sənaye Parkı” MMC Sumqayıt Kimya Sənaye Parkının 167.66, 94.13 hektar və Pirallahı Sənaye Parkının ərazilərindəki nasosxanaların istismarda olan nasosların və elektrik mühərriklərinin təmiri işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower”də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri və ya sistemdən çıxarış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- texniki imkanlar barədə məlumat;
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **07 may 2021-ci il saat 18:00-dək** “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 may 2021-ci il saat 12:00-da** Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower”də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## “Qala Sığorta” ASC-nin səhmdarlarının nəzərinə

25.06.2021-ci il saat 16:00-da “Qala Sığorta” ASC-nin Bakı şəhəri Yasamal rayonu, Azərbaycan prospekti, 14, 221-ci məhəllə ünvanında yerləşən baş ofisində Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının növbəti iclası keçiriləcək.

İclasın gündəliyi:

- Cəmiyyətin 2020-ci il üzrə illik ümumi hesabatlarının təsdiqi;
- İclasda iştirak edən səsvermə hüququna malik səhmdarların yekdil razılığı ilə sair məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla “Qala Sığorta” ASC-nin Bakı şəhəri Yasamal rayonu, Azərbaycan prospekti, 14, 221-ci məhəllə ünvanında yerləşən baş ofisində tanış ola bilərlər.

*İdarə Heyəti*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**

**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 07 aprel 2021-ci il tarixdə www.etender.gov.az portalında, 08 aprel 2021-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş koronavirus (COVID-19) xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi xidmətinin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə “Sağlam Ailə” MMC iştirakçısı qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən “Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikinti işləri” ilə əlaqədar keçirilən açıq tenderin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq təkliflərin verilməsinin son müddəti 08 may 2021-ci il saat 18:00 və təklif zərflərinin açılışı vaxtı 16 may 2021-ci il saat 15:00 müəyyən edilmişdir.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **www.etender.gov.az** Portalında 24.12.2020-ci il tarixdə elan edilmiş “PRTG Network Monitor tool şəbəkəyə nəzarət sisteminin (lisenziya ilə birgə) satın alınması” üzrə keçirilən açıq tenderin qalibi **“R.İ.S.K. Elmi İstehsalat Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti** müəyyən edilmişdir.

Qalib təşkilatla 29.04.2021-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının gənclər və idman nazirinin

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

“Azərenerji” ASC-nin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova əzizi, Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, professor Azər Paşa Nemətov və ittifaqın İdarə Heyəti Azərbaycan Respublikasının gənclər və idman naziri, Milli Olimpiya Komitəsinin vitse-prezidenti

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Elmira Süleymanova Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5244
Sifariş 829
Qiyməti 40 qəpik